RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 56 (8935) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi dəstəkləyir



**Martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət zamanı Cənubi Qafqazda postmünaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə edilib.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün göstərdiyi səylərinə görə Prezident Şarl Mişelə təşəkkürünü bildirib.

Prezident Şarl Mişel qeyd edib ki, Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi, sülhü və çiçəklənməni dəstəkləməkdə davam edəcək.

Söhbət zamanı həmçinin Ukraynadakı son hadisələrin inkişafı və bunun Cənubi Qafqazda regional təhlükəsizliyə mümkün təsiri məsələləri də müzakirə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## İlham Əliyev Macarıstanın yeni prezidentini təbrik edib

### Macarıstanın yeni seçilmiş Prezidenti zati-aliləri xanım Katalin Novaka

Hörmətli xanım Novak!

Macarıstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstan arasındakı münasibətlərin dinamik inkişafı məmnunluq doğurur. Siyasi, iqtisadi və mədəni sahələrdə daim genişlənən əlaqələrimiz çoxtərəfli qaydada fəal əməkdaşlığımız ilə müşayiət olunur.

İnanıram ki, bu il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında ənənəvi dostluğun daha da möhkəmləndirilməsi, strateji tərəfdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2022-ci il*

## Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və martın 12-də Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma "parlament seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır.**

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Xarici İşlər Nazirliyi Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir.



# Azərbaycanın tarixi uğuru

## İlham Əliyev Ermənistanı daha bir mühüm geostrateji əhəmiyyətə malik layihədən kənarda qoydu

**Bu günlərdə xalqımız Vətən müharibəsindən sonra Azərbaycanın müasir tarixinin növbəti əlamətdar hadisəsinə şahidlik etdi. Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın maneçiliklər yaradaraq növbəti dəfə tarixi səhvlərə yol verdiyi bir vaxtda Azərbaycanla İran arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu imzalandı.**

### Şərqi Zəngəzurla Naxçıvan arasında yeni kommunikasiya bağlantıları yaradılır

Bu tarixi sənəd İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılmasını nəzərdə tutur. Daha dəqiq ifadə etsək, memorandumun məqsədi respublikamızın əsas hissəsi ilə Naxçıvan arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir.

Məlum olduğu kimi, Azərbaycan mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinin əsas təşəbbüskarı və aparıcı iştirakçılarından biridir. Tranzit imkanlarının müasir dövrdə ölkənin iqtisadiyyatında, regional və beynəlxalq mövqeyində rolunu düzgün qiymətləndirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq qlobal nəqliyyat dəhlizləri məhz ölkəmizdən keçir.

*Ardı 6-cı səh.*

## Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur.

Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhəmət mücəssəməsi kimi sevilmişdir. Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustadlarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2022-ci il*

## İlham Əliyev Koreyanın yeni prezidentini təbrik edib

### Koreya Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Yun Sok Yola

Hörmətli cənab Yun!

Koreya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında təşəkkül tapmış dostluq əlaqələrinə böyük əhəmiyyət verirəm. İnanıram ki, bu il diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edəcək ölkələrimiz arasındakı qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq xalqlarımızın rifahı naminə birgə səylərimizlə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2022-ci il*

## "Biz niyə həmişə İlham Əliyevə məğlub oluruq"

### Ermənistan ictimaiyyəti Azərbaycanın İranla imzaladığı Anlaşma Memorandumunu növbəti məğlubiyyətləri kimi qəbul edir

Azərbaycanla İran İslam Respublikası arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb.

Bu ilk növbədə Azərbaycanın geostrateji müstəvidə yeni qələbəsi, tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirilir.

Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində ikisi avtomobil (piyada keçidi ilə) və ikisi dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 kilometr məsafədə inşa olunacaq.

*Ardı 6-cı səh.*

◆ Yazıçı və həyat

## Məktub yetişdi...

**... Ötən ilin oktyabrında tarixi fərmanınızla yaratdığınız Şərqi Zəngəzura – onun laləzar guşəsi olan Zəngilana, ata yurduma səfər etdiniz.**

**Silahdaşınız, çiyindaşınız, Vətən dərdinə birgə əlac olduğunuz Mehriban xanımla səmimi görüşlər keçirdiniz.**

**Taleyimə minnətdaram ki, bu tarixi görüşdə iştirak etmək, həmin unudulmaz anları yaşamaq, hər dəqiqəsi bir ömrə dəyən təəssüratları yaddaşıma köçürmək mənim də qismətim oldu.**

**Sonra yenə Şərqi Zəngəzura – onun dilbər guşəsi olan Qubadlıya, ana yurduma gəldiniz...**

**Hər iki yurdum böyük coşqu, əbədi şükranlıqla qarşıladı hər ikinizi...**

**Sizin xoş qədəmlərinizlə hər iki doğma yurdumdaca həyat qaynadı, quruculuq, abadlıq işləri başladı.**

**Və hamı, bütün el-oba boylanıb səbirsizliklə baharı gözlədi...**

**Və gəldi o bahar...**

*Bax: səh. 5*

## "Delta" kimi öldürücü, "Omikron" kimi yoluxucu

### Dünya indi də COVID-19-un "Deltamikron" sınağı ilə üz-üzədir




"ÜST bu məsələni izləyir. Çünki bizim son bir il içərisində ən çox qorxduğumuz "Delta" qədər öldürücü, "Omikron" qədər yoluxucu bir variantın yaranması idi. "Omikron" yüngül simptomlarla keçsə də, xəstə sayı çox olduğundan sağlamlıq qurumlarında yüklənməyə səbəb olur. "Delta", "Delta+" ştamlarında isə öldürücülük çoxdur. Qorxulu bu idi və bununla bağlı Fransadan bəzi təsdiq hesabatları var. "Delta" ilə "Omikron"'un qarışığı olan bir variantın olduğunu bildirdilər".

*Bax: səh. 11*

# Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının on ikinci iclası keçirilib



Martın 14-də Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 12-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ötən dövr ərzində ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülmüş işləri, o cümlədən 2021-ci ilin iyul ayında Azərbaycan tərəfindən regionda ilk ölkə (dünyada 10 ölkədən biri) olaraq DİM-in icrası istiqamətində görülmüş işlərin yekunu ilə bağlı BMT-nin Yüksəksəviyyəli Siyasi Forumuna üçüncü Könüllü Milli Hesabatın təqdim edildiyini, habelə DİM-in həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq qurulduğunu, bu istiqamətdə xüsusilə 2021-ci ilin martında BMT-nin Azərbaycan Nümayəndəliyi ilə Azərbaycan hökuməti arasında imzalanmış Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinin əhəmiyyətini qeyd edib. Eyni zamanda DİM-in həyata keçirilməsi üzrə beynəlxalq hesabatlarda Azərbaycanın mövqeyi diqqətə çatdırılıb.

İqtisadiyyat naziri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini Mikayıl Cabbarov ölkəmizin COVID-19 pandemiyası ilə mübarizəsinin DİM-in məqsəd və hədəflərinə təsirlərinin aradan qaldırılması istiqamətində atılan addımlar barədə məlumat verib. Həyata keçirilən tədbirlər nəticəsində 2021-ci ildə 2020-ci ilə nisbətən ümumi daxili məhsulun (ÜDM) real ifadədə 5,6 faiz, qeyri-neft sektorunun 7,2 faiz artdığı, ümumilikdə isə pandemiya səbəbindən səngimiş iqtisadi fəallığın 2021-ci ildə bərpa olunduğu bildirilib. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə müəyyən edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq müxtəlif dövlət qurumlarının nümayəndələrinin təmsil olunduğu 10 alt işçi qrupun iştirakı ilə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsinin hazırlandığı və layihənin tamamilə DİM-lərin məqsəd və hədəflərinə inteqrasiya edildiyi diqqətə çatdırılıb. Eyni zamanda, 2022-ci il üzrə DİM-in maarifləndirilməsi istiqamətində 35 tədbirdən ibarət fəaliyyət planının hazırlandığı bildirilib.

İclasda "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik"dən irəli gələn DİM göstəriciləri üzrə mövcud vəziyyət və yeni göstəricilərin prioritetləşdirilməsi imkanları" mövzusunda Dövlət Statistika Komitəsinin sədri Tahiq Budaqov, Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında 2021-ci il üzrə yekun hesabat və "2022-ci il ərzində ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə fəaliyyət planı" barədə İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, şuranın katibi Hüseyn Hüseynov tərəfindən geniş təqdimatlar edilib.

Sonda Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması məqsədilə DİM-lərin icrası ilə əlaqədar 2021-ci il üzrə Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında yekun hesabat və "2022-ci ildə Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə fəaliyyət planı" Şura üzvləri tərəfindən müzakirə edilərək təsdiq olunub, DİM göstəriciləri ilə bağlı milli prioritetlərin yenilənməsi və maarifləndirmə tədbirlərinin davam etdirilməsi ilə bağlı bir sıra tapşırıqlar verilib.

# Azərbaycanın fəal iştirakı ilə keçirilən Antalya Diplomatiya Forumu uğurla başa çatıb

Türkiyə Prezidentinin himayədarlığı ilə Xarici İşlər Nazirliyi tərəfindən "Diplomatiyanın yenidən qurulması" mövzusunda təşkil olunan Antalya Diplomatiya Forumu Azərbaycanın da geniş tərkibdə fəal iştirakı ilə uğurla başa çatıb. Azərbaycan təmsilçiləri forum çərçivəsində keçirilən tədbirlərdə və görüşlərdə ölkəmizə aid həqiqətləri iştirakçılarla bölüşüblər.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun forum çərçivəsində keçirilən tədbirlərdəki çıxışları, müsahibə və açıqlamaları Türkiyə KİV-i tərəfindən geniş yayılıb və böyük maraqla şərh olunub.

Rəsmi açılışda iştirak edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi YAP nümayəndə heyəti forum çərçivəsində "Parlament diplomatiyası" mövzusunda keçirilən "dəyirmi masa"ya qatılıb. Tədbir çərçivəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov ilə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım arasında keçirilən görüşdə iki partiya arasında səmərəli əməkdaşlığa dair faydalı fikir mübadiləsi aparılıb, birgə gələcək planlar müzakirə olunub.

Bundan başqa, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ölkəmizin Avropa Şurası Parlament Assambleyası yanında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Milli Məclisin ATƏT PA-da nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub-Şərqi Avropa üzrə xüsusi nümayəndəsi Azay Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Ramil Həsən, Milli Məclisin deputatı Tural Gəncəliyev, o cümlədən beynəlxalq təşkilatlarda Azərbaycanı təmsil edən rəhbər şəxslər və başqaları forumun işində fəal iştirak ediblər.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu forumla bağlı martın 13-də keçirdiyi mətbuat konfransında tədbirin məqsəd və mahiyyətini yüksək dəyərləndirib.

Xatırladaq ki, Prezident Rəcəb Tayyib Ərdoğan forumun rəsmi açılış mərasimində nitq söyləyib. Tədbirin həmin hissəsində BMT-nin Baş katibi Antonio Quterreşin iştirakçılara videomüraciəti yayımlanıb.

Üç gün davam edən forumda 17 dövlət və hökumət başçısı, 80 nazir olmaqla 75 ölkədən nümayəndələr iştirak ediblər. Bundan başqa, NATO və ATƏT də daxil olmaqla 39 beynəlxalq və regional təşkilatın təmsilçiləri müzakirələrə qatılıblar.

Tədbir çərçivəsində Azərbaycanın rəsmi təmsilçiləri də daxil olmaqla iştirakçılar arasında çoxsaylı ikitərəfli görüş keçirilib.

Türkiyə, Rusiya və Ukrayna xarici işlər nazirlərinin martın 10-da keçirdikləri Antalya görüşü forumda yaddaqalan ən ciddi hadisələrdən biri kimi tarixə düşüb.

Bundan başqa, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın da martın 12-də forumun ən qaynar vaxtında bir araya gəlməsi mühüm siyasi hadisə kimi dəyər qazanıb.

Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi, "Anadolu" Agentliyi, Türkiyənin Ticarət Nazirliyinin əməkdaşları və Xarici İqtisadi Əlaqələr Qurumunun, Türkiyə İxracatçılar Məclisi və digər tanınmış qurumlar informasiya və nəşriyyat işlərinə dair öz məhsulları ilə ziyarətçilərin xidmətində olublar.

Çox sayda beynəlxalq media qurumlarının forumdan geniş, azad və sərbəst şəkildə materiallar hazırlaması üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, ikinci dəfə keçirilməsinə baxmayaraq, Antalya Diplomatiya Forumu beynəlxalq səviyyəli müzakirələr platformasına çevrilib. Forum Azərbaycan həqiqətlərinin çatdırılması, yeni münasibətlər yaratmaq, qlobal və regional əhəmiyyətli prinsipial məsələlər ətrafında müzakirələr aparmaq üçün ən əlverişli platformadır.

Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" fikri bütün mənalarda Antalya Diplomatiya Forumunda özümüzü ev sahibi kimi hiss etməyə imkan verir.

# Azərbaycan Ermənistanla münasibətlərin yaradılması üçün təklif edilən baza prinsiplərini açıqlayıb

"Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda çıxışı zamanı Azərbaycanın münaqişə sonrası mərhələdə sülh quruculuğu səylərindən bəhs edib".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in iki ölkə arasında münasibətlərin yaradılması üçün Ermənistan tərəfinə təqdim edilən baza prinsiplərinə dair sualını cavablandırarkən deyib.

Leyla Abdullayeva bildirib: "Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda çıxışı zamanı Azərbaycanın münaqişə sonrası mərhələdə sülh quruculuğu səylərindən bəhs edib. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə verilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində Ermənistan tərəfindən buna qarşılığın verilmədiyi qeyd edilib. Məlumat verildiyi kimi, növbəti addım qismində Azərbaycanın bir neçə gün öncə, iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. Burada iki dövlət arasında münasibətlərin normallaşması üçün aşağıdakı beş baza prinsipi əks olunub:

- Dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması".

L.Abdullayeva qeyd edib ki, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.

*Dünya Bankının meneceri:*

# "Azərbaycanla ikitərəfli əməkdaşlığımız bundan sonra da davam edəcək"



Martın 14-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Dünya Bankının nümayəndələri ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "Azərbaycanın ölkə üzrə sistemli diaqnostik tədqiqatı: maraqlı tərəflərlə məsləhətləşmələr" mövzusuna həsr edilmiş tədbiri giriş sözü ilə komitə sədri Tahir Mirkişili açıb. Ölkəmizin Dünya Bankı ilə əməkdaşlıqda maraqlı olduğunu qeyd edən Tahir Mirkişili Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin qurumun keçirdiyi tədqiqatlara və layihələrə önəm verdiklərini vurğulayıb. Komitə sədri son illər dünya və ölkə iqtisadiyyatlarının qarşılaşdıqları çətinliklər fonunda iqtisadi siyasət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində birgə əməkdaşlığın xüsusi önəm kəsb edə biləcəyini bildirib.

Dünya Bankının Azərbaycan üzrə meneceri Sara Maykl Milli Məclisdə ilk dəfə olduğunu və görüşdən məmnunluq duyduğunu dilə gətirib. Cari ildə Dünya Bankının Azərbaycandakı fəaliyyətinin 30 illiyinin tamam olduğunu deyən S.Maykl ikitərəfli əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inamını ifadə edib.

Dünya Bankının nümayəndəsi Dünya Bankının Azərbaycan üzrə apardığı Ölkənin Sistematik Diaqnostikası Tədqiqatının (ÖSDT) yekunlarının deputatların diqqətinə təqdim ediləcəyini bildirib.

Təqdimatdan əvvəl Dünya Bankının Azərbaycan nümayəndəliyinin əməliyyatlar üzrə baş mütəxəssisi Səidə Bağırlı məlumat verib ki, Dünya Bankı hər bir ölkədə fəaliyyətinin bir neçə ilini əhatə edən Ölkə Tərəfdaşlıq Strategiyasını hazırlamamışdan əvvəl ölkənin Sistematik Diaqnostikası Tədqiqatını (ÖSDT) aparır. Hazırda Azərbaycan üzrə tədqiqatın ilkin nəticələri ölkə parlamentinə təqdim olunacaq və sənədlə bağlı deputatlarla məsləhətləşmələr aparılacaq.

Sonra aparıcı müəllif Alan Fuks Tarlovski "Azərbaycan: Ölkə üzrə Sistemli Diaqnostik Tədqiqatın (ÖSDT) yeniləməsi" üzrə təqdimatı iştirakçıların diqqətinə çatdırıb.

Alan Fuks Tarlovski Dünya Bankının ölkədəki fəaliyyəti üçün ÖSDT-nin aktuallığı, onun ilkin nəticələri barədə məlumat verib, məqsədini, strukturunu açıqlayıb. Layihənin aparıcı müəllifi tədqiqat nəticəsində müəyyən edilmiş əsas çağırışlar barədə deputatlara ətraflı izahat verib.

Təqdimatdan sonra Tahir Mirkişili, komitə sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Rüfət Quliyev, Vüqar Bayramov sənədin müzakirəsində çıxış ediblər.

Azərbaycan və Dünya Bankı arasındakı əlaqələrin tarixinə toxunan deputatlar qurumun ilk müstəqillik illərindən bizimlə əməkdaşlıq etməsini yüksək qiymətləndiriblər. Onlar Dünya Bankının "Azərbaycan: Ölkə üzrə Sistemli Diaqnostik Tədqiqatı"nın əhəmiyyətini vurğulayaraq sənədlə bağlı fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər.

Söhbət zamanı iqtisadiyyatın müasir çağırışlar fonunda gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb, həmçinin qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunub.

Görüşdə Milli Məclisin deputatları Mahir Abbaszadə, Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, həmçinin Dünya Bankının nümayəndələri iştirak ediblər.

# Azərbaycan-İran diplomatik əlaqələrinin 30 illiyinə həsr olunmuş tədbir təşkil olunub




Martın 14-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası və İran İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə XİN-in rəhbər heyəti, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin rəhbərliyi və əməkdaşları, habelə ölkəmizdə fəaliyyət göstərən bir neçə şirkətin rəhbərləri iştirak ediblər.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Azərbaycan və İran arasında mövcud tarixi bağlar, birgə dəyərlərin və adət-ənənələrin, ikitərəfli əlaqələrin yüksələn xətt üzrə inkişafına şərait yaratdığını bildirib. Nazir müavini 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü, o cümlədən Azərbaycan-İran sərhədini bərpa etməsini və Prezident İlham Əliyevin iki ölkə arasında sərhədi dostluq sərhədi adlandırmasını xüsusi olaraq vurğulayıb. E.Məmmədov postmünaqişə mərhələsində regionda nəqliyyat-kommunikasiya xətlərinin açılmasının bölgədə sülhə və inkişafa töhfə verəcəyini qeyd edib.

Daha sonra çıxış edən İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi dost, qardaş, qonşu Azərbaycan və İran arasında diplomatik əlaqələrin qurulması münasibətilə öz səmimi təbriklərini çatdırıb. Səfir həmçinin 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması naminə canlarından keçən şəhidləri hörmətlə anıb. Seyid Abbas Musəvi Azərbaycan və İran arasında beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində geniş əməkdaşlığı məmnunluqla vurğulayıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və İran arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev martın 14-də Şirvan Müalicə Diaqnostika Mərkəzində Şirvan şəhər və Hacıqabul rayon sakinlərini qəbul edib. Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a verilən məlumata görə, qəbula gələn vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müharibə veteranı adının verilməsi, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi ilə bağlı olub. Vətəndaşların müraciətləri diqqətlə dinlənilib və bir çox məsələlərlə bağlı edilən müraciətlər yerində həll olunub.

Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə agentliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinə və Şirvan Şəhər və Hacıqabul Rayon Mərkəzi xəstəxanalarının rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Qəbulda vətəndaşlar tərəfindən verilmiş təkliflərin agentliyin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyində olan dövlət tibb müəssisələrinin fəaliyyətində nəzərə alınacağı diqqətə çatdırılıb.

❖ ❖ ❖

"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev Şamaxı şəhərində vətəndaşlarla görüş keçirib. İB-dən AZƏRTAC-a bildirilib ki, qəbulda birlik rəhbəri ilə yanaşı, "Azəriqaz"ın baş direktorunun əsaslı tikinti üzrə müavini Ramil İsgəndərov, Ağsu Regional Qaz İstismarı İdarəsinin, Şamaxı və Qobustan xidmət sahələrinin rəhbər şəxsləri iştirak ediblər. Görüşdə Şamaxı və Qobustan rayonlarından olan vətəndaşların problem və təklifləri dinlənilib. Müraciətlər zamanı fərdi qazlaşma, yaşayış məntəqələrinə və yeni yaşayış massivlərinə küçə qaz xəttinin çəkilməsi, işə qəbul, qaz xətlərinin yerinin dəyişdirilməsi və digər məsələlərə toxunulub. "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev qəbula üz tutan 30-dək vətəndaşı fərdi olaraq dinləyib və qaldırılan məsələlərin həlli barədə Ağsu Regional Qaz İstismarı İdarəsinin, Şamaxı və Qobustan xidmət sahələrinin struktur rəhbərlərinə müvafiq tapşırıqlar verib. Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Birliyin səlahiyyətləri xaricində olan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılmaq üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

Vətəndaşlar müraciətlərinə baxılması üçün onlara bu cür rahat şərait yaradıldığına görə birlik rəhbərliyinə təşəkkür ediblər. Baş direktor bundan sonra da mütəmadi olaraq ayrı-ayrı regionlarda vətəndaşlarla görüşlərin keçiriləcəyini vurğulayıb.

# Naxçıvan Muxtar Respublikasında təltiflərin təqdimatı olub

**Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının medallarının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının, eləcə də "Rəşadətli əməyə görə" nişanının təqdimat mərasimi keçirilib.**



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanlara çalışdıqları sahələrdə fərqləndiklərinə və göstərdikləri xidmətlərə görə təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb və qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini, eləcə də "Rəşadətli əməyə görə" nişanını təqdim edib.

Təltif olunanlardan Lətif Şükürlü, Talıb Babayev, Elşad Məmmədov, Zərövşən Babayeva, Ruqiyyə Məmmədova, Səkinə İsmayılova, Fərqanə Muxtarova əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq ediblər. Qeyd olunub ki, muxtar respublikada bütün sahələrdə yaradılan şərait səmərəli fəaliyyət üçün geniş imkanlar açır. İnsanların rahatlığına xidmət edən yeni sosial obyektlər tikilir, maddi-texniki baza təkmilləşdirilir. Müxtəlif sahələrdə çalışanların əməyinin qiymətləndirilməsi, əməkhaqlarının artırılması isə onları fəaliyyətlərində daha da ruhlandırır. Qarşıda duran əsas vəzifə bundan sonra da etimadı doğrultmaq, yeni nailiyyətlərin əldə olunması üçün var qüvvə ilə çalışmaqdır. Təltif olunanlar qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırıblar.



Naxçıvan Muxtar Respublikasının "Əməkdar tibb işçisi" fəxri adı ilə təltif olunan şəhid anası Gülşad Rüstəmova təltif olunması münasibətilə minnətdarlıq edib, muxtar respublikada şəhid ailələrinə göstərilən diqqət və qayğını yüksək dəyərləndirib.

"Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan şəhid anası Rəna Hüseynova yaradılan şəraitə görə çalışdığı kollektiv adından minnətdarlıq edərək deyib: "Muxtar respublikada şəhid adı daim uca tutulur, onların ailə üzvlərinə diqqət göstərilir. Şəhid ailəsi olaraq dövlətimiz tərəfindən daim qayğı ilə əhatə olunmuşuq".

Ali Məclisin Sədri şəhidlərimizə rəhmət diləyib, təltif olunanları bir daha təbrik edib, işlərində uğurlar arzulayıb.

# İtaliya saytları Şərqi Zəngəzur ilə Naxçıvan arasında yeni kommunikasiya bağlantısından yazıb










İtaliyanın "Scenari Internazionali", "Notizie Geopolitiche", "Insideover", "Sardegnagol", "Kmetro0", "Agenzia Nova", "Globus Magazine", "il Corriere della Sicilia" kimi kütləvi informasiya vasitələri Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası çərçivəsində imzalanmış "İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu"ndan və bu sənədin əhəmiyyətindən yazıb.

AZƏRTAC xəbər verir ki, xəbərlərdə bu memorandumun məqsədinin Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir və avtomobil yolları əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarət olduğu, buna nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisinin nəzərdə tutulduğu bildirilir.

Yazılarda bu memorandumu tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinad olunur: "Dövlətimizin başçısı bu əhəmiyyətli nəqliyyat-kommunikasiya layihəsini daim diqqət mərkəzində saxlayır, onun icrası ilə əlaqədar aidiyyəti qurumlara tapşırıqlar verilir. Bu layihənin həyata keçirilməsi nəticəsində uzun illər ərzində Ermənistanın Naxçıvanı blokadada saxlaması siyasətinə son qoyulacaq. Azərbaycanın iki regionu - Şərqi Zəngəzur ilə Naxçıvan arasında İran ərazisindən keçməklə avtomobil, dəmir yolu, enerji və rabitə bağlantısı yaradılacaq. Layihə bütövlükdə regionun nəqliyyat-kommunikasiya mənzərəsini dəyişir, Azərbaycan, İran və Türkiyəni birləşdirərək Avrasiyada avtomobil, dəmir yolu, elektrik enerjisi xətti və rəqəmsal bağlantıların daxil olduğu yeni çoxtəyinatlı dəhlizin əsasını qoyur".

Habelə məlumatlarda Hikmət Hacıyevin fikirlərinə istinadən bildirilir: "Bu, Türkiyə, İran və Azərbaycanı birləşdirən dəhlizdir. Bu eyni zamanda Avrasiyada yeni bir dəhliz olacaq ki, bütün nəqliyyat mənzərəsini dəyişəcək. Təbii ki, bundan bizim ölkələrimiz qazandı. Bəs qazanmayan kim oldu? Ermənistan! Yəni Ermənistan istəmir deyə, biz onu gözləyəsi deyilik. Azərbaycan bu pozitiv gündəliyini bundan sonra da davam etdirəcək".

Dərc olunmuş yazılarda, həmçinin münaqişə zamanı bütün kommunikasiya və nəqliyyat layihələrinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu xətti və sair layihələrin Ermənistandan yan keçdiyi xatırladılır. Bir il yarımdan artıq müddətdir Zəngəzur dəhlizi ilə bağlı məsələdə nələrin olacağı ilə bağlı Ermənistandan bir cavabın gəlmədiyi bildirilir. İrəvanın regionda müharibədən sonrakı yeni reallıqları başa düşə bilmədiyinin göründüyü, səmərə əldə etməkdə gecikdiyi və bölgədə daha bir inkişaf və inteqrasiya imkanını itirmək riski ilə üzləşdiyi qeyd olunur.

# *Azərbaycan XİN:* "Martın 14-dək Ukraynadan ölkəmizə 7500 nəfər təxliyə edilib"

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədəki Azərbaycan vətəndaşlarının və onların ailə üzvlərinin qonşu dövlətlərin ərazisindən keçməklə Azərbaycana təxliyəsi davam edir.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, martın 14-dək Azərbaycana 7500 nəfər təxliyə edilib. Onlardan 3 minə yaxını çarter reysləri, 4500-dən çoxu isə avtobuslarla təxliyə olunub.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən Rumıniyanın Yassi və Buxarest, Polşanın Katoviçe şəhərlərindən indiyədək 15 çarter reysi təşkil olunub. Bu reyslərlə əsasən qadınlar, uşaqlar, yaşlılar, xəstələr və digər həssas qrupa daxil olan vətəndaşlarımızın təxliyəsinə üstünlük verilib. Ukraynada daimi və müvəqqəti yaşayan, səfərdə olan soydaşlarımızın bu ölkədəki vəziyyətlə əlaqədar şəxsi imkanları hesabına Azərbaycana gətirilməsi həyata keçirilir.

# Azərbaycanın müvafiq dövlət orqanlarının nümayəndələrindən ibarət heyət Ukraynadan qonşu ölkələrə gedən vətəndaşlarımıza köməyi davam etdirir

**Xəbər verdiyimiz kimi, Azərbaycanın müvafiq dövlət orqanlarının nümayəndələrindən ibarət heyət Ukraynadan qonşu ölkələrə gedən vətəndaşlarımıza köməyi davam etdirir.**







AZƏRTAC xəbər verir ki, Azərbaycanın dövlət orqanlarının nümayəndələrindən ibarət Moldovada fəaliyyət göstərən qurumlararası əlaqələndirmə mərkəzinin tərkibində olan Fövqəladə Hallar Nazirliyinin (FHN) həkim, psixoloq, tibb bacılarından ibarət heyəti Moldovada Azərbaycan vətəndaşlarının müvəqqəti yerləşdikləri düşərgələri, evləri və digər məntəqələri ziyarət edir, müayinələr aparır, xəstələrə və sarsıntı keçirən insanlara tibbi və psixoloji yardım göstərir.

Vətəndaşlarımız indiyədək həkim heyətinə səhhətləri ilə bağlı bir çox müraciətlər ünvanlayıblar. Onların hər birinə fərdi yanaşılır, bütün mümkün tibbi yardım edilir.

Görülən işlər çərçivəsində Moldovada bir ailəyə də kömək göstərilib. Belə ki, Moldovaya sığınan bir ailə sağlamlıqları ilə bağlı həkim heyətinə müraciət edib. Müraciətə əsasən həkim və psixoloq qrupu ailənin yerləşdiyi ünvana gedərək ailə üzvlərini müayinə edib, onları dərman vasitələri ilə təmin edib və müvafiq tövsiyələr verib.

Vətəndaşlarımız göstərilən diqqətə və köməyə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Təlim atış çalışmaları yerinə yetirilib

Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarında dəzgahlı iriçaplı pulemyot və avtomatik qumbaraatan heyətləri ilə təlim atış çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, atışdan qabaq bölmələr ərazidə açılma, atəş mövqelərinin tutulması və silahın döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri məşq ediblər. Atış çalışmalarında əvvəlcədən hazırlanmış mövqedən hədəfə yerindən atəş açmaq üzrə tapşırıqlar heyətlər tərəfindən müvəffəqiyyətlə icra olunub.

Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən təlimlərdə əsas məqsəd heyətlərin praktiki vərdişlərini və atəş açma bacarıqlarını təkmilləşdirməklə bərabər, bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsidir.

# Azərbaycan və Türkiyənin sığorta büroları əməkdaşlıq edəcək

İcbari Sığorta Bürosu Türkiyə Motorlu Taşıt Bürosu ilə "Yaşıl kart" sistemlərinin inteqrasiyası üzrə əməkdaşlıq edəcək.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyev Milli Sığorta Büroları arasında beynəlxalq xarakter daşıdığı üçün "Yaşıl kart" sistemində əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini deyib. Qeyd edilib ki, Türkiyə və Azərbaycanın "Yaşıl kart" sığorta büroları olan Türkiyə Motorlu Taşıt Bürosu və İcbari Sığorta Bürosu arasında imzalanacaq əməkdaşlıq protokolu "Yaşıl Kart" sistemi sahəsində tərəfdaşlıq və qarşılıqlı əməkdaşlığın təmin edilməsi məqsədi daşıyır.

İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov diqqətə çatdırıb ki, Türkiyə və Azərbaycan gömrük-sərhəd keçid məntəqələrində hər iki ölkənin "Yaşıl kart"larının etibarlılığının rəqəmsal texnologiyalardan istifadə edilməklə yoxlanılması mümkün olacaq. Tərəflər müvafiq qanunvericiliyin tələblərinə uyğun olmaqla məlumat mübadiləsi aparacaq və "Yaşıl kart" məlumatları ilə bağlı gömrük-sərhəd keçid məntəqələrinə zəruri köməyin göstərilməsi işini təmin edəcəklər. Tərəflər arasında elektron sistemlərin inteqrasiyası "Yaşıl kart" sisteminə qoşulmuş digər üzv ölkələr üçün nümunə təşkil etməklə yanaşı, rəqəmsal nəzarətin təmin edilməsinə imkan yaradacaq. İki qurum arasında aparılan inteqrasiya işləri saxta "Yaşıl kart"ın etibarlılığını elektron qaydada müəyyən edəcək. Bu da öz növbəsində saxta "Yaşıl kart" sığorta şəhadətnaməsi ilə ölkəyə girişin qarşısını almış olacaq. İcbari Sığorta Bürosunun təşəbbüsü ilə Türkiyə və Azərbaycanın "Yaşıl kart" sığorta büroları arasında həyata keçirilən inteqrasiya Beynəlxalq Bürolar Şurasının fəaliyyətində ilk təcrübədir.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının Yol Nəqliyyatı üzrə İşçi Qrupunun nəzdində fəaliyyət göstərən "Yaşıl kart" sistemi 1949-cu ildə beynəlxalq nəqliyyatı asanlaşdırmaq üçün yaradılıb. Azərbaycan və Türkiyənin "Yaşıl kart" sığorta büroları olan İcbari Sığorta Bürosu və Türkiyə Motorlu Taşıt Bürosu 46 ölkənin sığorta bürosunun təmsil olunduğu və beynəlxalq yol-nəqliyyat hadisəsində zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsini təmin edən "Yaşıl kart" sistemi üzrə əlaqələndirici ixtisaslaşdırılmış təşkilat kimi Bürolar Şurasının üzvləridir.

# *Baş Prokurorluq:* "Azərbaycan Ordusu ilə bağlı həqiqətə uyğun olmayan məlumat yayan şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcək"

Son günlər bəzi media vasitələrində və sosial şəbəkələrdə Azərbaycan Ordusuna məxsus müxtəlif texnikanın hərəkətini və dislokasiyanı, guya, əks etdirən, həqiqətə uyğun olmayan video, fotolar və digər informasiyalar yayılır. Süni ajiotaj yaratmaq məqsədilə dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış bu cür informasiyaların, səs yazılarının, foto və videogörüntülərin yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin məsələ ilə bağlı müraciətində bildirilib.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu media subyektləri və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq etməklə diqqətə çatdırır ki, qeyd olunan neqativ hallara yol vermiş şəxslər barəsində mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcək", - deyə Baş Prokurorluğun müraciətində qeyd olunub.





# Ermənistan cinayətlərini ört-basdır etmək üçün hər zaman faktaraşdırıcı missiyanın əleyhinə olub

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Fransanın dövlət başçısı Emmanuel Makronun təşəbbüsü ilə videoformatda keçirilən görüşdə əldə edilən razılıqlardan biri də UNESCO-nun bölgəyə missiya göndərməsi ilə bağlı idi. Azərbaycan dövləti hər vaxt regiona faktaraşdırıcı missiyanın təşkilində maraqlı tərəf olub. Çünki Azərbaycana məxsus mədəni irsin vəziyyətinin qiymətləndirilməsinə ciddi ehtiyac hiss olunmaqdadır.**

İşğal dövründə mədəni-dini abidələrə qarşı vandallıq aktları barədə xarici KİV-də də kifayət qədər məlumatlar var. İndiki Ermənistan ərazisində Azərbaycana məxsus abidələrin vəziyyəti ilə bağlı narahatlıq da haqlı olaraq UNESCO-ya çatdırılıb. Demək, faktaraşdırıcı missiya Ermənistana da səfər edəcəksə, xalqımızın əsrlərin yaşıdı olan mədəni irsinin vandallar tərəfindən tamamilə yoxolma təhlükəsinin qarşısı alınmalıdır.

Milli Məclisin deputatı Könül Nurullayeva bu məsələnin mahiyyətinə toxunarkən qeyd edib ki, Ermənistan məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silir, Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirir: “Bu məsələ QHT-lərin UNESCO-nun baş direktoruna müraciətində də əksini tapıb. Azərbaycan cəmiyyəti Ermənistanda yerləşən Göy məscid, Qala məscidi, Şah Abbas, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam məscidi kimi 300-dən çox məscidin bərpasını tələb edir. Ermənistanda azərbaycanlılara məxsus 500-dən çox qəbiristanlığın məhv edilməsi, Azərbaycanda aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin qəbrinin dağıdılması əsl vandallıq aktıdır. Bu, Ermənistanın heç bir ümumbəşəri dəyərləri qəbul etmədiyini təsdiqləyir...”

Təəssüf ki, Ermənistan bu cinayətlərini ört-basdır etmək üçün hər zaman faktaraşdırıcı missiyanın əleyhinə olub. Lakin hazırda UNESCO-nun missiyasının reallaşması ilə bağlı razılıq əldə olunub. Ona görə də faktaraşdırıcı missiya bu faktları araşdırmaqda maraqlı olmalı, Ermənistanın prosesə maneçilik törətməsinə yol verməməlidir.

Ermənistan Qarabağda işğalçılıq siyasəti yeritdi. 30 il ərzində Azərbaycanın 9 şəhərini və yüzlərlə kəndini yer üzündən sildi. Bu ərazilərdəki tarixi, mədəni, dini abidələri viran qoydu, talan etdi. Bunlardan əlavə, yalnız İrəvan quberniyasında mövcud olmuş 269 məscidimizdən, İrəvan şəhərindəki “Xan sarayı”, İrəvan qalası, türbələr, karvansaralardan belə bu gün doğru-düzgün məlumat yoxdur...

Ermənistanın işğalçılıq siyasətinə illərlə göz yuman bir sıra beynəlxalq təşkilatların ikili mövqeyi, təbii ki, Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə onların açıq-aşkar təcavüzkarların havadarı olması kimi qəbul edilir.



Azərbaycanın ərazilərini illərlə işğal altında saxlayıb, təbii sərvətlərini talan edən, tarix, mədəniyyət və dini abidələrini yer üzündən silən Ermənistanın özünü sanki bunları törətməmiş, aciz, imkansız, tərksilah edilmiş kimi göstərməsi bir yana, üstəlik, Azərbaycandakı xristian-dini abidələrin hansı vəziyyətdə olmasını gündəmə gətirir. İllərlə təcavüzkarlığın qurbanı olmuş müsəlman dini abidələrinin vəziyyətindən xəbərdar olsa da, səsini çıxarmayan UNESCO-nun problemlə bağlı regiona dəvət edilməsi heç də sadə məsələ deyil. Əsl həqiqət üzə çıxarsa, Ermənistan bunun da əvəzini ödəməli olacaq.

UNESCO-nun Azərbaycan və Ermənistana araşdırma missiyası göndərməklə bağlı ən yüksək səviyyədə əldə olunan çoxtərəfli anlaşmanın, habelə Azərbaycan Mədəniyyət Nazirliyinin bir neçə gün öncə Qarabağdakı tarixi alban (udin) abidələri ilə bağlı yaydığı açıqlamanın məğlub ölkədə ciddi təlaş yaratması özünü Ermənistan XİN-in “allergik” reaksiyasında göstərdi. Ermənistanın Azərbaycana qarşı növbəti ittiham, hədyan və böhtanlarının şahidi olduq. Bu isə tərəflər arasında münasibətlərdə hələ də ciddi yeniliklərin olmadığını göstərir və Ermənistanın 44 günlük Vətən müharibəsində biabırcasına məğlub olmasına baxmayaraq, hələ də revanşizm xülyasından əl çəkməməsi, sərhədlərin dəqiqləşdirilməsi və müəyyənləşdirilməsi, tanınması, azərbaycanlı əsir və girovların qaytarılmasında yaxasını kənara çəkməsi deməkdir. Bu eyni zamanda 10 noyabr 2020-ci ildə Ermənistanın imzalamağa məcbur olduğu kapitulyasiya aktının müəyyən bəndlərinə tamamilə ziddir.

Azərbaycan dövləti və xalqı 200 ilə yaxındır ki, təmkinini gözləməkdə, Ermənistan isə yalançı hay-küyü ilə daşnakların işğalçılıq, terrorçuluq siyasətinə dolayısı ilə haqq qazandırmağa çalışmaqdadır.

“Öz ərazisi”ndə (əslində, hazırkı Emənistanın yerləşdiyi ərazi Azərbaycana məxsusdur və tarixi sənədlərdə təkzibolunmaz faktlarla təsdiqlənir) yaşamış etnosları qovub çıxarmaqla (son deportasiya nəticəsində, daha doğrusu, 1988-1989-cu illər ərzində Ermənistandan 250 min nəfərdən artıq (50 minə yaxın ailə) azərbaycanlı tarixi ata-baba yurdundan qovularaq Azərbaycana pənah gətirib) monoetnik dövlətə çevrilən, mədəni-tarixi irsimizi saxtalaşdıran və buna nail olmayanda Yer üzündən silən təcavüzkar dövlət çoxmillətli, çoxkonfessiyalı Azərbaycanı “erməni mədəni irs”inə qarşı genosid siyasəti yürütməkdə, “erməni kilsələrini albanlaşdırmaqda” ittiham edir. Hansı ki, vəziyyət tamamilə əksinədir.

Azərbaycan Mədəniyyət Nazirliyinin bu günlərdə bir daha bəyan etdiyi kimi, söhbət məhz tarixi ədalətin bərpasından, o cümlədən ermənilər tərəfindən “özününküləşdirilmiş” qədim alban məbədlərinin öz sahibinə və əvvəlki simasına qaytarılmasından gedir. Bundan ötrü beynəlxalq ekspertlər də cəlb olunmaqla, xüsusi komissiya yaradılacaq. Təbii ki, həmin komissiyaya erməni tərəfindən də mütəxəssislər qatıla bilər.



Ermənistan təcavüzkar siyasətlə özgəsinin ərazisində mövcud olmuş tarixi abidələrə qənim kəsilməsinin üstünün açılmasından, total saxtakarlıqlarının ifşa olmasından təbiidir ki, narahatdır. Çünki on illərdir daşnaklar Qarabağın işğalda saxladıqları ərazilərdəki abidələrin, kilsələrin, guya, onlara məxsus olduğunu iddia edərək, beynəlxalq birliyi çaşdırmağa çalışırlar.

Azərbaycanın 3 şəhəri UNESCO-nun qorunması vacib hesab edilən maddi-mədəniyyət abidələri siyahısına salınıb. Bununla bağlı Azərbaycan Mədəniyyət Nazirliyinin bəyanatında deyilir ki, UNESCO-nun qarşıdan gələn missiyası Ermənistan ərazisində Azərbaycan xalqına məxsus irsin ətraflı öyrənilməsi, monitorinqi və sənədləşdirilməsi mühüm əhəmiyyət kəsb edəcək. Bəyanatda habelə hazırkı Ermənistan ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların zəngin tarixi, mədəni və dini irsinə aid nümunələrin mövcudluğu da xatırladılır. 1869-cu ildə Qafqaz Rusiyası Qubernatorluğu tərəfindən dərc edilmiş “1870-ci il üçün Qafqaz təqvimi” sənədindəki statistik məlumatlara görə, təkcə İrəvan quberniyasında 269 məscid olub. Həmin siyahıya məscidlərlə yanaşı, İrəvandakı “Xan sarayı”, İrəvan qalasının divarları, müasir Ermənistan ərazisində mövcud olmuş çoxsaylı hamamlar, karvansaralar, türbələr, qəbiristanlıqlar da daxildir.

Təəssüf ki, illərdir həmin tarixi abidə və dini məbədlərin hansı vəziyyətdə olması beynəlxalq təşkilatlar tərəfindən nə araşdırılıb, nə də qəti movqe sərgilənib. İndi bunu UNESCO-nun missiyası qiymətləndirməlidir. Azərbaycan-UNESCO əməkdaşlığının yüksək səviyyədə olmasını nəzərə alıb, inanırıq ki, bu beynəlxalq humanitar qurum öz missiyasına sadiq olduğunu təsdiqləyəcək, nüfuzunu ermənilərin bəd niyyətlərinə qurban verməyəcəkdir.

Əlbəttə, əgər UNESCO da ATƏT-in Minsk qrupunun həmsədrləri kimi, “ikili siyasət”ə, yaxud “balanslı yanaşma”ya üstünlük verməklə işğalçı ilə təcavüzə məruz qalanı ayırmayacaqsa, onda onun taleyi Minsk qrupunkundan fərqlənməyəcək. Rəsmi Bakının isə daim yüksək səviyyədə əməkdaşlıq etdiyi bir təşkilatdan belə mövqe gözləməməsi təbiidir.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib: “Ermənistan işğal altında saxladığı ərazilərdə törətdiyi məqsədyönlü dağıntıları gizlətmək üçün onilliklər ərzində bu ərazilərə UNESCO missiyasının səfərinin qarşısını alıb. Bu fakt, UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatında aydın şəkildə əks olunub. Eyni zamanda Ermənistan öz ərazisindəki Azərbaycanın mədəni irsini tamamilə məhv edib, son 30 ildə beynəlxalq hüquq, o cümlədən humanitar hüquq normalarını tapdalayıb. 1949-cu il Cenevrə Konvensiyası, UNESCO-nun 1954-cü və 1970-ci illər konvensiyalarını kobud şəkildə pozub. Ermənistanın yuxarıda sadalanan vandalizminin nəticələri beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb”.

Azərbaycan XİN-in son bəyanatı bölgəyə araşdırma missiyaları göndərəcək UNESCO-ya, sadəcə, xatırlatma deyil. Bu bəyanat eyni zamanda işğalçı Ermənistanın məsuliyyətsizliyini təkzibolunmaz faktlarla üzə çıxarmalı olan UNESCO-nun özünün də hansı missiya daşımasını unutmamasını bir daha yada salmağa, həm də belə məsələlərdə ayıq-sayıq olmağa bir çağırışdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***





# Ədalətsizlik ünvanı

## Erməni lobbisinin sifarişi ilə qəbul edilən bədnam qətnamə Avropa İttifaqının qərəzli mahiyyətini ifşa edir

**Avropa Parlamenti martın 10-da “Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi” ilə bağlı qətnamə qəbul edib. Bu qətnamə təşkilatın bir daha Azərbaycana qarşı qərəzli, ədalətsiz və ikili standartlara söykənən siyasətini təzahür etdirir.**

Avropa Parlamentinin dəfələrlə Azərbaycana qarşı heç bir fakta əsaslanmayan, yalan məlumatlarla dolu qətnamələrinin şahidi olmuşuq. Görünür, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsindən sonra Qarabağda yenidənqurma və bərpa işlərini həzm edə bilməyənlər hələ də var.

### Dünya həqiqətlərə şahidlik edir

Torpaqlarımızın azad olunmasından sonra Qarabağda tarixi abidələrimizin, mədəni irsimizin, mədəniyyət nümunələrimizin 30 il ərzində erməni vandalları tərəfindən necə məhv edildiyini görməmək mümkün deyil. Vətən müharibəsindən sonra müxtəlif xarici ölkələrin diplomatlarının, jurnalistlərinin, həmçinin beynəlxalq təşkilatların nümayəndələrinin Qarabağa səfərləri olub.

Səfər edən əcnəbilər Qarabağın müxtəlif rayonlarında Azərbaycan mədəniyyətinin, tarixi abidələrinin necə dağıdıldığını, Qarabağda ekosid törədildiyini, daşdan başqa heç nəyi qalmayan ərazilərimizdəki mənzərəni görüb təəccüblərini gizlədə bilməyiblər. Torpaqlarımız işğaldan azad edildikdən sonra bu ərazilərdə bərpa-quruculuq işlərinə başlanılıb. Əlbəttə ki, bütün tarixi, mədəni, dini abidələrimiz, muzeylər də bərpa ediləcək.

### Qətnamənin ləğv edilməsi tələb olunur

Qətnamənin qəbulundan sonra Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları Avropa Parlamentinə etiraz bəyanatı ünvanlayıblar. Bəyanatda Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində xalqımızın yüz illərlə tarixə malik mədəni irsinin tamamilə yox olmaq təhlükəsi ilə üzləşdiyi qeyd olunub. Bildirilib ki, Azərbaycana qarşı olan ikili standartlar, irqçi xarakterli yanaşmalar və islamofobiya hər zaman bəzi beynəlxalq qurumların işinin ana xəttini təşkil edib. Erməni yalanlarına əsasən hazırlanan və Azərbaycanın işğaldan azad etdiyi ərazilərində ermənilərə məxsus tarixi-mədəni abidələrin dağıdılması ilə bağlı saxta faktları özündə ehtiva edən qətnamənin korrupsioner şəxslərin əllərində oyuncağa çevrilmiş Avropa Parlamenti tərəfindən qəbul olunması Azərbaycana qarşı növbəti riyakarlıqdır: “Uzun illərdir işğal altında olan Azərbaycan ərazilərindəki məscidlər, dini, tarixi, mədəni abidələr erməni vandalları tərəfindən dağıdılıb. Təbii ki, bu, onların dini, mədəni və tarixi dəyərlərə olan nifrətindən irəli gəlir. Fakt kimi işğal altında olmuş torpaqlarımızdakı məscidlərdən ermənilərin tövlə kimi istifadə etməsini də deyə bilərik. Əgər Ermənistan dini abidələrə, məscidlərə sayğı ilə yanaşmış olsaydı, işğal etdiyi Azərbaycan ərazilərindəki abidələri dağıtmazdı”.

Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Sadalanan faktlara baxmayaraq, müəyyən beynəlxalq təşkilatlar, Avropa Parlamentinin üzvləri bu durumlara səssiz qalır və Azərbaycan əleyhinə qətnamələr qəbul edirlər.

Bəyanatda qeyd olunub ki, Avropa Parlamentinin Azərbaycanla bağlı qərəzli və qeyri-obyektiv fikirləri birmənalı şəkildə rədd edilir. Avropa Parlamentindən Azərbaycana qarşı qəbul olunmuş bu ədalətsiz qətnamənin ləğv edilməsi tələb olunur.

### Belə addımlar Avropa İttifaqına inamı azaldır

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin deputatı Asim Mollazadə qəzetimizə bildirib ki, Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi sənəd təəssüf doğurur. Deputatın sözlərinə görə, Avropa Parlamentinin nəzdində siyasi korrupsiyaya qurşanmış erməni lobbi təşkilatları Avropa dəyərlərinə, eləcə də Avropa İttifaqının maraqlarına zidd olaraq yalan məlumatlar əsasında belə sənəd qəbul ediblər: “Bu onu göstərir ki, Avropa Parlamentində fəaliyyət göstərən lobbi qrupları çox vaxt bilavasitə siyasi korrupsiyaya görə Avropa dəyərlərinə və Avropa İttifaqı ölkələrinin maraqlarına zidd addımlar atırlar. Bu, təəssüf doğurur. Biz görürük ki, dəyərlərə zidd olan siyasi fəaliyyət, əslində, Avropa İttifaqına inamı azaldır”.

Asim Mollazadə qeyd edib ki, Avropa Parlamenti ilə fəaliyyətdə belə xoşagəlməz hadisələrlə rastlaşmışıq. Yalanlar əsasında qəbul edilən sənədlər, əslində, Avropa Parlamentini gözdən, nüfuzdan salır. Artıq parlamentin sənədlərinə heç kəs ciddi yanaşmır.

### Azərbaycan xristian abidələrinə də həssaslıqla yanaşır

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin deputatı Sahib Alıyev qəzetimizə bildirib ki, Avropa Parlamentində çalışanlar Azərbaycan dövlətini ermənilərə aid abidələri məhv etməkdə günahlandırmazdan əvvəl ermənilərin basdırdıqları minaları görməlidirlər. Deputat qeyd edib ki, hazırda biz işğalçının qoyub getdiyi “abidələri” çıxarıb zərərsizləşdirməklə məşğuluq: “Çox təəssüf ki, Avropa Parlamentində oturanlar da minalanmış ərazilərin xəritəsinin verilməsi üçün Ermənistana lazımi təzyiqi göstərmədilər. Açıq-aydın görünür ki, təzyiq göstərmək fikirləri də yoxdur”.

Sahib Alıyevin sözlərinə görə, Azərbaycan Ordusu İkinci Qarabağ savaşı zamanı mülki infrastruktura zərər vurmamağa çalışıb. Halbuki ermənilərin işğal etdikləri torpaqlarda yaşayış məskənlərini yerləyeksan etməkləri azmış kimi, 63 məscidimizi tamamilə dağıtmışlar. Düşməndən fərqli olaraq bizim dövlət, ordu, xalq bütün abidələrə həssaslıqla yanaşır. Xristian abidələrinə gəldikdə isə həm savaş zamanı, həm də indi həmin abidələrə həssaslıqla yanaşırıq və yanaşacağıq. Ona görə ki, o abidələrin əksəriyyətinin albanlara aid olduğunu çox gözəl bilirik və bunları öz mədəni irsimiz sayırıq.

### Bu qətnamə, sadəcə, kağız parçasıdır

Deputat Sahib Alıyev deyib ki, Avropa Parlamentinin bu qətnaməsi ikili standartlara söykənir, qərəzlidir, obyektivlikdən uzaqdır. Bu qətnaməni qəbul edənlər dönüb öz hərəkətlərinə baxsalar, daha yaxşı olardı. Almaniyanın məşhur “Bild” dərgisi İkinci Qarabağ müharibəsi zamanı “Bayraktar”ları “qatil dronu” kimi təqdim edirdi. İndi isə Ukraynada ümid silahı kimi təqdim edilir. Onlardan hər hansı obyektivlik gözləməyimiz təəccüblü olardı. Ona görə də bu qətnamə bizim üçün, sadəcə, kağız parçasıdır. Sahib Alıyev bildirib ki, bu qətnamə qarşı tərəfə də nəsə vermir: “Sadəcə, hazırda təbii qaz çatışmazlığı ilə üzləşdiklərini nəzərə alıb demək olar ki, qətnaməni yandırıb istisinə qızına bilərlər. Təbii ki, nə qədər qızınmaq mümkündürsə. Bundan başqa, qətnamə onlara heç nə vermir”.

Deputat vurğulayıb ki, bu qətnaməyə fikir verməməli, Qarabağda quruculuq prosesini sürətlə aparmalı, 30 ildə yurdlarından didərgin düşmüş soydaşlarımızın dədə-baba torpaqlarına dönmələrini təmin etməliyik.

***Əsmər QARDAŞXANOVA,***
***“Azərbaycan”***

## Yazıçı və həyat

**Zaman da yetişdi, bu düşüncələri ağ vərəqlərlə bölüşüb, Sizə ünvanlamağın vaxtı-vədəsi də...**

**Sizə çox məktub yazırlar - müstəqil dövlətin Prezidenti kimi - minnətdarlıq duyğusu ilə...**

**Bu məktubsa, düşünürəm ki, daha çox ruhun ehtiyacıdır...**

**İnsan öz duyğularını, düşüncələrini həmişə məktubların dili ilə ifadə edib. Məktubla və sözlə...**

**...Və bu qəlb çırpıntılarımı - nisgildən vüsala, məğlubiyyətdən Zəfərə, qaçqın şəhərciklərindən doğma obalarımıza qədər uzanan kövrək duyğularımı məmləkətimizə yeni növraq gətirən Novruzun ərəfəsində yekunlaşdırmağa qərar vermişdim...**

**Fikirləşdim ki, elə bu məktubu da, azad etdiyiniz, təmizlədiyiniz, yolumuzu açdığınız Zəngəzurun qəlbimdəki rəmzi poçtu ilə Sizə göndərim!..**



# Məktub yetişdi...

*...Hər dəfə ilk bahar yetişəndə, yaz gülləri açılanda qərəmət məni basırdı, bu misraların hərarəti qərib yurdlarımıza niyə gedib çatmır, o yurdlarımız bu gözəllikdən niyə məhrumdur?..*

*Elə bilirdim o torpaqlarda zaman şaxtalı, sazaqlı bir qış günündə ilişib qalıb...*

Boynubükük bənövşələrini də, səmada qanadlanıb bahar müjdəsini dünyaya yetirmək istəyən qaranquşlarını da, çiçəkdən-çiçəyə qonub bal toplamaq həsrətində olan arılarını da sankı don vurub...

**O anlardaca, sümüklərim üşüyürdü, şaxtanın qılınc kimi kəsdiyi sazaqlı bir qış günündə, doğmaları üçün məktub yazdıran, amma məktubu yetişməyən *Qurbanı - unudulmaz ədibimiz Abdulla Şaiqin "Məktub yetişmədi"* hekayəsinin bu zavallı qəhrəmanının faciəli taleyini yada salırdım...**

Ədəbi yaddaşımızda uzun onilliklərdir məktubun yetişməməsinin bax belə bir sızıltısı var idi...

*Bu sızıltıdan daha göynərtilisi isə qəlbimizin qaysaq bağlamaz yurd yarasıdır. Onun da əzablı ağrıları içində düşünürdüm ki, görəsən bu həsrət, bu qubar, nə zaman bitəcək, nə zaman...*

**Düşünürdüm ki, aman Allah, o yerlərin səmasının qara çarşabı, dağlarının və düzlərinin ağ kəfəni bəs nə vaxt qalxacaq? Məktublarımız bəs nə zaman yetişəcək?**

❖❖❖

**...Bu məktub da uzun illərin həsrətiylə yol gəlirdi...**

*...2020-ci ilin hər dəqiqəsi tarix olan payız günlərindən, ağacların qızılı libasına büründüyü, təbiətin daha bir fəsil dəyişikliyinə yır-yığış elədiyi vədələrdən və o günlərdə televizorun ekranı qarşısında, radio önündə ayaq üstə dayanıb həyəcandan titrəyən, amma eşitdiyi hər kəlmənin sehrini, enerjisini, ruhunu qaçırmamaq üçün nəfəs almadan...*

*Sizin qələbə müjdələrinizi dinləyən insanlarımızın sevinc anlarından bəri iç dünyam ünvanınıza yetiriləsi kəlmələrlə dolu idi...*

❖❖❖

**Ötən ilin oktyabrında tarixi fərmanınızla yaratdığınız Şərqi Zəngəzura – onun laləzar guşəsi olan Zəngilana, ata yurduma səfər etdiniz.**

**Silahdaşınız, çiyindaşınız, Vətən dərdinə birgə əlac olduğunuz Mehriban xanımla səmimi görüşlər keçirdiniz.**

*Taleyimə minnətdaram ki, bu tarixi görüşdə iştirak etmək, həmin unudulmaz anları yaşamaq, hər dəqiqəsi bir ömrə dəyən təəssüratları yaddaşıma köçürmək mənim də qismətim oldu.*

**Sonra yenə Şərqi Zəngəzura – onun dilbər guşəsi olan Qubadlıya, ana yurduma gəldiniz...**

**Hər iki yurdum böyük coşqu, əbədi şükranlıqla qarşıladı hər ikinizi...**

**Sizin xoş qədəmlərinizlə hər iki doğma yurdumdaca həyat qaynadı, quruculuq, abadlıq işləri başladı.**

**Və hamı, bütün el-oba böylanıb səbirsizliklə baharı gözlədi...**

**Və gəldi o bahar...**

*Yeni, təp-təzə və uzun illərin həsrətindən sonra tarixi bir bahar...*

Nədənsə, həmişə mənə elə gəlib ki, ağaclar, güllər kimi insan düşüncələrinin və onları ifadə edən kəlmələrin də tumurcuqladığı çağlar var, ona görə də bu məktubu qələmə almaq üçün həmin çağlara, baharın çərşənbələrinə qədər səbir etməyi üstün tutdum.

**Şah İsmayıl Xətainin bir əlində qılıncı, bir əlində qələmi - baharın gəlişi münasibətilə yazdığı misralar... Əsrlərin o üzündən yaz mehi kimi ürəyimi oxşayır:**

**"Qış bitdi və bahar gəldi,**
**Gül bitdi və laləzar gəldi..."**

*Bahar nəfəsli od çərşənbəsi axşamı ocaq çatıb bayram əhvali-ruhiyyəsini bölüşən insanlar evlərinə yığışandan, bayırda əl-ayaq çəkiləndən sonra məktubumun ilk cümlələrini yazmağa başladım...*

***Bax ürəyində nakam arzularla yaşayan bəndənizin məktubu da belə yetişdi...***

**Xeyirli olsun!..**

❖❖❖

**Biz illərdən bəri daş kimi ürəyimizdən asılı qalan, qəddimizi əyən, gələcəyə göz dolu baxmağımıza mane olan, xoşbəxtlik hissimizi korşaldan ağırlıqdan məhz Sizin sayənizdə xilas olduq.**

*Zindan kimi bu ağır daş "Dəmir yumruğu"nuzun zərbəsi ilə param-parça oldu, işğal acılarımızı geridə buraxdıq...*

*Zülmətə qərq olmuş yurdlarımızın çırağını yandırdınız, kotana, toxuma, insan əlinin tumarına, yamyaşıl taxıl zəmilərinin gözəlliyinə həsrət torpaqlarımıza bərəkət gətirdiniz...*

*Kor qoyulmuş ayna bulaqlarımıza su, kol-kos basmış yollarımıza abadlıq, tar-mar edilmiş şəhərlərimizə, kəndlərimizə, qəsəbələrimizə dirçəliş bəxş etdiniz...*

**Qurucu əllərinizlə bu torpaqlarda yeni bir həyat başlatdınız...**

*Ağırlığımızı-uğurluğumuzu yellər apardı, ayağımızı yer götürdü, ürəkləndik, qüvvətləndik!..*

*Elimizin ruzisini də Allah yetirəcək həmişə, sağlıq olsun. Çünki Yaradanın böyük bir lütfü kimi bu xalqın el qədri bilən, vətəndaşlarının halından anlayan Sizin kimi rəhbəri var. Həyata keçirdiyiniz inkişaf siyasəti var, ölkəmizə böyük uğurlar qazandıran sosial-iqtisadi layihələriniz var.*

Azərbaycanın daha da qüdrətlənməsi üçün reallaşdırdığınız fürsətlər, əli işgüc tutan bütün insanlarımıza işləyib özünün, ailəsinin dolanışığını təmin etməkdən ötrü yaratdığınız imkanlar var.

**Ölkəmizdə sakitlik, normal həyat ahəngi, qanunlara, dövlətçilik dəyərlərinə getdikcə yüksələn hörmət ruhu, rəvan inkişaf yolu var və bütün bunların müəllifi və təminatçısı məhz Sizsiniz!**

❖❖❖

*Nəhəng dünya nehrə kimi çalxalanır, dövlətlər, xalqlar, dünənə qədər bir-biri ilə qardaş sayılan toplumlar, soyu-kökü, dini, dili bir insanlar üz-üzə qoyulur, qanlı-bıçaq olur.*

*Adamların başına od ələnir, ölüm saçan silahlar nakam ömürlərə son qoyur, əsrlərlə tikilib-qurulmuş qədim şəhərlər xarabazara çevrilir.*

**Niyyət bəlli, mahiyyət aydındır:** kimlərsə, yenə suyu bulandırıb balıq tutmaq istəyir, kimlərinsə maraqları üst-üstə düşmür, geopolitik iştahalar üzündən xalqlar, sadə insanlar diş altında qalır, faciələrə sürüklənir, həyatlar qaralır, bomba gurultusundan zəhri yarılan körpələrin fəryadı ürək parçalayır.

*Bir o qədər də beynəlxalq güclərin riyakarlığı, məsələlərə ikili və soyuq yanaşmaları adamda hiddət doğurur. Azərbaycanın haqq-ədalət uğrunda apardığı savaşda Sizi bu müqəddəs yoldan çəkindirmək, qələbəmizə mane olmaq üçün min bir fənd düşünənlər, illərdir ki, işğala məruz qalana deyil, işğalçıya qahmar çıxanlar, meydan verənlər indi tamam başqa cür mövqelər sərgiləyirlər, ədalətsizlikləri ilə yeni problemlərin təməlini qoymağa çalışırlar, ikrah doğururlar.*

**Ordumuzun gücü ilə tarixi qələbəmizi necə böyük çətinliklər, fədakarlıqlar bahasına qazandığınız, diplomatik arenada nə qədər maneələri aşdığınız, üzərinizə yönələn təhdidləri necə gərginliklər hesabına dəf etdiyiniz indi əyan olur.**

*Vətən müharibəsinin hərbi əməliyyatlarını özünüz kimi mübariz, şir biləkli, aslan ürəkli əsgər və zabitlərimizlə aparırdınız.*

*Əsl sərkərdə məharəti ilə döyüşləri idarə edir, düzgün taktikanız, dəqiq əmrlərinizlə ordumuzu ardıcıl qələbələrə yetirirdiniz. Xalqa yetirdiyiniz zəfər müjdələrindən, hərbi əməliyyatlar haqqında açıqlanan məlumatlardan proseslərin necə də uğurla getdiyi gözlərimiz önündəydi.*

*Diplomatik səngərlərdə isə nələrin baş verdiyindən, necə oddan-alovdan keçdiyinizdən biz xəbərsiz idik, əyləşib ekran qarşısında elə hey Sizi axtarırdıq...*

**Yeni Qələbə müjdələrinizin intizarını çəkirdik...**

*Bu meydanda təkbaşına döyüşürdünüz, Azərbaycana yönələn təzyiqlərə təkbaşına sinə gərirdiniz, dünyanın dörd bir yanından ara verməyən hücumların, fitnə-fəsadların qarşısını alırdınız.*

**Bu haqq işində öz Liderinə dəstək verən, milli vəhdəti ilə dünyaya görk olan xalqımıza güvənərək...**

**Azərbaycan uğrunda ölümün gözünə dik baxan insanlarımızın sağlam ruhuna, Vətənə sədaqətinə əminliklə...**

*Müdrikliyinizə, fəhminizə, dövlətimizi xoşbəxt gələcəyə aparmaq üçün seçdiyiniz yolun ən düzgün yol olduğuna etibar edib hər qətiyyətli addımınızda mənəvi dəstək verən, Siz olan yerdə Azərbaycanın taleyindən xatircəm qalan, zərrə qədər də tərəddüd hissi keçirməyən xalqımızın bu inamından, güvənindən güc alaraq...*

**Özünüzün də qeyd etdiyiniz kimi, nəyi, nə zaman və necə etməyi bilməyin, hər şeyi zərgər dəqiqliyi ilə ölçüb-biçmək, yaranmış ən ani fürsəti belə Azərbaycanın daimi faydasına çevirməyi bacarmaq səriştəsinin verdiyi üstünlüklə...**

❖❖❖

**Bu səriştənin, fenomenal bacarıqların, proseslərə çevik və peşəkar reaksiyaların, informasiyalarla işləmək qabiliyyətinin böyük dövlət adamı, bütün zamanların ustad siyasətçilərindən olan Heydər Əliyev məktəbindən gəldiyi dərhal bilinir... Bu məktəbdə əxz etdiklərinizin üzərinə toplanan illərin təcrübəsi isə indi Sizin özünüzü də qlobal siyasət məkanının böyük ustadına çevirib...**

*Davranışlarınız, tərziniz, verdiyiniz qərarlar, məsələlərə strateji yanaşmalarınız, əldə etdiyiniz parlaq nəticələr çoxları üçün əsl ustad dərsləridir!..*

*Beynəlxalq məkanda baş verən hadisə və proseslərə münasibətiniz, bu günə və gələcəyə baxışlarınız, beynəlxalq səviyyədə irəli sürdüyünüz təşəbbüslər hamıya maraqlıdır, hər kəs üçün mühümdür. Tarix proqnozlarınızın, mühakimələrinizin düzgünlüyünü, təşəbbüslərinizin nə qədər əsaslı olduğunu, təkcə Azərbaycana deyil, ümumən dünyamıza faydalarını zaman-zaman sübuta yetirirdi...*

**Və bundan sonra da yetirəcək!..**

**Ona görə ki, başqaları öz xırda maraqlarını güdərkən, Siz insan taleyini fikirləşirsiniz...**

**Başqaları dağıtmaq yolunu seçərkən, Siz adınızı tarixdə qurucu əməllərinizlə əbədiləşdirirsiniz!**

**Başqaları danışıb vədlər verərkən, Siz real tarixi işlər görürsünüz.**

*Hələ orasını demirəm ki, həyata keçirdiyiniz məqsədyönlü siyasətlə, mövcud imkanları reallığa çevirmək qabiliyyətinizlə bu ərazicə kiçik ölkəmizi Yer üzünün ən əhəmiyyətli mərkəzlərindən birinə çevirməyi bacarmısınız.*

**Bu gün dünyanın enerji sisteminin, qlobal logistikanın, beynəlxalq iqtisadiyyatın bir nəbzi də Azərbaycanda sürətlə döyünür.**

*Müxtəlif coğrafiyalarda, ayrı-ayrı məkanlarda, fərqli məsələlərdə toqquşan, konfliktə girən, münaqişələrə səbəb olan bütün maraqlar Azərbaycanda üst-üstə düşür, uzlaşır, rahatlıqla yola gedir.*

Yaxın-uzaq ölkələrdə günahsız insanların başına raketlərin yağdırıldığı zamanda, onilliklər boyu min bir zəhmət bahasına ərsəyə gəlmiş iqtisadi sistemlərin çökdüyü, infrastrukturun darmadağın olduğu, yeni münaqişə ocaqlarının körükləndiyi, son dərəcə çətin əyyamlarda Azərbaycanda böyük perspektivlər vəd edən strateji əməkdaşlıqlar, qarşılıqlı faydalar başlanır, hamının gələcəyi aydınlıqla görə bildiyi, əmin olduğu tərəfdaşlıq mühitinin qapıları açılır.

**Bax bu mühiti - Siz yaratmısınız!..**

**Qarabağ, Şərqi Zəngəzur Sizin əsərinizdir!..**

**Tarixi əsərləriniz!..**

**Yollar da arzularımız kimidir, açılıb, uzanıb gedir: Bakıdan Qarabağa, Zəngəzura...**

**Ordan da haralara - yaxşısını Siz bilirsiniz...**

❖❖❖

*Beynəlxalq arenada Sizə olan münasibətdən maraqlı bir məqam da həmişə diqqətimi çəkib.*

**Azərbaycan vətəndaşları kimi beynəlxalq siyasətin əsas iştirakçıları da Sizə inanırlar, rəğbət bəsləyirlər, etibarlarında, əməkdaşlıq meyillərində əsla tərəddüd etmirlər.**

Hiss olunur ki, əslində, böyük siyasətdə də mərdanəlik, bütövlük, verilən sözlərə sadiqlik, şərəf və ləyaqət hissi üstün dəyərlər sayılır. İntəhası, böyük siyasətdəki hər kəs də bu dəyərlərin daşıyıcısı ola bilmir. Məqsədlərə çatmaqdan ötrü hər cür vasitəni məqbul sayanlar bu dəyərləri məhv edirlər.

*Sizə isə ona görə dünyanın böyük ehtiramı, güvəni var ki, həmişə dəyərlərinizi qorumağı bacarırsınız, onları qırmızı xəttin bir tərəfində saxlamağa nail olursunuz, çünki Azərbaycan dövləti, Azərbaycan xalqı, keçmişimiz, bu günümüz və gələcəyimiz elə o müqəddəs dəyərlərdən ibarətdir.*

**Sizin bu gün qlobal siyasətdəki məğrur, qürurlu, mərd obrazınız, təmsil etdiyiniz ali keyfiyyətlər bizim kimlik hekayəmizdir...**

***Onlarsız, nə milli varlığımızdan əsər-əlamət qalar, nə də Vətənimizdən...***

**Bu dəyərlərlə güclüsünüz,** *inam yaradansınız, özünüzün də bəyan etdiyiniz kimi, sözünüzə imzanız qədər dəyər verənsiniz. Diplomatik ortamlarda, dövlətlərarası münasibətlərdə etibar edib ürək qızdıranların güvəninə axıra qədər sadiqsiniz.*

Dost saydıqlarınıza və Azərbaycanı da səmimi-qəlbdən dost sayanlara dəstəyinizi, bacardığınız köməyi hətta ən çətin, mürəkkəb şərtlər altında da əsirgəməyənsiniz. Müdrik davranışlarınızla, yerindəcə, məqamındaca verdiyiniz qərarlarla xalqımıza düşmən deyil, dostlar qazandıransınız.

*Bütün bunların nə qədər önəmli olduğunu Vətən müharibəsində bir daha anladıq, haqq savaşımıza dəstək verənlərin, ən azı o günlərdə Azərbaycana qarşı təzyiq kampaniyasına qoşulmayanların, imkan düşdükcə, yanımızda olduqlarını büruzə verənlərin xeyli genişlənmiş sayında izlədik, tarixi Zəfərimizin dünyanın siyasi çevrələrində qəbul edilməsində görüb anladıq.*

❖❖❖

**Səbriniz, təmkininiz, ani emosiyalardan uzaqlığınız, hər sözü illərin peşəkar diplomat vərdişi ilə ölçüb-biçib dilə gətirməyiniz, amma, eyni zamanda bu ölçülü-biçili kəlmələrlə də həqiqətləri əsla pərdələməməyiniz, əksinə, ən doğru, ən obyektiv olanları ifadə etməyiniz, başlıcası isə səmimiyyətiniz, haqqın tərəfində durmanıza qəti əminliyiniz - İlahi bir vergidir!..**

**Bu - ilahi bir dəyərdir...**

Bu fitri istedadı qarşınızdakının niyyətini ilk kəlmələrindən anlamaq qabiliyyətiniz tamamlayır.

*Müsahibələrinizi dinləyərkən, ilk növbədə, cəsarətiniz heyranlıq doğurur, istənilən media qurumunun təmsilçisinin qarşısına çıxmaqdan, onların istənilən suallarına cavab verməkdən əsla çəkinmirsiniz. Hər belə müsahibəni Azərbaycanın haqq sözünü dünyaya yetirmək üçün yeni bir imkan bilirsiniz, onların istənilən suallarına isə - hətta təxribat məqsədli sual olsa belə, veriləsi tutarlı, əsaslandırılmış cavablarınız var. Müsahibələr gedişində yaranmış çox ani məqamdan çevik şəkildə istifadə edərək, iki-üç kəlməlik replikanızla bütün söhbətin möhürünü vurmağınız, opponenti məğlub duruma salmağınız da tamam başqa bir ustalıqdır.*

*Söhbətə hansı niyyətlə başlamasından asılı olmayaraq, heç bir jurnalist, həmsöhbət Sizdən gərgin emosiyalarla, məyus hisslərlə ayrılmır, əksinə, özü ilə xoş bir ünsiyyətin unudulmaz, pozitiv təəssüratlarını aparır. Sadəliyinizlə, səmimiyyətinizlə, işıqlı təbəssümünüzlə, emosional intellektinizlə olduğunuz ortamdakı insanlarda o qədər gözəl aura yaradırsınız ki, burada hər hansı gərginliklərə, sıxıntılara yer qalmır.*

**Buna Sizinlə bircə dəfə ünsiyyətdə olmuş hər kəs şahiddir...**

❖❖❖

**Şərqi-Zəngəzurda, dədə-baba yurdumda o tarixi görüşümüzü xatırlayıram...**

*Nə gizlədim, görüş ərəfəsində xeyli gərgin idim, illərin həsrətindən sonra doğma yurda qovuşmağın ürək döyüntüləri öz yerində, axı dövlət rəhbəri ilə görüşməyin, kəlmə kəsməyin özü də böyük bir məsuliyyətdir, həyəcandır...*

Amma Sizinlə görüşün elə ilk dəqiqələrindəcə bütün həyəcanlı anlar, gərginliklər ötüb keçdi, o qədər səmimi, rahat, adamın canına yatan ab-hava yaratdınız ki, hətta çıxış edəndə, əvvəlcədən düşündüyüm qeydlərimi belə unutdum, bir də hiss elədim ki, həmin an ürəyimdən nə gəlirsə, düşüncələrimdən nə keçirsə, onları dilə gətirirəm, biləkdən yaratdığınız şərait, verdiyiniz cəsarət dilimi açıb, ürəkləndirib, davranışlarıma sərbəstlik gətirib.

*Orasını da fikirləşdim ki, Sizin özunəməxsus, məqsədli şəkildə yaratdığınız o ünsiyyət mühitində başqa cür mümkün deyildi axı, orada adam hər cür sünilikdən, ütülü davranışlardan uzaq tərzdə, necə varsa, yalnız elə ola bilərdi...*

Bax bu imkanı və şansı siz yaratdınız...

**Böyüklük budur!..**

**Əzəmət budur!..**

**Həm də sadəlik budur!..**

*El-obalarımıza, azad yurdlarımıza səfərlərinizdə, sükan arxasında yol gedə-gedə Mehriban xanımın telefonun kamerası ilə çəkib paylaşdığı təəssüratlarınızda, doğma ellərimizin dağı, daşı, çayı, ağacı, yolu-rizi ilə sevgi dolu ünsiyyətinizdə, qayğınızda, ümidlərinizdə, torpaqlarımızda xarabalıq mənzərələri yaratmış vandalların bu bədnam əməllərinə qarşı hiddətinizdə də Siz məhz özünüzsünüz.*

*Çox təşəkkürlər!..*

*Bu obrazınızı çox məhdud texniki imkanlarla, yəni heç bir çəkiliş heyəti, rejissor mizanı, operator işi, ssenarist qeydləri olmadan, adicə bir telefon kamerası ilə, amma misilsiz yaradıcı duyumla, peşəkarlıqla çəkib tarixdə əbədiləşdirən, bununla çağdaş kommunikasiya mütəxəssisləri, televiziyaçılar üçün əsl örnəklər yaradan Mehriban xanıma da könül dolusu təşəkkürlər!*

**Azərbaycan həyatının elə bir sahəsi yoxdur ki, Sizin və Mehriban xanımın - qoşa qanad kimi - diqqətindən kənarda qalsın, bu tarixin əhatə dairəsindən iraq düşsün...**

*Siz xalqımızın, Vətənimizin keçmişinə, milli-mənəvi dəyərlərinə, coğrafiyasına, yer-yurd adlarına hamıdan çox bələdsiniz. Qarabağın, Şərqi Zəngəzurun toponimlərini, işğaldan azad edilmiş torpaqlarımızın tarixini, ərazi xüsusiyyətlərini, relyefini o qədər dərindən bilirsiniz ki, bu bilgiyə, marağa heyran qalmamaq olmur.*

**Bütün bunlar Azərbaycana sevginizdən gəlir!**

**Vətən sevgisi xilqətinizdədir!..**

***Nə xoş ki, bu sevgini bütün ruhunuzla hiss edir və həm də yaşadırsınız...***

*Sizin sükan arxasında "Ey Vətən!" nəğməsini dinlədiyiniz anlar, o nəğməni dinləyə-dinləyə azad yurdlarımıza baxıb gələcəyə doğru yol çəkən gözlərinizdəki sevgi, qürur, qayğı qədər aydın görüntülər...*

**Necə də gözəl anlar, səmimi dəqiqələr idi...**

*Həmin nəğməni yalnız Azərbaycanı bu qədər sevən, adını uca tutan onun bu gününə və gələcəyinə görə məsuliyyəti geniş çiyinlərində, köksündə daşıyan Lider bax bu cür sevgi və məhəbbətlə dinləyə bilər...*

**Və nəhayət ki, o yaz gəldi...**

**Yaz gəldi azad yurdlarımıza...**

**Bu yaz - həm də bir başqa yazdır axı...**

**Otuz ilin həsrətilə, acı intizarı ilə gözlədiyimiz yaz...**

**Bu yazın müjdəsi, hərarəti, ətri azad yurdlarımızdan şirələnib, boy götürüb gəlir...**

**Əcdadlarımızın ocaq yerlərində qalanan bayram tonqallarının şöləsi ilə, işğaldan qurtulmuş torpağın sinəsindən boylanan tər bənövşənin, çırtdağ novruzgülünün, kövrək xarıbülbülün xəfif gözəlliyi ilə, insanlarımızın dirçəliş, abadlıq, qurub-yaratmaq əhvalı ilə...**

**Yeni müjdə və yeni ümidlərlə!..**

**Bu ruh - Sizə inamdandır, Sizin ardınızca irəlilədiyimiz inkişaf yolunun düzgünlüyünə əminliyimizdən, güvənimizin əbədi gücündəndir...**

**Sevdiklərinizlə birgə, bax beləcə, neçə gözəl baharlara, neçə gözəl bayramlara, əziz Xilaskarımız!**

**Novruz bayramımız mübarək olsun!..**

**...Və elə bu inamla, bu sevgiylə də tamamlayıram bu məktubumu...**

**Sağ olun, cənab Prezident!..**

**İmamverdi İSMAYILOV**

*Zəngəzur-Qarabağ-Bakı*
*14 mart 2022-ci il*



# “Dəmir yumruq” hər an hazır vəziyyətdədir

## İlham Əliyevin Ermənistana növbəti zərbəsi daha sərt və amansız olacaq

**İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə uğrayaraq Azərbaycan qarşısında diz çökən Ermənistan düşdüyü acınacaqlı durumdan qurtulmaq əvəzinə pisniyyətli xislətindən əl çəkmir. Reallıqlar göstərir ki, biabırçı məğlubiyyəti ilə daxildəki sosial-iqtisadi böhranı daha da dərinləşən, mənəvi-psixoloji durumu sürətlə gərginləşən işğalçı ölkə sülh müqaviləsinin imzalanma prosesini müxtəlif bəhanələrlə uzatmağa çalışır.**

### Həm atəşkəsi pozur, vəzifəsinin icrasından boyun qaçırır, həm də günahı başqasının üstünə atır

Hazırda Ermənistan sonu görünməyən tənəzzül dövrünü yaşayır. İqtisadiyyatı tamamilə çökmüş işğalçı ölkənin hökuməti əhalinin sosial vəziyyətini düzəltmək və sosial müdafiə layihələrini həyata keçirmək iqtidarında deyil. Bu azmış kimi, son həftələrdə atəşkəsi pozmaqda davam edirlər. Son bir həftədə demək olar ki, hər gün Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri ərzilərimizi atəşə tuturlar. Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, revanşistlər çirkin əməllərindən əl çəkmirlər. Ötən həftə təkcə Ağdamda mövqelərimiz 28 dəfə atəşə tutulub. Bundan başqa, düşmən Naxçıvan, Xocavənd və Tərtər rayonları istiqamətlərində yerləşən mövqelərimizə müxtəlif çaplı silahlardan fasilələrlə atəş açıb. Ordumuzun bölmələri bu istiqamətlərdə adekvat cavab tədbirləri görüblər.

Hələ bu azmış kimi, Ermənistan tərəfi uydurma məlumatlar yayaraq atəşkəsin Azərbaycan Ordusu tərəfindən pozulduğunu bildirir.

Axı atəşkəsin pozulması Azərbaycanın nəyinə lazımdır. 44 gün müddətində düşmənin belini qıraraq işğal altındakı torpaqlarını geri qaytaran Azərbaycan Ordusu indi öz ərazilərimizdə möhkəmləndirmə işləri aparır. Dövlətimiz 10 noyabr Bəyanatının müddəalarına uyğun olaraq üzərinə düşən öhdəliyin icrası ilə məşğuldur. Hərçənd ki, Ermənistan bu məsələdə də əyri yollara əl atıb vaxt uzatmağa çalışır, öhdəliyindən boyun qaçırır. Amma Azərbaycan ortaya qoyduğu əməllərlə bir daha sadiqliyini, verdiyi sözü tutduğunu birbaşa nümayiş etdirir. Ermənistan rəhbərliyi isə bir tərəfdən, sərhədlərin müəyyənləşməsini və təsdiq olunmasını istəmir, digər tərəfdən də Zəngəzur dəhlizinin reallaşması prosesində üzərinə düşən vəzifəni yerinə yetirmir.

Amma Ermənistan yaxşı anlayır ki, bu gün Azərbaycan regionda ən güclü orduya malik ölkədir. Azərbaycan Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir.

Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən ordu kimi formalaşıb. İkinci Qarabağ müharibəsindəki böyük Zəfərdən sonra isə ordunun daha da modernləşməsi istiqamətində real addımlar atılıb. Əgər Azərbaycan istəsə, öz torpaqlarında antiterror əməliyyatları həyata keçirə də bilər. Buna haqqı da çatır. Yəni “dəmir yumruq” hər an işə düşə bilər.

### İlham Əliyev hər zaman Ermənistana qurtuluş yolunu göstərir

Lakin mövcud reallıq və proseslərin gedişindən belə nəticəyə gələ bilərik ki, Ermənistan kimi təcavüzkar, işğalçı, terrorçu, vəhşi və barbar bir ölkə ilə qonşu olduğu müddətdə Azərbaycan hər cür təxribata hazır olmalıdır.

Düşməni əsrlər boyu tanımışıq. Erməni faşistləri 30 il ərzində Qarabağdakı bütün mədəni-dini abidələrimizi məhv edib, onların izlərini silməyə çalışıblar. Bu azmş kimi, Avropa Parlamenti Azərbaycanın əleyhinə qərəzli, iftira dolu qətnamə qəbul edərək, guya, ölkəmiz Qarabağda ermənilərə məxsus mədəni irs məhv edibmiş. Dünya erməni barbarlığına 2 ildir ki, şahidlik edir, amma AP əksinə, belə bir sənəd hazırlayır.

Bütün bunlar erməni hiyləgərliyinin, erməni xislətinin növbəti təzahürüdür. Məğlub olub diz çökən ölkəyə Azərbaycan Prezidenti qurtuluş yolunu göstərir, qlobal layihələrə qoşulmaq təklifi irəli sürür, lakin Ermənistan öz çirkin niyyətindən əl çəkmir. Guya, bu ölkə sülh müqaviləsi, sərhədlərin müəyyənləşdirilməsi prosesini qəsdən uzadıb vaxt udmağa çalışır. Amma hadisələr, proseslər göstərir ki, Ermənistan etdiyi bu əməllərlə ancaq özünə ziyan vurur. Revanşist qüvvələrin Qarabağda atəşkəsi pozması Azərbaycan əsgərini zərrə qədər də qorxutmur, əksinə yenə də “dəmir yumruq” əməliyyatının keçirilməsi üçün əmr gözləyir.

Prezident İlham Əliyev onlara xəbərdarlığını edib: “Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, “dəmir yumruq” yerindədir. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq”.

Qalib Sərkərdəmiz bir daha onların diqqətinə çatdırdı ki, “dəmir yumruğ”un növbəti zərbəsi daha sərt və amansız olacaq. Məğlub Ermənistan bundan sonra nə qədər pulsuz silah-sursatla təmin edilsə də, arsenalını güclü texnika ilə zənginləşdirsə də, erməni əsgəri yüksək döyüş ruhlu Azərbaycan əsgərinin qarşısına çıxmağa cürət etməyəcək.

Sonda onu da vurğulayaq ki, ötən həftə Azərbaycanın İranla imzaladığı Anlaşma Memorandumu da Ermənistanın bu prosesdə növbəti məğlubiyyəti oldu. Zəngəzur dəhlizinin açılması istiqamətində üzərinə götürdüyü öhdəliyi vaxtında yerinə yetirmədiyi üçün Azərbaycan Avropaya neft-qaz ixracında daha yeni alternativ və daha məqsədəuyğun layihə reallaşdırmaq barədə İranla razılığa gəldi. Bununla da Ermənistan daha bir layihədən kənarda qaldı. Əgər çirkin oyunlara davam edəcəksə, bundan sonra işğalçı ölkə regionda reallaşacaq bütün qlobal layihələrdə iştirakdan məhrum ediləcək.

*Rəşad BAXŞƏLİYEV,*
*“Azərbaycan”*

# Azərbaycanın tarixi uğuru

## İlham Əliyev Ermənistanı daha bir mühüm geostrateji əhəmiyyətə malik layihədən kənarda qoydu

*Əvvəli 1-ci səh.*

Respublikamızın bu sahədə həyata keçirdiyi siyasət həm də regionda və daha böyük coğrafiyada iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə və qonşu ölkələrin bu inkişafdan faydalanmasına yönəlib. Təsadüfi deyil ki, Azərbaycanın bu istiqamətdə Rusiya, İran və Gürcüstanla böyük əməkdaşlığı var.

Eyni zamanda Azərbaycanın yürütdüyü enerji siyasəti regionda əməkdaşlığı daha da gücləndirib. Respublikamızın təşəbbüsləri ilə reallaşan hər bir enerji dəhlizi bütün iştirakçı dövlətlərə iqtisadi dividendlər gətirib, onların enerji təhlükəsizliyini daha da gücləndirib. Ən mühümü də odur ki, respublikamızın Cənubi Qafqazda həyata keçirdiyi hər bir layihə Ermənistanın regionda təklənməsi ilə nəticələnib. İşğalçılıq siyasətinə görə bu ölkə bütün iqtisadi layihələrdən kənarda qalıb, qlobal miqyasda heç bir rolu olmayan ölkəyə çevrilib.

### Azərbaycan məqsədinə nail olur

Vətən müharibəsindən sonra Ermənistanın iqtisadi böhrandan və blokadadan çıxa bilməsi üçün tarixi zəmin yaranmışdı. Azərbaycanın öz Zəfəri ilə regiona gətirdiyi yeni reallıqlar Ermənistana da ağır vəziyyətdən çıxmaq üçün mühüm imkanlar yaradırdı. Çünki Zəngəzur dəhlizinin yaradılması ilə onilliklər boyu işğalçılıq siyasətinin qurbanı olan bu ölkənin xarici aləmlə iqtisadi əlaqələri genişlənəcəkdi. Lakin görünən odur ki, Ermənistan tərəfi yaranmış bu tarixi şansı da düzgün dəyərləndirə bilmir.

Məlum olduğu kimi, Zəngəzur dəhlizi ilə açılacaq nəqliyyat və enerji xətlərinin texniki əsaslandırılması da hazırlandı. Lakin Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, onun reallaşmasını əngəlləmək məqsədilə müvafiq yer ayırmadı. Ötən müddət ərzində bu ölkə Zəngəzur dəhlizinin yaradılmasına maneçilik törətdi, müxtəlif bəhanələrlə, qəsdən onu əngəlləməyə çalışdı. Baxmayaraq ki, bu dəhlizin yaradılması iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın özü üçün olduqca mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanla İran arasında imzalanan memorandumla ölkəmiz qarşısına qoyduğu məqsədə nail olur. Sənədə əsasən Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, o cümlədən də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədindən cəmi 5 km aralı inşa olunacaq. Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və bu tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək. İranı Naxçıvan MR-in Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərcləri İran tərəfi həyata keçirəcək.

Avtomobil yolu körpülərinin tikintisi başa çatana qədər tərəflər öz dövlətinin ərazisində avtomobil yollarının zəruri tikinti, genişləndirmə və yenidənqurma işlərini təmin edəcək, eyni zamanda avtomobil körpüsünə giriş yollarının tikintisini həyata keçirəcəklər. Avtomobil yoluna paralel olaraq tikiləcək dəmir yolunun maliyyələşdirilməsi və ödənilməsinə dair təkliflər isə 6 ay müddətinə hazırlanacaq.

### Ermənistan Zəngəzur dəhlizinin yaradılması üçün yalvaracaq

Yeni layihə böyük iqtisadi dividendlər gətirməklə yanaşı, həm də Naxçıvan MR-in blokadadançıxmasında, muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə etibarlı və davamlı bağlantısının yaradılmasında mühüm rol oynayacaq. Bununla belə, yeni kommunikasiya bağlantılarının yaradılmasında başlıca məqsədin Azərbaycanın əsas hissəsinin Naxçıvanla inteqrasiyasını təmin etməkdən ibarət olması ilə yanaşı, bu layihənin bütün regionun nəqliyyat-kommunikasiya şəbəkəsində tarixi və strateji yeniliyə gətirib çıxarmasıdır.

Bu strateji yenilikdə isə Ermənistana yer yoxdur. Ermənistan rəhbərliyi elə düşünürdü ki, belə bir kommunikasiya yalnız onun ərazisindən keçə bilər və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlamışdı. Lakin Azərbaycan-İran dostluğu, yaxın qonşuluq münasibətləri Ermənistanın bu planını alt-üst etdi. Təsadüfi deyil ki, memorandumun imzalanması Azərbaycanla İran arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf etdi.

44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad edən Azərbaycan regionda yeni reallıqlar yaratdı. Məhz bu amil ölkəmizin növbəti diplomatik uğuruna yol acır və Azərbaycanla İran birlikdə eyni coğrafiyada, Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda yeni kommunikasiya bağlantısı yaradır. Beləliklə, Azərbaycan öz planlarını reallaşdırır, Ermənistan isə növbəti dəfə şansını itirərək mühüm geostrateji əhəmiyyətə malik layihədən kənarda qalır. Proseslər göstərir ki, bundan sonra Ermənistan əl-ayağa düşəcək və Zəngəzur dəhlizinin yaradılması üçün yalvaracaq.

*Rəşad CƏFƏRLİ,*
*“Azərbaycan”*

# “Biz niyə həmişə İlham Əliyevə məğlub oluruq”

## Ermənistan ictimaiyyəti Azərbaycanın İranla imzaladığı Anlaşma Memorandumunu növbəti məğlubiyyətləri kimi qəbul edir

*Əvvəli 1-ci səh.*

Proseslərin bu səpkidə inkişafı Ermənistanda ciddi narahatçılıq yaradıb. Çünki Zəngəzur dəhlizinin açılması ilə bağlı İrəvan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, onun reallaşmasını əngəlləmək üçün müxtəlif bəhanələr uydurmağa başladı. Nikol Paşinyan elə düşünürdü ki, belə bir kommunikasiya yalnız onun ərazisindən keçə və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlamışdı.

İndi bütün bu cəhdlərin fiaskoya uğradığını görən ermənilər baş naziri qınamağa başlayıblar. Erməni siyasi ekspert Armen Qeqamyan deyir ki, Ermənistan ilyarım ərzində Zəngəzur dəhlizinin yaradılmasına maneçilik törətdi, müxtəlif bəhanələrlə onu əngəlləməyə çalışdı. Baxmayaraq ki, bu dəhlizin yaradılması iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın özü üçün olduqca mühüm əhəmiyyət kəsb edirdi: “İqtisadi baxımdan regionda problemlərin həlli yolları göz qabağında olsa da, siyasi intriqalar bu məsələləri həll etməyə imkan vermədi. İqtisadi baxımdan Zəngəzur dəhlizi Ermənistana lazımdır. Dəhliz investisiyaların cəlb olunması, yeni iş yerlərinin açılması, sənaye müəssisələrinin bərpası üçün onlara imkan yaradardı. Xüsusilə də Ermənistanın regional iqtisadiyyata inteqrasiyasına kömək edərdi. Azərbaycan lideri İlham Əliyev də dedi ki, artıq bu qədər vaxt verdik yetər, Zəngəzur dəhlizi bizə maraqlı deyil, alternativ yollar tapırıq”.

Erməni ekspert Ruben Safrasyan bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olardı: “Azərbaycanla İran arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu Paşinyan hakimiyyətinin növbəti məğlubiyyəti sayıla bilər. Halbuki Zəngəzur dəhlizi bütün tərəflərin milli maraqlarına tam cavab verirdi. Zəngəzur dəhlizi Ermənistanın xilası ola bilərdi. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcəkdi. Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədi, vaxt uzatmaqla məşğul oldu. Reallığı demək lazımdır. Düşünürəm ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı hakimiyyət Azərbaycan tərəfinə yalvarmalı olacaq. Çünki bütün üstünlüklər hazırda rəsmi Bakıdadır”.

“Feysbuk” sosial şəbəkə istifadəçisi Manvel Qasparyan yazır ki, sevinirdik ki, illərdir dediyimiz gerçəkləşir. Nəhayət, yolumuz açılır, işıqlı günlərə çıxa bilərik: “Qarabağ problemi Ermənistanı 30 ildən çox bütün layihələrdən təcrid etdi. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək? Bu azmış kimi, İlham Əliyev Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda - İran ərazisindən yeni kommunikasiya bağlantısı yaratdı. Azərbaycan bununla öz planlarını reallaşdırdı, Ermənistan isə növbəti dəfə şansını itirdi. Niyə axı belə edirsiniz? Biz niyə həmişə İlham Əliyevə məğlub oluruq. Bəs deyirdik Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq” (məyusluq işarəsi).

“İnstaqram” sosial şəbəkə istifadəçisi Aşot Minosyan isə “Azərbaycan İranla yeni kommunikasiya bağlantısı yaratdı” başlıqlı xəbərin paylaşımında yazır ki, müharibədən sonra yaranan iqtisadi böhran Ermənistanda insanları acınaqlı vəziyyətlə üz-üzə qoyub: “Evlərini satanlar, hətta intihar edənlər də olub. Paşinyan, vətənini sevən bir erməni kimi sizə nifrət edirəm. Zəngəzurda yaşayan qohumlarımız dəhlizin bərpasına görə o qədər sevinirdilər ki. Xalqın taleyi ilə hökumət maraqlanmır. Paşinyan başa düşməlidir ki, İlham Əliyevin atdığı addımlara “hə” deməkdən başqa çarəsi yoxdur”.

Levon Sarkisyan adlı istifadəçinin “VKontakte” sosial şəbəkəsində İlham Əliyevin və Paşinyanın şəkillərini yanaşı paylaşaraq “Ermənistan məsələni uzatdı, Azərbaycan başqa dəhliz yaratdı” yazması maraqlı rəylərlə qarşılanıb. Vazgen Baqdasaryan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: “Sevinirdik ki, boşa verdiyimiz illərin əvəzini çıxacağıq. Paşinyanın da Sarkisyan-Koçaryandan fərqi yoxdur. Baş nazirimiz də biz erməniləri dərin uçuruma yuvarlatmaqda davam edir. Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər bizi çox geri salıb. Yenə kor olaraq qalacağıq. Zəngəzur dəhlizinin açılması gələcəyimizi xilas edəcəkdi, gün görəcəkdik. Yenə də ümidimizi itirmirik”.

Aram Henrixyan isə çox maraqlı “Tvit” yazıb: “Paşinyan da Ermənistanı səfalətə, böhrana sürüklədi. Azərbaycan Ermənistanı xilas etməyə çalışır. Bizim baş nazir milləti düşünmür. Növbəti dəfə şansımızı itirərək mühüm geostrateji əhəmiyyətə malik olan layihədən kənarda qaldıq. Qazanan yenə Azərbaycan oldu”.

Göründüyü kimi, Prezident İlham Əliyev seçim üçün Ermənistanın siyasi rəhbərliyinə dəfələrlə şans verib. Ermənistan ictimaiyyəti də artıq başa düşür ki, Azərbaycanın təklifləri ilə razılaşmasalar, İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## DSK: “Ölkə üzrə ümumi daxili məhsul istehsalında 6,7 faiz artım qeydə alınıb”

2022-ci ilin yanvar-fevral aylarında ölkədə 19175,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,7 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.




Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 10,1 faiz artmışdır.

ÜDM istehsalının 53,6 faizi sənaye, 7,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi tikinti, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,3 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 14,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir.

Əhalinin hər nəferinə düşən ÜDM 1909,7 manata bərabər olmuşdur.

## İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı 766 manatdır

Cari il fevralın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1679,1 min nəfər olmuşdur. Onlardan 901,0 min nəfəri iqtisadiyyatın dövlət, 778,1 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,8 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi tikinti, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2022-ci ilin yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,9 faiz artaraq 765,9 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, tikinti, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Qasırğa taxıl sahələrinə böyük zərər vurdu - aqrar sığorta işə düşdü

Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində ölkədə indiyədək qeydə alınan ən böyük sığorta hadisəsi baş verib.

AZƏRTAC xəbər verir ki, Qobustan rayonunda əsən güclü külək və qum fırtınası rayonun əkin sahələrinə, xüsusilə taxıl zəmilərinə böyük zərər vurub. Hadisə rayonda çoxsaylı fermer təsərrüfatlarını əhatə edib. Baş verən hadisə nəticəsində rayonun - Ərəbqədim, Nardaran, Qobustan, Qaradüzlü, Ərəbşahverdi, Xilminli kəndlərində fiziki və hüquqi şəxslərə məxsus, ümumilikdə, 400 hektara yaxın sığortalanmış taxıl əkini sahələri qasırğadan zərər görüb.

Ərəbqədim kənd sakini Eynulla Sahibov deyir ki, güclü külək səbəbindən əkin sahələri məhv olub. Qasırğa torpaq qatını bir ərazidən digər taxıl sahəsinə atıb. Nəticədə hər iki sahədə olan məhsul yararsız hala düşüb.

Əkin sahələri qalın qum qatı ilə örtülüb, burada əkilən bitkilər ciddi zədələnib. Bəzi ərazilərdə baş verən qasırğa və güclü külək nəticəsində taxıl bitkiləri kökündən çıxaraq məhv olub. Yerli fermerlər hadisə nəticəsində əkin sahələrində məhsulun qismən və ya tamamilə itirildiyini, böyük zərərə düşdüklərini bildiriblər.

Ərəbqədim kənd sakini 70 yaşlı Ağababa Cavadov belə hadisənin ilk dəfə şahidi olduğunu deyir. “Kəndimizdə əkinəyararlı 3400 hektar sahə var. Payız mövsümündə bu ərazilərin hamısında taxıl əkilmişdi. Güclü külək, qasırğa nəticəsində həmin sahələrin 20 faizi ciddi zərər görüb”, - deyə o bildirir.

Nihad Sahibovda Ərəbqədim kənd ərazisində 50 hektar taxıl əkib. Onun sözlərinə görə, 50 hektardan cəmi 14 hektar sahəni sığortaladıb: “Baş verən güclü külək nəticəsində bizim əkin sahələrimizə də ziyan dəydi. Biz sığorta şirkətinə məlumat verdik, onlar gəlib ilkin baxış keçirdilər, dəyən zərəri qiymətləndirdilər. Biz ümid edirik ki, sığorta pulumuz veriləcək, bizə kömək göstəriləcək. Heyif ki, bütün sahəni sığortalatmamışıq. Onun əziyyəti özümüzə qalacaq”.

Hadisənin nəticələri ilə yerində tanış olmaq və sığorta hadisəsini araşdırmaq məqsədilə Aqrar Sığorta Fondunun rəhbərliyi, fondun Hadisələrin araşdırılması və tənzimlənməsi şöbəsinin əməkdaşları, eləcə də bitkiçilik üzrə müstəqil aqrar sığorta ekspertləri Qobustan rayonunda olublar. Rayonda sığorta hadisəsi baş verən əkin sahələrinə baxış keçirilib, əkin sahələrini sığortalamış fermerlərlə görüş keçirilib.

Aqrar Sığorta Fondunun idarə heyətinin sədri Fuad Sadıqov bildirib ki, ümumilikdə, Qobustan rayonunda 6400 hektar əkin sahəsi sığorta edilib, bunun bir hissəsi qasırğadan zərər çəkib: “İlkin müraciətlərə və məlumatlara əsasən, ümumilikdə, 400 hektar əkin sahəsi qasırğadan zərər çəkib. İlk qiymətləndirmələrə görə, hadisə nəticəsində fermerlərə dəyən zərərin məbləği 400 min manat ətrafındadır. Baş verən hadisə qanunda nəzərdə tutulan prosedurlara uyğun araşdırılacaq, fermerlərə dəyən zərər müəyyən ediləcək və ona uyğun ödənişlərin edilməsi nəzərdə tutulur”.

Fuad Sadıqov fermerləri belə hallarda zərərlə üzləşməmək üçün aqrar sığortadan faydalanmağa çağırıb: “Aqrar sığorta mexanizminin əhatə etdiyi risklər sırasında qasırğa və fırtına da yer alır. Bu halların fermerlərə necə böyük zərər vurduğu göz qabağındadır, onu nəzərə alaraq fermerləri öz əkin sahələrini sığorta etməyə çağırıram. Sığortanın faydası ona çəkilən xərcin məbləğindən müqayisəedilməz dərəcədə böyükdür. Fermerlər böyük zəhmət hesabına becərdikləri əkinlərin məhv olması nəticəsində zərərlə üzləşməmək üçün dövlətin onlara yaratdığı bu imkandan faydalanmalıdırlar”.

Qarşıdakı günlərdə müstəqil aqrar sığorta ekspertləri tərəfindən hadisədən zərər dəyən ərazilərdə araşdırma və zərərin qiymətləndirilməsi işləri aparılacaq. İşlər başa çatdıqdan sonra dəyən zərərlərin qarşılanması üçün qanunvericiliyə uyğun addımlar atılacaq.

## Yanvar ayında qeyri neft-qaz məhsullarının ixracı 1,6 dəfə artmışdır

**2022-ci ilin yanvar ayında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 118 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 66 ölkəyə məhsul ixrac olunmuş, 111 ölkədən idxal olunmuşdur.**

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2022-ci ilin yanvar ayında ölkənin xarici ticarət dövriyyəsi 3968,7 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 2993,8 milyon dollarını və ya 75,4 faizini ölkədən ixrac olunmuş məhsulların, 974,9 milyon dollarını (24,6 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2018,9 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2021-ci ilin yanvar ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,8 dəfə, real ifadədə 17,8 faiz, o cümlədən ixrac 25,9 faiz, idxal isə 2,8 faiz artmışdır

2022-ci ilin yanvar ayında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni ayı ilə müqayisədə həm faktiki qiymətlərlə, həm də real ifadədə 1,6 dəfə artaraq 232,2 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsinin 38,6 faizi İtaliya, 10,9 faizi Türkiyə, 5,8 faizi Ukrayna, 5,1 faizi Rusiya, 3,8 faizi İsrail, hər biri 3,6 faiz olmaqla Çin və Birləşmiş Krallıq, 3,1 faizi Qazaxıstan, 2,5 faizi Almaniya, 2,3 faizi Çexiya, 2,2 faizi Yunanıstan, hər biri 2,0 faiz olmaqla Tailand və İspaniya, 1,8 faizi Gürcüstan, 1,5 faizi Rumıniya, 1,3 faizi İrlandiya, 1,2 faizi Portuqaliya, hər biri 0,9 faiz olmaqla İran və Tunis, 6,9 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.




İxracın 50,1 faizini İtaliyaya, 9,4 faizini Türkiyəyə, 6,5 faizini Ukraynaya, 5,0 faizini İsrailə, 4,1 faizini Birləşmiş Krallığa, 2,9 faizini Çexiyaya, 2,7 faizini Yunanıstana, 2,6 faizini İspaniyaya, 2,5 faizini Tailanda, 2,3 faizini Rusiyaya, 2,2 faizini Gürcüstana, 1,9 faizini Rumıniyaya, 1,7 faizini Almaniyaya, 1,6 faizini İrlandiyaya, 1,5 faizini Portuqaliyaya, 1,1 faizini Tunisə, 1,9 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (30,6 faiz), Türkiyəyə (30,4 faiz), Gürcüstana (6,2 faiz), İtaliyaya (4,7 faiz), İsveçrəyə (3,3 faiz), Çinə (2,8 faiz), Niderlanda (2,3 faiz), Rumıniyaya (1,8 faiz), ABŞ-a (1,7 faiz), Türkmənistana (1,7 faiz), Almaniyaya (1,5 faiz), Özbəkistana (1,4 faiz), Ukraynaya (1,3 faiz), İspaniyaya (1,3 faiz), Belarusa (1,3 faiz), Qazaxıstana (1,2 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

## Dövlət Sosial Müdafiə Fondu beynəlxalq mükafata layiq görülüb

Əmək və Əhalinin Sosal Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) Böyük Britaniyada keçirilən “Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat” müsabiqəsinin “2022-ci ilin Beynəlxalq Dövlət Qurumu” ali mükafatına layiq görülüb.

Mükafat Fondun İdarə Heyətinin sədri Himalay Məmişova təqdim edilib. “2022-ci ilin Beynəlxalq Dövlət Qurumu” mükafatını qazanmaq məqsədilə müsabiqədə Azərbaycanla yanaşı, İtaliya, Almaniya, İsrail, BƏƏ, Yunanıstan və digər ölkələrin dövlət qurumları da iştirak edib. DSMF tərəfindən müsabiqəyə təqdim edilən iş Azərbaycanda sosial təminat idarəçiliyinin mərkəzləşdirilməsi sahəsində son illər aparılan islahatlarla bağlı olub. Münsiflər heyəti tərəfindən ölkəmizin bu sahədə islahat təcrübəsi yüksək dəyərləndirilib və DSMF müsabiqənin “2022-ci ilin Beynəlxalq Dövlət Qurumu” mükafatına layiq görülüb.

Müsabiqənin yekunlarına əsasən, bir neçə kateqoriya üzrə mükafatlandırma da həyata keçirilib. Həmçinin “İlin xidmətləri” nominasiyası üzrə “2022-ci ilin Yanğınsöndürmə və Xilasetmə Xidməti”, “2022-ci ilin Polis Xidməti”, “2022-ci ilin Bələdiyyəsi” və “2022-ci ilin Beynəlxalq Dövlət Qurumu” ali mükafatları təqdim edilib.

## Əsas kapitala 1,3 milyard manatdan çox vəsait yönəldilib

Bu ilin yanvar-fevral aylarında əsas kapitala 1339,7 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz az vəsait yönəldilmişdir.

Dövlət Statistika Komitəsi xəbər verir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 11,2 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,1 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 984,3 milyon manatı və ya 73,5 faizi məhsul istehsalı sahələrinə, 240,6 milyon manatı (17,9 faizi) xidmət sahələrinə, 114,8 milyon manatı (8,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 779,5 milyon manatını və ya 58,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 815,9 milyon manatı və ya 60,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 75,0 faiz, büdcə vəsaitləri 10,4 faiz, əhalinin şəxsi vəsaitləri 9,4 faiz, sair vəsaitlər 4,7 faiz, bank kreditləri isə 0,5 faiz təşkil etmişdir.

## 2 ayda 13,5 milyard manatlıq sənaye məhsulları istehsal olunmuşdur

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2022-ci ilin yanvar-fevral aylarında 13,1 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Neft-qaz sektorunda məhsul istehsalı 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 20,8 faiz artmışdır.

Sənaye məhsulunun 72,9 faizi mədənçıxarma sektorunda, 22,4 faizi emal sektorunda, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,4 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 17,8 faiz artmışdır. Emal sektorunda sair nəqliyyat vasitələrinin istehsalı 5,1 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,3 dəfə, tikinti materiallarının istehsalı 83,8 faiz, elektrik avadanlıqlarının istehsalı 78,2 faiz, mebel istehsalı 75,9 faiz, hazır metal məmulatlarının istehsalı 53,6 faiz, kimya sənayesi məhsullarının istehsalı 48,3 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 44,5 faiz, maşın və avadanlıqların istehsalı 43,3 faiz, əczaçılıq məhsullarının istehsalı 42,6 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 41,8 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 39,6 faiz, poliqrafiya məhsullarının istehsalı 37,0 faiz, neft məhsullarının istehsalı 25,4 faiz, kağız və karton istehsalı 24,6 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 23,2 faiz, qida məhsullarının istehsalı 14,1 faiz, geyim istehsalı 12,3 faiz artmış, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 9,7 faiz, tütün məmulatlarının istehsalı 10,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 11,2 faiz, içkilərin istehsalı 15,6 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 27,8 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 12,8 faiz artmışdır.

## Zaman keçdikcə kənd turizmi daha populyar olur



**Desək ki, aqrar turizm yeni sahədir, ağ yalan olar. Bunu elmi dildə izah etməyə, mənasını “xırdalamağa” da lüzum yoxdur. Qısaca qeyd edək ki, aqroturizm bütün planetdə milyonlarla insanın qəlbini riqqətə gətirən geniş yayılmış istirahət növüdür.**

Türklər adamın ağlını çərçivəyə salıb yerbəyer etmək istəyəndə deyirlər ki, kəndinə qayıt, yəni çaşma, özünü itirmə, lap düzü - özünə gəl... Çoxumuz nə zamandır reallıqlardan, torpaqdan qopub ayrılmışıq, odur ki, indi geri qayıtmağın, kəndinə gəlməyin vaxtıdır.

Əksəriyyətimiz kənd yerindənik, yəni torpağın üstündə doğulmuşuq, bayır-bacaqda yazdan üzü payızadək ayağıyalın, başıaçıq gəzib dolanmışıq. Nə dabanımıza tikan batar, nə də ki ayağımızı şüşə kəsərdi. O zaman dünya elə təmiz, saf idi... Düzünə qalsa, onu atalarımız, babalarımız belə saxlayar, qoruyardılar. İndi uşaq kənd yerində ayağıyalın yola çıxsa, beş-on dəqiqəyə ayağını şüşə də, hələ mismar da yaralayar.

Son 20-30 il ərzində demək olar ki, kənd-kəsəkdən aralı düşmüşük. Elə bil bizi torpağa, yurdumuza bağlayan tellərin əksəriyyəti qırılıb. Bəlkə 30 illik erməni işğalının təsiri olub, bəlkə də bütünlükdə dünyanın mizan-tərəzisi pozulub.

Məsələn, qərbdə böyük şəhərlərdə yaşayan məktəblilər hamburgeri, fast foodu tanıyırlar, amma ola bilər ki, xiyarla badımcanı, qozla fındığı bir-birindən ayırmağa çətinlik çəkərlər. Onlar şəhər həyatının, internet və virtual münasibətlərin pərəstişkarıdırlar. Bağ-bostan onlar üçün uzaq anlayışlardır. İndi meqapolis sakinləri kəndlərdən necə aralı düşüblərsə, biz də eləcə kənd-kəsəkdən uzaqlaşmışıq, reallıqlardan və dünyanın təbii gözəlliklərindən özümüzü məhrum etmişik.

Alimlər belə qənaətə gəlirlər ki, insanlar təbiətdən aralı düşdükcə onların immun qabilliyyəti zəifləyir və xəstəliklərə qarşı digərlərinə nisbətən daha aciz və müdafiəsiz olurlar. Bu baxımdan aqrar və ya kənd turizmi çox önəmlidir. Harada və necə yaşamağından asılı olmayaraq sağlamlığın və səhhətin üçün təbiətlə canlı ünsiyyət qurmalı, özünü bu dünyanın bir parçası kimi hiss etməyi bacarmalısan.

Beləliklə, aqrar turizm əvəzsiz, həm də nisbətən ucuz başa gələn istirahət növüdür. Bu cür turizm gəzintilərin, səyahətlərin bütün digər növlərindən iki üstün cəhəti ilə seçilir. Birincisi, tutaq ki, Eyfel qülləsini, Luvr müzeyini, Ermitajı, ya da Maneji görmək istəyirsən. Buna görə mütləq Fransaya - Parisə baş çəkməlisən, Rusiyaya - Sankt-Peterburqa, Moskvaya getməlisən. Yaxşı da pul xərcləməlisən. Amma ürəyin təbiətin bir parçasını, təndir çörəyinin qoxusunu, bostanda xiyar-pomidorun ətrini duymaq istəyirsə, sadəcə ata yurduna getməyin, ya da hər hansı bir kəndə üz tutmağın bəs edir. Bu minvalla uşaqlıq illərinə qayıdırsan, kövrək xatirələri vərəqləyirsən. Aldığın zövq, müsbət emosiyalar elə Luvr muzeyinə, ya da Ermitaja baş çəkməyinə bərabər olur.

Xalam oğlu zəng edib ki, qardaş, nə olar, gəl gedək kəndə, uşaqlığımıza baş çəkək:

-İki şey üçün burnumun ucu gizildəyir. İstəyirəm ki, babamın qapısında oturum, həyəti, küçəni bürüyən təndir çörəyinin ətrini sinəmə çəkim.

İnsan üstündə yaşadığı torpaqdan aralı düşməli deyil. Sağlam, xoşbəxt yaşamaq istəyirsənsə, gərək təmiz havaya, suya, torpağa yaxın olasan. Zarafatcıl bir qubalı var idi, onu demək olar ki, hamı yaxşı tanıyırdı. Adı Xəyyam idi. Şəhər adamlarına irad tutub deyərdi: “Siz Qubaya yayda gəlirsiniz, qışın soyuğunda, payızın palçığı adamın dabanından bir başa kürəyinə çırpılanda itirsiniz, qeyb olursunuz. Hünəriniz varsa, onda gəlin, əziyyət çəkin ki, bu yerlər sizə bir az da şirin gəlsin. Kəndə gərək istənilən havada gələsən...”

Aqroturizm bizdə yeni sahə sayılsa da, dünyada əsrlərlə ölçülən tarixə malikdir. Məsələn, bu gün dünyaca məşhur “ağıllı kəndlər”in əsas fəaliyyət istiqamətləri aqrar turizmlə bağlıdır. Maraqlısı odur ki, Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə belə kəndlərin geniş şəbəkəsini yaradır. Məsələ burasındadır ki, ölkəmizdə əhalinin yarıdan çoxu kənd yerlərində yaşayır. Aqrar turizmin geniş inkişafı həm minlərlə kəndlinin güzəranını dəyişə bilər, həm də hamımıza kənd həyatının incəliklərindən zövq almağa imkan yaradar.

Bakıdan hansı rayona üz tutsanız, yol kənarında həyət-bacasının məhsullarını satışa çıxaran kəndliləri görəcəksiniz. Əslində, bunun özü də elə kənd turizminin bir elementidir. Bunu daha da genişləndirmək vacibdir. Kənd həyatına aid suvenirlərin, dekorativ əl işlərinin satışını da təşkil etmək mümkündür.

Dünyada belədir ki, insanlar kəndə qonaq gəlir, kəndlinin evində gecələyir, səhər isə oyanıb ya fermaya, ya bağa gedib işləyir ki, kənd həyatının bütün çalarlarını dadsın. Bu, aktiv istirahət sayılır. Avropada daşınmaz əmlak sahibi sənə icazə verir ki, onun bağında, ya da həyətində çadır qurasan. Bunun haqqını da hamı həvəslə ödəyir. Bütün bunlar aqroturizmin müxtəlif sahələridir. Aqroturizmin əsas mahiyyəti aktiv təsərrüfat sahələrinə, fermalara və kənd təsərrüfatının digər sahələrinə səyahətlərdir. Bu, əslində, təəccüblü bir yenilik deyil. Məsələn, ABŞ-da artıq 1800-cü illərdən aqroturizmin müxtəlif elementlərinə rast gəlmək mümkün idi.

Azərbaycanda da insanların şüuru dəyişir, bölgələrə istirahətə gedənlərin sayı ildən-ilə artır. Mənzərəli yerlərə - dağlara, şəlalələrə, çay kənarlarına getmək istəyənlərin sayı kifayət qədərdir. Bu sahədə xidmət də genişlənməkdədir. Aqroturizmin bir üstünlüyü də ondan ibarətdir ki, kəndli yetişdirdiyi məhsulları turistlərə birbaşa satmaqla və müəyyən xidmət göstərməklə regionun gəlirlərini artırır, özünün dolanışığını da nəzərəçarpacaq dərəcədə yaxşılaşdırır. Aqroturizm Avstraliya, Kanada, ABŞ və Filippin də daxil olmaqla, dünyanın bir çox yerlərində turizmin özünü təsdiq edən qollarından biridir.

Bu baxımdan Azərbaycan da geniş imkanlara malikdir.

***Bahadur İMANQULİYEV, “Azərbaycan”***

**Yaşadığımız dövr müxtəlif proseslərlə çox rəngarəng, tez-tez dəyişən tarixi hadisələrlə zəngin olduğundan yaddaşıma əbədi yazılır, unudulmaz anlara çevrilir. Mən həyatda həm çox çətinliklərin, məhrumiyyətlərin, həm də uğurların şahidi olmuşam. Bununla belə, həmişə xalqımı xoşbəxt görmək arzusu ilə yaşamışam. Böyük Allah gözəl günləri, qalibiyyətli günləri bizə nəsib edibdir.**



# Azərbaycan veteranları mənəvi borclarını uğurla yerinə yetirirlər

Həyatımın ən gənc vaxtlarında, bəşəriyyət tarixinin çox dəhşətli və ən böyük müharibələrindən olan İkinci Dünya müharibəsində ilk gündən könüllü olaraq cəbhəyə yollanmış, Berlinə qədər uzun və məşəqqətli döyüş yolu keçmişəm. Lakin sınmamışam, əyilməmişəm və sabaha həmişə böyük ümidlərlə baxmışam. Artıq ömrümün elə bir mərhələsindəyəm ki, bu yaxın vaxtlarda baş vermiş mühüm bir hadisənin hələ də təəssüratı altında, romantik və unudulmaz duyğular içərisindəyəm.

Bu ilin əvvəlində, Prezident, Ali Baş Komandan cənab İlham Əliyev işinin son dərəcə gərgin və çox olmasına baxmayaraq, şəxsən vaxt tapıb məni özü qəbul etmiş, anadan olmağımın yüz illiyi münasibətilə ürəkdən təbrik etmiş və "İstiqlal" ordeninə layiq bilmişdir. Əlbəttə, bu böyük bir şərəfdir və həyatımın ən unudulmaz günlərindən biridir. Cənab Prezidentə dərin təşəkkür etsəm də, fəqət izhar etdiyim sözlərim, minnətdarlığım, bu böyük diqqətin, qayğının, hörmətin qarşılığında məni o qədər də razı sala bilməz, mən özümü xalqıma, dövlətimə, Prezidentimə borclu bilirəm.

Əslində, gərgin qrafiklə işlədiyi bir dövrdə, ölkəmizin Prezidentinin vaxt tapıb məni şəxsən təbrik etməsi, sayı milyonu keçmiş veteran ordusuna olan böyük qayğının və diqqətin bariz təcəssümü idi. Mən veteranlarımıza cənab Prezidentin qayğısı və diqqəti barədə vaxtaşırı olaraq məlumat verməkdən məmnun oluram, qürur duyuram.

Hələ 2015-ci ildə Prezident İlham Əliyev və Mehriban Əliyeva Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına şəxsən gələrək bizə ayırdığı yeni binanın açılışını etmiş və fəaliyyətimizə xeyr-dua verərək demişdi: "Mən çox şadam ki, bu gün birlikdəyik, tarixi qələbəni qeyd edirik. İstəyirəm biləsiniz ki, mən veteranlara bundan sonra da daha böyük qayğı ilə yanaşacağam. Sizin böyük xidmətləriniz olubdur, böyük yol keçmisiniz. Azərbaycana, dövlətçiliyin inkişafına dəyərli töhfələr vermisiniz. Hər bir vətəndaş, hər bir insan, xüsusilə vəzifəli şəxslər sizlərə böyük diqqət və qayğı göstərməlidir".

Tarixə ekskurs etsək, ölkəmizdə "Veteran hərəkatı"nın salnaməsinin şərəfli səhifələrlə zəngin olduğunun şahidi olarıq. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev müstəqilliyin ilk illərində yazırdı: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər... Veteranlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur".

Tarixi qələbəmizi dərindən düşünüb kompleks təhlil edərkən, əlbəttə, daha çox veteranlar və veteran hərəkatı yada düşür. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi və ya "Dəmir yumruq" adlanan əməliyyat məhz Ali Baş Komandanımız, cənab İlham Əliyevin öz ordusuna, Silahlı Qüvvələrinə, veteranlarına verdiyi tarixi qiymətin və dəyərin haqlı olduğunu tam təsdiq etdi. Şəxsən onun rəhbərliyi və çağırışı ilə başlanan xilaskarlıq missiyası 44 gün davam edərək erməni faşizminin otuz ildən çox əsarətdə saxladığı tarixi torpaqlarımızın - Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Laçının, Ağdamın, Kəlbəcərin və başqa ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələndi.

Dünya hərb tarixi elminə qızıl hərflərlə yazılmış "Dəmir yumruq" əməliyyatı tariximizin ən şərəfli və unudulmaz səhifələrinə çevrilmişdir. "Harop" pilotsuz aparatlarından, zərbə dronlarından, Bayraktar-TB2 pilotsuz təyyarələrindən böyük məharətlə istifadə edən ordumuz düşmənin milyardlarla dollar dəyərində olan hərbi texnikasını məhv etdi. Azərbaycan Ordusunun unikal, fərdi, taktiki və texniki manevrləri, uçuşları tarixi qələbəni təmin etdi, inanılmaz uğurlar qazanıldı. Xüsusilə, tarixi şəhərimiz olan Şuşanın erməni faşistlərindən qəhrəmanlıqla azad edilməsi taktikası dünya hərb tarixinə möhtəşəm qəhrəmanlıq səhifəsi kimi daxil oldu. Dronların düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələr endirməsi, artilleriya atəşlərini korreksiya etməsi və ən yüksək kəşfiyyat aparmaq keyfiyyətlərinə sahib olması Azərbaycan Ordusunun yüksək texnoloji üstünlüyə sahib olduğunu tam təsdiqlədi. Azərbaycan Ordusunun sahib olduğu "sehrli texnologiya" onun real qələbəsini təmin edən əsas amil olsa da, əsgərlərimizin və zabitlərimizin fədakarlığı və qəhrəmanlığı təkrarsız idi.

Qeyd etdiyim kimi, Azərbaycanın veteranlar hərəkatı çox böyük tarixi yol keçmiş, Vətən müharibəsindəki qələbəmizin ideoloji əsasında dayanmışdır. İndi bəzilərinin "qazi" kimi işlətdiyi "veteran" sözü öz etimaloji mənbəyini qədim Romanın hərb tarixindən götürsə də, onun öz üstünlükləri və keyfiyyət göstəriciləri milli qürur yerimizə çevrilmişdir. "Qocaman əsgər", "təcrübəli döyüşçü" və s. bu kimi mənaları ifadə edən "veteranus" sözü, latınca "qoca" mənasını ifadə edir. Qədim Romanın müharibə tarixində hərbi xidmətini başa vurmuş döyüşçülərə "veteran" adı verilməklə, bu söz həm də böyük səfərbəredici mahiyyət daşımışdır.

Hələ Rusiya imperiyasının tərkibində olduğu dövrdə xüsusi döyüşkənliyi, cəsarəti, mərdliyi və sədaqəti ilə fərqlənmələrinə baxmayaraq, azərbaycanlıların hərbi xidmətə çağrılması, hərbi məktəblərdə oxuması faktiki olaraq məhdudlaşdırılmışdı (bu işdə ermənilərin də rolu olmuşdur). Azərbaycan tarixində Səməd bəy Mehmandarov, "Rus artilleriyasının Allahı" kimi şərəfli ad qazanmış Əliağa Şıxlinski, general Hüseyn xan Naxçıvanski, Əbülfət ağa Şaxtaxtınski, Kəlbəli xan Naxçıvanski, Xosrov bəy Sultanov, İbrahim ağa Vəkilov, Həbib bəy Səlimov, İbrahim ağa Usubov, Hüseyn xan Naxçıvanski, Mirkazım bəy Talışxanov, Firudun bəy Vəzirov, Qalib bəy Vəkilov, Daniyel bəy Hələcov, Əliyar bəy Haşımbəyov, Süleyman bəy Əfəndiyev, Teymur bəy Novruzov, Əmir Kazım Mirzə Qacar, Feyzulla Mirzə Qacar, Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Murad Tlexas, Məmməd Sadıq bəy Ağabəyzadə, Məhəmməd bəy Sulkeviç, Əmənulla Mirzə Qacar və digərləri öz qələbə uğurları ilə tarixə düşmüşlər. Təsadüfi deyil ki, Azərbaycanda Novruzovlar nəslindən üç, Qacarlar nəslindən yeddi, Yadigarovlar nəslindən dörd, Cavanşirlər nəslindən dörd, Talışxanovlar nəslindən beş, Şıxlınskilər nəslindən üç, Kəngərlinskilər nəslindən beş, Bakıxanovlar nəslindən üç hərbi sərkərdə - general yetişmişdir. Birinci Dünya müharibəsində 81 saylı Abşeron alayı, 82 saylı Dağıstan alayı, 83 saylı Samur alayı, 84 saylı Şirvan alayı, 205 saylı Şamaxı alayı, 206 saylı Salyan alayı Rusiya tərəfindən vuruşmuş və qarşıya qoyulan vəzifələri fədakarlıqla yerinə yetirmişdir.

1918-ci ildə xalqımız dövlət müstəqilliyinə nail olduqdan və Xalq Cümhuriyyəti qurulduqdan sonra Rusiya ordusunda xidmət edən 21 general Bakıya gələrək yeni yaradılmış Xalq Cümhuriyyəti ordusunda xidmət etmək arzularını bildirmişdilər. Erməni-daşnak terroru nəticəsində ordumuzda xidmət edən 12 general, 27 polkovnik, 46 kapitan, 148 praporşik, 260 nəfər digər rütbəli hərbi qulluqçularımız qətlə yetirilmişlər. Onların sırasında general-mayorlar Həbib bəy Səlimov, Əmir Kazım Mirzə Qacar, İbrahim Ağa Usubov, Əbdülhəmid bəy Qaytabaşı, Murad Gəray bəy oğlu Tleyxas, Əliyar bəy Haşımbəyov, general-leytenant Məmməd bəy Sulkeviç kimi qüdrətli sərkərdələr xüsusilə qeyd edilməlidir.

Azərbaycan hərb tarixinin növbəti şərəfli səhifələri II Dünya Müharibəsi illərinə təsadüf edir. SSRİ-nin tarixi qələbəsinin təmin edilməsində Azərbaycanın Bakı neftinin misilsiz rolu olsa da, bununla yanaşı döyüşçülərimiz və sərkərdələrimiz də ata-babalarının qəhrəmanlıqlarını təkrarlamaqla böyük xidmətləri var.

Sovet İttifaqının tərkibində olduğu dövrdə ölkəmizdə azərbaycanlı hərbçi kadrların yetişdirilməsi sahəsində uğurlu addımlar atılmışdır. Məhz Ulu Öndər Heydər Əliyevin qətiyyəti ilə, hələ 1971-ci ildə, Bakıda C.Naxçıvanski adına ixtisaslaşmış hərbi lisey yaradılmışdır. Ulu Öndərin bu böyük və tarixi xidmətlərindən biri də gələcəkdə müstəqillik əldə edəcək Azərbaycanın Ordusunun kadr ehtiyaclarını ödəməyə hesablanmış və bu istiqamətdə böyük uzaqgörənliklə həyata keçirilən tədbirlər idi.

Veteran hərəkatı isə bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da daim diqqətdə saxlanılmış və zaman-zaman inkişaf etdirilmişdir. 3 iyun 1956-cı ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi böyük rəşadətlər və igidliklər göstərərək, nəinki SSRİ-ni, habelə bütün Avropanı faşizmdən xilas etmiş müharibə veteranlarını bir təşkilatda birləşdirmək təşəbbüsü ilə çıxış etdi. Buna görə də 29 sentyabr 1956-cı ildə "Sovet Müharibə Veteranları Komitəsi" təsis edildi. Sonradan digər veteranların da (əmək veteranı və s.) həmin təşkilatda birləşməsi təmin edildi, müttəfiq respublikalarda onun nümayəndəlikləri təsis olundu. Buna görə də illər keçdikcə Veteran hərəkatı daha böyük vüsət aldı, genişləndi və yeni-yeni səhifələrlə zənginləşdi.

Xüsusilə faşizm üzərində qələbənin iyirmiillik yubileyinin keçirilməsi münasibətilə veteranlara və veteran təşkilatlarına göstərilən diqqət sonra daha da inkişaf etdirildi. Gənclər bütün ittifaq miqyasında tarixi yürüşlər keçirir və ölkənin inkişafında fəallıq göstərirdilər. Bu yürüşlər içərisində "Brest qalasına tarixi yürüşü" xüsusi olaraq qeyd etmək istəyirəm. Tarixçilər qeyd edirlər ki, "Brestin məşhur meydanında, bütün ölkə veteranları adından qalanın tarixi müdafiəçiləri, yürüş iştirakçıları olan gənclərə, simvolik olaraq qəhrəman qalanın açarını təqdim etdilər. "Brest qalasının mövcud olduğu bütün tarixi dövr ərzində, ilk dəfə olaraq onun müdafiəçiləri, bu əfsanəvi darvazanın açarını gənclərə etibar etdilər". Qəhrəman Brest qalasının tarixi açarını SSRİ gənclərinin nümayəndəsi, gənc toxucu Valentina Kondratiyevaya Azərbaycan məktəblisi İlham Əliyev (hazırkı Prezidentimiz) təqdim etmişdi.

Fikrimcə, bu gün ölkə Prezidenti, cənab İlham Əliyevin Azərbaycan veteranlarına göstərdiyi xüsusi diqqət məhz həmin dövrdən başlanmışdır.

İttifaq miqyasında geniş vüsət almış Veteran hərəkatı 21 mart 1987-ci ildə Azərbaycanda yeni bir təşkilatın təsis edilməsi ilə nəticələndi. Bu baxımdan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyətə başlamasının 35 ili tamam olur.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı, ölkəmizdə Veteran hərəkatının da yeni inkişaf mərhələsinə keçidinə səbəb oldu. Veteranlara və veteran təşkilatlarına lazımi şərait yaradıldı.

Bu istiqamətdə mühüm hadisələrdən biri 1994-cü ildə ölkə tarixində ilk dəfə olaraq "Veteranlar haqqında" Qanunun qəbul edilməsi oldu. Həmin qanun Heydər Əliyev tərəfindən Milli Məclisə təqdim edilmişdi. Bu qanunda veteranlara dair dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmiş, müharibə veteranlarının, Silahlı Qüvvələr veteranlarının, Əmək veteranlarının statusu, onların pensiya təminatı, istehsal fəaliyyəti, mənzil-məişət şəraiti, dərman və müalicə vasitələri ilə təminatı, onlar üçün nəzərdə tutulan əlavə güzəştləri, veteranların sosial və tibbi müdafiəsi, digər zəruri və vacib məsələlər ilk dəfə olaraq hüquqi baxımdan mükəmməl tənzimləndi. Qanunun 21-ci maddəsində göstərilirdi ki, veteranların sosial müdafiəsi tədbirlərini müvafiq icra hakimiyyəti orqanları planlaşdırır və veteranların sosial müdafiəsi proqramları dövlət büdcəsinin, Azərbaycan Respublikası Sosial Müdafiə Fondunun vəsaiti hesabına maliyyələşdirilir. Bizim təşkilat da dövlət başçısının təsdiqlədiyi vəsait hesabına maliyyələşdirilir.

Ulu Öndər Heydər Əliyevin siyasi varisi, onun dövlətçilik və ideoloji kursunun şərəfli davamçısı, ölkə Prezidenti, qalib ordunun Ali Baş Komandanı İlham Əliyev veteranlara üzünü tutaraq demişdir: "Onlar xalqımızın fəxridirlər. Cəmiyyətin ən dəyərli insanlarıdır... Hər bir vəzifəli şəxs, sizə böyük diqqət və qayğı göstərməlidir. Mən bütün məmurlara tapşırmışam ki, sizin problemlərinizlə məşğul olsunlar ki, siz rahat yaşaya biləsiniz. Sizin buna haqqınız çatır... Çünki siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz... Biz sizinlə fəxr edirik. Gənc nəsil də sizinlə fəxr etməlidir. Gənc nəslimizin vətənpərvərlik uğrunda tərbiyə olunmasında, sizin kimi insanların rolu çox böyükdür".

Məhz cənab İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük diqqəti və qayğısı nəticəsində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı müasir ofislə, inventarlarla, nəqliyyat vasitələri ilə təmin edilmiş, bütün lazımi şərait yaradılmışdır.

Təvazökarlıqdan uzaq olsa da, qeyd etməyi vacib bilirəm ki, təşkilata rəhbərlik mənə etibar edildikdən sonra, onun fəaliyyətində köklü dəyişikliklər etməyə çalışmışam. İlk öncə hüquqi dövlət quruculuğu mərhələsində yeni nizamnaməmiz hazırlanmış, müvafiq qaydada qeydiyyatdan keçmiş, işlək mexanizm yaradılmış, kadr potensialı köklü sürətdə yaxşılaşdırılmışdır. 44 günlük Vətən müharibəsi dövründə veteranlarımız bütün cəbhəboyu əsgərlərimizin və zabitlərimizin yanında olmuş, onlara tövsiyələrini vermiş, öz təcrübələrindən istifadə edərək, döyüşçüləri qələbəyə ruhlandırmış, tarixi qələbənin qazanılmasına ciddi dəstək olmuşlar. Yaralı əsgərlərimizə, şəhid ailələrinə tez-tez baş çəkmiş, onların qayğı və problemlərinin həllinə kömək etmişlər.

Təşkilatımızın təşəbbüsü ilə İkinci Dünya müharibəsinin veteranları ilə Qarabağ müharibəsinin veteranları arasında "Nəsillərin görüşü" adlı tədbir keçirilmiş, "Zəfər bayramı" adlı tədbir isə yaddaqalan hadisəyə çevrilmişdir. İmkanlarımız daxilində ayrı-ayrı veteranlara maddi yardımlar göstərilmiş, bəzilərinə müasir əlil arabaları verilmiş, ərzaq məhsulları paylanmışdır. Veteranları maraqlandıran məsələlərə veteran.az saytında aydınlıq gətirilmişdir. Qarabağ müharibəsinin bir sıra veteranları təşkilatımızın nümayəndəli orqanlarına seçilmiş, təmsil olunmuş, onların müxtəlif problemlərinin həllinə kömək göstərilmişdir. Etiraf edim ki, ayrı-ayrı veteranlar üçün güzəştlərin və qayğıların artırılmasına qanunvericilik yolu ilə təşəbbüslər göstərilmiş, Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən onlara diqqət və qayğı artırılmışdır.

Ölkənin ictimai-siyasi həyatında baş verən hadisələr, yubileylər təşkilatımızda yüksək səviyyədə qeyd edilir, gənclərlə, ziyalılarla tez-tez görüşlər keçirilir. Fəaliyyətimizin zaman-zaman təkmilləşməsinə, rayon və şəhər təşkilatlarının rolunun artırılmasına, beynəlxalq əlaqələrin və əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetiririk. Ölkəmizin ictimai-siyasi və mədəni həyatında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rolu gündən-günə artır, onun fəaliyyəti daha da təkmilləşdirilir və bu təşkilatın sözün əsl mənasında, veteranların ümid yerinə çevrilir.

Qarşımızda isə hələ böyük vəzifələr dayanır. Biz daim ölkə Prezidentinin yanında olduğumuzu, onun daxili və xarici siyasətini ürəkdən bəyəndiyimizi qürurla qeyd etmiş, veteran kimi öz sözümüzə sadiq olmuşuq.

*Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis edilməsinin 35 illiyi Novruz bayramının keçirildiyi günlərə təsadüf edir. Mən də bu imkandan istifadə edərək ölkə Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevi, veteranların hamisi kimi sevilən Birinci vitse-prezident Mehriban Əliyevanı bu əziz bayram münasibətilə təbrik edirəm, onlara möhkəm cansağlığı, dövlətimizin və xalqımızın xoşbəxt gələcəyi naminə böyük uğurlar və qələbələr arzu edirəm. Bütün ölkə veteranları, hərbçilərimiz, ziyalılarımız Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında indi daha sıx birləşib.*

***Fatma SƏTTAROVA,***
***Azərbaycan Respublikası Müharibə, Əmək və Silhalı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyətinin sədri, Prezident təqaüdcüsü***

# Gəncədə "Azərbaycanın informasiya təhlükəsizliyi regional və sosial media müstəvisində" adlı işgüzar konfrans keçirilib



Baş Prokurorluğun təşkilatçılığı ilə Gəncə şəhər prokurorluğunun inzibati binasında "Azərbaycanın informasiya təhlükəsizliyi regional və sosial media müstəvisində" adlı işgüzar konfrans keçirilib.

Konfransda Baş Prokurorluq, Daxili İşlər, Ədliyyə, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, habelə Dövlət Təhlükəsizliyi Xidmətinin, Medianın İnkişafı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi agentliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mətbuat Şurasının nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Gəncə və Mingəçevir şəhər, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Xocalı, Kəlbəcər, Qazax, Şəmkir, Tovuz və Yevlax rayon prokurorluqlarının media ilə işləyən məsul əməkdaşlarının da olduğu konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər. Sonra Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkib, həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül düzüblər.

Tədbir çərçivəsində, həmçinin media qurumlarının çoxsaylı nümayəndələrinin də iştirakı ilə Gəncə şəhər prokurorluğunun inzibati binasına press-tur təşkil edilib. Prokurorluq orqanlarının infrastrukturunun yüksək dövlət qayğısı nəticəsində ən müasir tələblər səviyyəsində təkmilləşdirildiyi barədə məlumatlandırılan press-tur iştirakçıları inzibati binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə yerində tanış olublar. Gəncə şəhər prokuroru Azad Qarayev informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən işgüzar konfransın əhəmiyyətindən bəhs edib.

Tədbirdə çıxış edən Baş Prokurorun köməkçisi Saleh Hacıyev media ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyini vurğulayıb, zamanın tələbinə uyğun olaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində mühüm addımların atıldığını, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətli olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Prokurorluq orqanlarının sosial media siyasəti barədə ətraflı çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun sosial media platformalarında olan müraciət, sorğu və təkliflərə həssaslıqla yanaşıldığını qeyd edib, hazırkı vaxtadək prokurorluğun sosial media platformalarında olan 110-dan çox müraciətin qeydə alınaraq aidiyyəti üzrə göndərildiyi barədə məlumat verib.

Konfransda Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev informasiya təhlükəsizliyində konfidensiallığın təmin edilməsinin əhəmiyyətindən danışıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin məsul əməkdaşı Tamerlan Rəhimov sosial mediada informasiya təhlükəsizliyinin önəmindən söz açıb.

Tədbirdə, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin şöbə müdiri Kənan Kərimli ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin olunmasında medianın əvəzsiz rolu barədə çıxış edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin böyük məsləhətçisi Sevil Rəsulzadə qadın və uşaqların informasiya təhlükəsizliyində risklər və həll yolları barədə məlumat verib.

Mətbuat Şurasının icraçı katibi Şəmsəddin Əliyev şuranın fəaliyyəti ilə bağlı ətraflı danışıb, birgə əməkdaşlığın informasiya təhlükəsizliyinin təmin olunmasındakı perspektivlərindən bəhs edib.

Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin əməkdaşı Pərvanə İbrahimova sosial media və media savadlılığı barədə ətraflı çıxış edib.

Konfrans iştirakçıları sıx əməkdaşlıqdan məmnunluğunu bildirərək, gələcəkdə də "dəyirmi masa" və görüşlərin təşkilinin əhəmiyyətli olacağını vurğulayıblar.

Daha sonra dövlət qurumları ilə bölgə mediası arasında operativ və səmərəli kommunikasiyanın qurulması ilə bağlı fikir mübadiləsi aparılıb, iştirakçılar tərəfindən təkliflər səsləndirilməklə, bu məzmunlu tədbirlərin informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilib.

# 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisələrinə sənəd qəbulunda çağırışçılarla bağlı dəyişikliklər edilib

18 yaşı bu il mayın 1-dən sonra tamam olacaq əvvəlki ilin məzunları cari ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə müsabiqədə iştirak edə biləcəklər

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə (SHXÇDX) daxil olan çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq, təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri rəhbər tutulmaqla vətəndaşların təhsil almaq imkanlarının genişləndirilməsi məqsədilə 2022-2023-cü tədris ili üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə sənəd qəbulunda çağırışçılarla bağlı müəyyən dəyişikliklər edilib.

Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, 18 yaşı 2022-ci il mayın 1-dən sonra tamam olacaq əvvəlki ilin məzunlarına cari ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə müsabiqədə iştirak etmələri üçün imkan yaradılıb.

Ali məktəblərə sənəd qəbulu zamanı həmin kateqoriyadan olan vətəndaşların hərbi vəzifəsi ilə bağlı SHXÇDX-nin vahid elektron informasiya sisteminə heç bir sorğu edilmədən "Abituriyentin elektron ərizəsi" birbaşa təsdiq edilir.

# ANAMA: "Ötən həftə 86,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, martın 7-dən 12-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 7, tank əleyhinə 27 mina və 82 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 86,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# İlaxır çərşənbə

**_Xalqımız mifoloji düşüncədən qaynaqlanaraq su, od, hava və torpağı əsas yaranış ünsürləri olaraq qəbul etmiş, xaosdan həmin bu dörd ünsürün ayrılması hadisələrini rituallarla keçirmişdir. Bu ənənə müasir dönəmdə də "Novruz çərşənbələri" adı ilə yazın gəlişi ərəfəsində xüsusi ayin və mərasimlərdə yaşadılır. Novruz bayramının ən təntənəli mərasimləri axırıncı çərşənbədə keçirilir. Bu çərşənbə yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir. Torpaq çərşənbəsi hesab olunan sonuncu çərşənbə bayrama daha yaxın olduğu üçün insanlar tərəfindən xüsusi olaraq qeyd edilir. Bu çərşənbə xalq arasında "Yer çərşənbəsi", "İlaxır çərşənbə", "Çərşənbə-suri" adları ilə də tanınır._**



Torpaq həm türk mifologiyasından, həm də milli-mənəvi dəyərlərimizdən qaynaqlanaraq müqəddəs hesab olunur. Hələ qədim dövrlərdən bəri insanın ən böyük andı torpağa ünvanlanmışdır: "Torpaq haqqı", "Torpağı sanı yaşayasan". Torpaqla bağlı yaranan el sözləri də maraq doğurur. "Torpaqdan pay olmaz", "Torpaq deyir: "Səndən hərəkət, məndən bərəkət", "Torpaqla oynayan ac qalmaz" və s.

Türk mifologiyasına görə, yatmış torpaq oyanaraq insanları aclıqdan qurtarır. Bir rəvayətə görə, Xızır qardaşı, torpaq sahibi Zindanı donmuş halda, qar altından tapır, öz isti nəfəsilə qızdırır. Zinda qar altından çıxaraq itmiş öküzünü tapır, Xızır isə qızıl kotanla boyunduruğu qardaşına verir. Onlar çərşənbələşir, Yer çərşənbə bayramı tədbirilə torpağı oyatmağa çalışırlar.

*Səsləndi xoruz banı,*
*Açıldı sübhün danı,*
*İlin yaz fəsli gəldi,*
*Qızdı torpağın canı.*

Torpaq çərşənbəsi ilə əkinçilər işə başlayırlar. Yerlər şumlanır, toxumlar səpilir. İnanca görə, əcdadlarımız həmin çərşənbədə tarlaya çıxar, torpağı şumlayar, bunu edə bilməyənlər isə heç olmasa torpağı 2-3 dəfə belləyərdilər. Burada məqsəd torpağı yuxudan oyatmaq və artıq əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir. Qədimdən gələn digər bir adətə görə, axır çərşənbə günü qadınlar, qızlar çillələrini tökmək üçün çay üzərinə yollanır və sudan tullanarmışlar. Həmin gün axşam vaxtı tonqallar qalanır, hamı od ətrafına yığışaraq onun istisinə qızınmağa çalışırlar.

Torpaq çərşənbəsinin də özünəməxsus inancları, xüsusiyyətləri var. Torpaq çərşənbəsində insanlar öz qohumlarını yad edir, onlara qonaq getməyə başlayır, dünyalarını dəyişmiş insanların qəbirlərini ziyarətə gedirlər. Əcdadlarımız çərşənbə və bayram günlərində ruhların qayıdıb gəlməsinə inanmışlar. Ruhların şad olması üçün bu dünyaya qayıdarkən ev sakinlərini, əzizlərini şən əhvali-ruhiyyədə görməsi əsas şərtlərdən idi. İnanca görə, ruhun evdən-ocaqdan bikef qayıtması uğursuzluq əlamətiymiş. Hətta İlaxır çərşənbədə yandırılan şamlar ev sakinlərinin sayından bir ədəd çox qoyulur. Həmin əlavə şam ruhlar adına yandırılır.

Evin bərəkətli olması üçün əcdadlarımızın həyata keçirdiyi rituallardan biri axır çərşənbədə un çuvallarının ağzını açıq qoymaqdır. Ev sahibinin heç kimlə danışmadan əllərini una batıraraq divarlara sürtmək, bayıra çıxıb ağacların kötüyünü balta ilə yüngülcə vuraraq "oyan, payını götür" demək bu ayinin tərkib hissəsidir. Əcdadlarımız inanmışlar ki, bu cür edilərsə, yeni ildə qış yuxusundan oyanmış ağacların bəhəri gen-bol olacaqdır. Heç bar verməyən ağacları isə "kəsəcəyəm" deyə balta ilə hədələyir və bu zaman kənarda durmuş bir adam "kəsmə, bu ağac bar verəcək, zaminəm" deyir.

İlaxır çərşənbədə ağacla bağlı inanclardan biri heyva çubuğundan gözmuncuğu düzəldilməsidir. Hətta bu çərşənbədə uşaqlar üçün düzəldilən beşiyin də xeyirli olacağına inanarmışlar. Bu da türk düşüncəsindəki ağac kultu ilə bağlıdır. Türk düşüncəsi yaradılışdan bəhs edərkən ağacı bu hadisənin ana motivi kimi göstərir: Öncə yerdən doqquz budaqlı bir ağac yüksəltmiş, sonra hər budağın altında bugünkü insanlığın ilk atalarından birini yaradaraq bu doqquz insana ağac kölgəsində yaşamaq imkanı vermişdir. Bu düşüncədən irəli gələrək zamanla ağac müqəddəsləşdirilmiş, qoruyucu motiv də qazanmışdır.

Axır çərşənbə çoxsaylı və sınanmış falları ilə əlamətdardır. Axır çərşənbə süfrəsindəki yeyilən balığın sümüyü ilə ilk övladın qız və ya oğlan olmasını, üzük ilə subayların evlənmə vaxtını təyin etmək fal inanclarındandır. İlaxır çərşənbədə bir yerə yumurta, kömür, cövhər basdırar və niyyət edərlərmişlər. Yumurta kömür ilə yazılarsa, niyyətin baş tutacağına inanırmışlar.

İlaxır çərşənbənin ən maraqlı adətlərindən biri "Qurşaqatma"dır. Sonradan bu ənənənin adı "Papaqatdı" ilə əvəzlənmişdir. Uşaqlar Novruz payı toplamaq məqsədilə evlərə şal sallamışlar. Müasir dövrdə isə bu ənənəni papaq ataraq həyata keçirirlər. Qədim dövrlərdə hətta oğlanlar sevdiyi qızlara sevgilərini etiraf etmək üçün bacadan şal sallayar, bununla da qızların onlara meyli olub-olmadığını öyrənərmişlər: ucuna balaca dəsmal bağlanmış şal bacadan sallanar, evin böyükləri yaylığı açıb şalı qızın qoluna bağlayarlarsa, bu, razılıq əlaməti demək idi. Əgər razı deyillərsə, həmin dəsmala şirniyyat qoyub onu geri qaytararlarmış.

İlaxır çərşənbədə subay qızlar bir çox fallara baxar, qismətlərinin necə, həyat yoldaşlarının kim olacağını, neçə yaşında ərə gedəcəklərini öyrənərlər. Bu fallar su, şam, üzük, iynə və başqa əşyalarla icra olunur. Məsələn, gənc qızlar su dolu stəkana sapa və ya saça bağlanmış üzüyü üç dəfə salıb-çıxarır. Üzük neçə dəfə stəkanın qırağına dəyərsə, qızın o yaşda ailə quracağına inanırlar. Digər bir fala görə, qız yanan şamı suya tərəf əyir və neçə yaşı varsa, o qədər damcıladır. Alınacaq hərf gələcək həyat yoldaşının adının baş hərfi ilə eyniləşdirilir. İnanca görə, gənc qızlar duzlu kökə yeyib və ya on alma toxumunu başının altına qoyub qismətlərindəki gələcək həyat yoldaşını yuxuda görürlər. Axır çərşənbə axşamı qız ayağının sağ başmağını burub qapı ağzında başının üstündən atır. Başmağın pəncə hissəsi üzüstə, qapıya tərəf düşsə, həmin il o qızın nişanlanacağına işarədir.

İlaxır çərşənbədə küsülülər barışmalı, hamı təzə paltar geyməli, xoş sözlər danışmalıdır. Bu çərşənbədə niyyət tutub qulaq falına çıxır, eşitdikləri sözlə niyyətlərini yozurlar.

Torpaq çərşənbəsində süfrələr daha da təmtəraqla bəzədilir. Bəzi bölgələrdə aşla bərabər, dolma, balıq bişirilməsi də vacib hesab olunur. Süfrəyə səməni, şamlar, şirniyyatlar, qoz-fındıq, bir çox çərəzlər, qovurğa (qorğa) qoyulur. Çərşənbə, bayram xonçalarına qoyulan şirniyyatların da rəmzi mənaları var. Süfrəyə qoyulan qoğalı Günəşin, istiliyin, şəkərburanı Hilalın - Ayın, paxlava isə ulduzun yerdəki rəmzi kimi götürülür. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şən keçməsini mənalandırır.

Rəngli yumurtalar Novruzun əsas atributlarındandır. Dörd ünsürü özündə cəmləyən yumurta, əsasən, soğan qabığı ilə rənglənərək süfrələri bəzəmişdir. Yumurtanın qabığı torpağı, pərdəsi havanı, ağı suyu, sarısı odu rəmzləşdirir. Rəngli yumurtalar torpağın canlanmasına işarədir. "Yumurta döyüşdürməsi" qışla yazın, soyuqla istinin mübarizəsini ehtiva edir. Bu oyunda sınan yumurta məğlubiyyəti göstərir. Məğlub olanlar sınan yumurtaları qalib gələnə verirlər.

Süfrədəki qırmızı qurşaqlı səməni isə öz yaşıl görkəmi ilə daha çox diqqət çəkir. Qurşağın qırmızı rəngdə olması şadlığı simvolizə edir. Göyərdilmiş səməni yaradılışı və qadın başlanğıcını ifadə edir. Belindəki qırmızı qurşaqla səməni gəlini də xatırladır. Səməni ilə bağlı xalq arasında ovsun da var. İnsanlar səməni ovsunu ilə pis taleyi dəyişdirmək istəyər, buna sidqi-ürəkdən inanmışlar.

Səməni ovsununda oğul-qız sahibi olmuş qadın göyərdilmiş səməni İlaxır çərşənbə günü uşağı olmayan, çilləyə düşmüş sayılan qadının başı üstə saxlayır. O, bulaqdan, çaydan gətirilmiş "çərşənbə suyu"ndan bu səməninin üstündən çilləli qadının üstünə axıdır. Övlad sahibi olan başqa bir qadın çillələnin üstünə axıdılan bu suyu qayçı ilə doğraya-doğraya deyir:

*Arpa, buğda dənidi,*
*Göyərən səmənidi,*
*Kəsdim, gəlin, çilləni,*
*Övlad vermək dəmidi.*

Səməni nəziri adəti də bu günə kimi nəsildən-nəslə ötürülmüşdür. Qəlbində bir niyyəti olan adam qablara buğda töküb göyərtdirir, cücərtiləri əzib şirəsini çıxarır, şirəyə bir az su əlavə edib, iki-üç gün qaynadır, qoz-fındıq ləpəsi qatır, xonça sinilərinə töküb yayır. Bu xonçaları həyətdə qoyur, bütün gecəni dua edirlər. Səhər həmin bişmişin dadına baxırlar. Əgər bu bişmiş şirin olursa, bu niyyətin qəbul olunduğu anlamına gəlir. Səmənidən halvanı da bu ayindəki kimi düzəldirlər.

İlaxır çərşənbə ilə bağlı adət-ənənələr nəsildən-nəslə ötürüldükcə müxtəlif variantlara salınmış, bəziləri unudulmuş, bəziləri isə yeni şəkil almış, müasir dövrün tələblərinə uyğun dəyişmiş, əski düşüncədəki mahiyyətindən uzaqlaşmışdır.

***Səhər ORUCOVA,***
***BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***

# Novruz bayramı bədii əsərlərdə

**Azərbaycan xalqının tarixində, mədəniyyətində, məişətində, adət-ənənələrində Novruz bayramının özünəməxsus yeri var. Bu bayram qədim məmləkətimizin bütün guşələrində təmtəraqla qeyd olunur. Ancaq bölgələrimizin Novruz təntənəsində həm oxşarlıqlar, həm də fərqli cəhətlər diqqəti cəlb edir. Bu da baharın gəlişinin müjdəsini verən Novruz adət-ənənələrimizə zənginlik gətirir. Milli bayramımızın bu gözəllikləri, zənginlikləri yazıçıların, şairlərin də diqqətindən kənarda qalmayıb.**

Novruz adət-ənənələrinin, mərasimlərinin ədəbiyyatımızın klassiklərinin yaradıcılığında əksini tapdığını qeyd edən ədəbiyyatşünas F.F.Qasımzadə Xaqani Şirvaninin şeirləri, Nizami Gəncəvinin "İsgəndərnamə", "Leyli və Məcnun", "Xosrov və Şirin" poemaları, Qazi Bürhanəddinin qəzəlləri, Kişvərinin yaradıcılığı, Məhəmməd Füzulinin, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin əsərləri, Mikayıl Müşfiqin "Bayram axşamı" şeiri, Hüseyn Cavidin və başqa görkəmli şair və yazıçılarımızın əsərlərindən misallar gətirib. Onu da diqqətə çatdırıb ki, XI əsr Azərbaycan şairi Qətran Təbrizi "Divan"ında, Orta əsr şairlərimizdən Sururi, Şahin, Həqiri də öz yaradıcılıqlarında, Mirzə Fətəli Axundzadə "Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah - caduguni-məşhur", "Sərgüzəşti-vəziri-xani Lənkəran" əsərlərində Novruz bayramından söz açıblar.

Ədəbiyyatımızın sonrakı dövrlərində qələmə alınmış bir sıra əsərlərdə də Novruz bayramı əhvali-ruhiyyəsi əksini tapıb, bayramda keçirilən mərasimlər təsvir edilib. Əsasən, qəmli, hüznlü şeirləri ilə tanınan Molla Vəli Vidadi belə bu mövzudan şən ovqatla söz açıb:

*Novruzi-bahar oldu, cahan tazətər oldu,*
*Rəf oldu ələmlər.*
*Dağıldı bu şadlıq xəbəri dərbədər oldu*
*Yandı oda qəmlər.*

Sovet dövrü Azərbaycan ədəbiyyatında da bir sıra əsərlərdə Novruz bayramına, adət-ənənəsinə müəyyən yer verilib. Onlardan biri şair Səməd Vurğunun "Komsomol" poemasıdır. Novruzla bağlı məqamlar bu poemada əksini tapıb.

Yazıçı İsmayıl Şıxlının 1957-1967-ci illərdə yazdığı məşhur "Dəli Kür" romanında XX əsrin əvvəllərində kiçik bir Azərbaycan kəndində - Göytəpədə baş verən hadisələrin fonunda xalqımızın odövrkü yaşam tərzi, məişəti ilə tanış oluruq. Həmin dövrdə Novruzun necə qeyd olunduğu barədə bu tarixi romanda yazılanlar olduqca maraqlıdır: "Novruz bayramı idi. Kənd uşaqları səbirsizliklə axşamın düşməsini gözləyir, tez-tez xırman yerinə topladıqları ota baxırdılar. Onlar qucaq-qucaq küləş, saman gətirib otun üstünə atırdılar. Bundan başqa, əllərinə keçən quru çırpıları, odun qırıntılarını da buraya atırdılar. Onlar şər qarışan kimi tonqal yandıracaqdılar... Qızlar sakit oturmurdular. Özlərinə təzə paltar tikir, axşama qədər hazır edib geyməyə çalışırdılar. Gəlinlər yumurta boyayır, arvadlar tez-tez düyü arıtlayan qızlara göz yetirirdilər. Səmənilər süfrələrə düzülürdü. Hamı bayrama hazırlaşırdı. Varlı da, kasıb da çalışırdı ki, bu axşam süfrəsi boş qalmasın. Aylarla yığdıqlarını bir gecə üçün xərcləyənlər də var idi".

Yazıçı Əzizə Cəfərzadə XIX əsrdə yaşamış Azərbaycanın görkəmli şairi Seyid Əzim Şirvaniyə həsr etdiyi "Aləmdə səsim var mənim" əsərində xalqımızın toy və yas mərasimləri, şeir məclisi - "Beytüs-səfa", çillə çıxarmaq, orucluq bayramı adətləri, müsəlla, qaravəlli, Novruz-İlaxır çərşənbə adətləri, ümumi ibadət və digər mərasimləri təsvir edib.

Hər bir azərbaycanlının uşaqlıq xatirələrində çərşənbə və Novruz bayramlarının silinməz izləri olur. Əksəriyyətimiz illər ötsə də, o bayramları xoş duyğularla, xiffətlə yada salırıq. Cənubi Azərbaycandan olan şair Məhəmmədhüseyn Şəhriyarın məşhur "Heydərbabaya salam" poemasında bu hisslər böyük səmimiyyətlə ifadə olunub:

*Qızlar deyər: "Atıl-matıl, çərşənbə,*
*Ayna təkin bəxtim açıl, çərşənbə".*
*Yumurtanı göyçək, güllü boyardıq,*
*Çaqqışdırıb sınanları soyardıq,*
*Oynamaqdan bircə məgər doyardıq?*
*Əli mənə yaşıl aşıq verərdi,*
*İrza mənə növruzgülü dərərdi.*

Şair poemada şirin bir dillə Novruz mərasimlərini, adət-ənənələrini təsvir edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Xalq oyunları: «Kilimarası» və «Maraloyunu»

## Minilliklər boyu yaşadılan meydan tamaşaları daha çox Novruz bayramı günlərində nümayiş etdirilir

Novruz bayramında xalq arasında çox qədimdən yaranan "Motal-motal", "Qurdbasdı", "Çövkən", "Cızıq turnası", "Gizlənpaç", "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qozu", "Pul-pula", "Zorxana", "Sino", "Mil", "Qəpəq", "Fincan-fincan", "Bənövşə", "Dirədöymə", "Çalabaşı", "Yelləncək", "Maraloyunu", "Kilimarası" və s. oyunlarını həm uşaqlar, həm də böyüklər həvəslə ifa edərdilər.





"Kosa-kosa", "Kəndirbaz", "Sim pəhləvan", "Masqara", "Gözübağlıca", "Cıdır" tamaşaları, qələncə oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq və s. kütləvi əyləncəli milli oyunları xalqımız heç vaxt unutmayıb. Sadaladığımız xalq oyunları zaman-zaman yol keçərək bu günümüzədək gəlib çatıb.

Novruz bayramında, həmçinin güləş yarışları təşkil edilir, meydanlarda yallılar oynanılır, kəndirbazların tamaşaları göstərilir, mahnılar oxunur və aşıqlar deyişirlər...

Bütün bunlar xalqımızın Novruzla bağlı düşüncə və yaddaşlarında yaşayanlardandır. Yadellilər xalqımızın nəinki təbii, onun milli-mənəvi sərvətlərinə də qənim kəsilməyi unutmayıb. Zaman-zaman bu yerlər təbii sərvətinin bolluğuna görə təcavüzkarların, işğalçı və qəsbkarların hücumlarına, talanlarına məruz qalıb. Ötən əsrin 90-cı illərində də bu ağrı-acılar yenidən yaşandı. Qarabağın aranlı-dağlı Oğuz ellərinə erməni qəsbkarları, qəddar və amansız vandallar qəfil hücum etdi. O zamanlardan Novruz bayramı gələndə diləklər də dəyişmişdi, arzular da. O arzular ümid və inam donlu olduqları üçün solmadı, əksinə, hər ilin baharında günəşə boylanan pəşəməngülü, Novruzgülü, bənövşə kimi cücərdilər...

Novruz tonqalları 30 ilə yaxın idi ki, aranlı-dağlı Qarabağımızda, dağların zirvəsində qalanmırdı. Çünki Şuşa qalası, İsa bulağı, Kirs, Qırxqız, Dəlidağ, Gəlin qayası, Ceyran bulağı, Laçın yaylaqlarında oyanış, dirçəliş yox idi. Erməni vandalları o yerlərin təkcə təbiətinə deyil, tarixinə, ədəbiyyatına, folkloruna, xalqın adət-ənənəsində yaşayan qədim mərasim oyunlarına da qənim kəsilmişdi. 1993-cü ilin mart ayı kəlbəcərlilərin isə bayram kimi deyil, faciə, müsibətli günlərlə yaddaşlarına yazılmışdı. Onlar hər yeni gələn Novruzdan dilək diləyirdilər ki, növbəti bayramı dağlarda qarşılasınlar. Uzun illər "Maraloyunu" və "Kilimarası" folklor ansamblının ifaçısı olmuş, Birinci və İkinci Beynəlxalq Folklor festivallarının laureatı Süleyman Mehralıoğlu söyləyir ki, vaxtilə "Bahar bayramı - yaz bayramı" kimi keçirilən respublika miqyaslı tədbirlərin iştirakçısı olub: "İçərişəhərin Novruz şənliklərində diqqətçəkən konsert proqramlarından biri də "Maraloyunu" və "Kilimarası" folklor ansambllarının təqdim etdiyi nömrələrdir. Novruz şənliyinə qatılan bu folklor ansamblının çıxışları əcnəbi qonaqların da marağını çəkir. Milli teatrın əsasını təşkil edən belə meydan tamaşaları özündə xalqımızın qədim mədəniyyətə və incəsənətə malik olduğunu əks etdirir. Deməli, Novruz bayramı həm də milli-mənəvi dəyərlərimizə xalq məhəbbətinin tərənnümüdür".

"Maraloyunu" ilə "Kilimarası" folklor oyunlarının günümüzədək gəlib çıxması, Kəlbəcərdə dünyaya göz açmış Mehralı babanın adı ilə bağlıdır. El ağsaqqalından da öncə bu xalq oyunlarının mahir ifaçıları var imiş. "Kitabi-Dədə Qorqud" dastanlarında adıçəkilən hər iki xalq oyununun nəsil-şəcərə davamçıları - Süleyman Süleymanov və qardaşı Şəfaqət Süleymanov, eləcə də onların övladları sevə-sevə yaşatmaqdadırlar.

Bu qədim xalq oyunlarını sonralar Rövşən Vəlioğlu da öz məharət və qabiliyyəti ilə nəinki respublika miqyaslı, həmçinin beynəlxalq və dünya əhəmiyyətli festivallarda nümayiş etdirib, yüksək mükafatlara və diplomlara layiq görülüb. "Maraloyunu"nun əfsanə əsasında yaranması barədə R.Vəlioğlu fikirlərini belə ifadə edir: "Zurnaçılar dəstəsi qara zurnada elə ifa edirlər ki, maral ayaq saxlayıb bu həzin musiqini dinləməkdən doymur. Boylana-boylana qalan maralın hərəkətləri onun oynadığını göstərir. Maral yerə yataraq başını o yan-bu yana əyməklə sanki nazlanır və musiqinin ritmi ilə səsin haradan gəlməsini axtarır. Bu oyunu nümayiş etdirmək üçün maral dərisi geyinmiş (əlbəttə, maralın dərisi məxmər parçadan hazırlanır) oyunçudan məharət tələb olunur. O, dizləri üstə iməkləməli, əlləri ilə maralın baş-boyun hissəsini oynatmalıdır".

"Kilimarası" isə bundan bir qədər fərqli oyundur", - deyə o, fikirlərini bir qədər də ətraflı şərh edir: "Oyun kollektiv şəklində ifa edilir. Bu, zurnaçılar dəstəsinin ifası altında bir aktyorun gəlincik oyununun nümayişidir. İki nəfərin diz üstə oturaraq tutduğu kilimin arxasında aktyorun yerə uzanaraq məzhəkə çıxarmasıdır. Gəlinciklərdən biri kişi, o birisi isə qadındır. Xalq havalarının birinə oynayan gəlinciklər milli rəqsləri məharətlə ifa etməlidirlər ki, bu da kilimin arxasındakı aktyorun ayaq və əl barmaqlarını necə oynatmaq ustalığından asılıdır. Burada milli kolorit əsas götürülür".

2020-ci ilin payızında Qarabağda yenidən günəş doğdu: Qələbə soraqlı, Zəfər bayraqlı... İşğaldan azad edilən Şuşamızda ilk Novruz tonqalını ötən il qalayan Müzəffər Ali Baş Komandan İlham Əliyev dağlara yenidən bahar və bayram əhvali-ruhiyyəli günləri qaytardı...

***Məhəmməd NƏRİMANOĞLU,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Yevlaxda azyaşlı uşaqlar üçün hazırlanmış "Bizim böyük Qələbəmiz" kitabının təqdimatı keçirilib





**Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyi tərəfindən azyaşlı uşaqlar üçün hazırlanan Vətən müharibəsində qazanılan Zəfərə və müdrik sərkərdəyə həsr edilmiş "Bizim böyük Qələbəmiz" adlı kitabın Yevlaxda təqdimatı keçirilib.**

Yevlax Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 3 saylı tam orta məktəbdə keçirilən təqdimat mərasimində çıxış edən icra hakimiyyəti başçısının müavini - ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elnarə Əzizova bildirib ki, 44 günlük Vətən müharibəsi dövlətimizin şanlı tarixidir, Azərbaycanın Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bütün döyüş əməliyyatlarını yüksək səviyyədə və məharətlə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, uzun illər işğal altında qalan torpaqlarımızı azad edərək şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bu gün təqdim edilən kitab dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dahi sərkərdəlik məharəti sayəsində qazanılan tarixi qələbəmiz barədə azyaşlı uşaqlar üçün nəzərdə tutulan ilk nəşrlərdəndir və məktəblilərimiz üçün faydalı olacaq bir vəsaitdir.

Daha sonra çıxış edən "Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Elmir Həsənov uşaqlar üçün hazırlanmış bu nəşrin onlarda torpağa bağlılıq və vətənpərvərlik ruhunun möhkəmləndirilməsi istiqamətində aparılan təlim-tərbiyə prosesində müstəsna rol oynayacağını diqqətə çatdırıb.

Digər çıxışçılar "Bizim böyük Qələbəmiz" kitabını nəsillərin görüşü kimi dəyərləndirərək azyaşlı uşaqlar və gələcək nəsillərin Zəfər tariximizi daha yaxından öyrənmələrində əhəmiyyətini vurğulayıblar.

Sonra məktəblilər və mədəniyyət işçiləri Vətən müharibəsində qazanılan qələbəni özündə tərənnüm etdirən ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Məhəmməd Tağı Sidqinin irsi yenidən araşdırılır

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti" kitabı nəşr olunub.

"Sənətkarın elmi pasportu-27" seriyasında çap olunan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Akif İmanlıdır.

Kitabda böyük maarifçi şair, nasir, görkəmli pedaqoq və ilk məktəb dərslikləri yaratmış, dövrünün tanınmış xalq müəllimlərindən biri Məhəmməd Tağı Sidqinin (1854-1903) həyatı və yaradıcılığından bəhs edilir.

Kitab giriş, "Məhəmməd Tağı Sidqinin həyatı", "Yeni nəslin inkişafında rolu", "Şeir yaradıcılığı", "Nəsr əsərləri", "Mətbuatla əlaqəsi", "Pedaqoji görüşləri və dərslikləri", "Elmə xidmət" və nəticə bölümlərindən ibarətdir.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitabın üz qabığındakı şəkil 1902-ci ildə Naxçıvan şəhərində Qurbanəli Şərifzadə tərəfindən çəkilmişdir.

***"Azərbaycan"***




# Qışın son nəfəsi - yazqabağı yağan qar







Baharın astanasındayıq, qışın sona çatmasına sayılı günlər qalır. Amma, deyəsən, qış da "təslim olmaq" istəmir, baxmayaraq ki, bu qışın da ömrünü qarsız başa vuracağını güman edirdik. Amma belə olmadı, qlobal iqlim dəyişikliyi yenə özünü göstərdi.

Ölkəmizin ərazisində son günlər havalar kəskin soyuyub. Qar yağmağa başlayıb və temperatur xeyli aşağı düşüb. Camaatın qışda gözlədiyi qar indi neçə gündür ki, şimal bölgəsində, dağlıq ərazilərdə hər tərəfi ağ örpəyə bürüyüb. Kim təbiətin işinə qarışa bilib ki, biz də qarışaq!? Yaşlılar deyirlər ki, adamın sifətini qışın soyuğu kəsməz, yazın boz üzü deşər.

Amma kənddə yaşayanlar bunun bir qədər fərqinə varmırlar. Onların onsuz da bir ayağı çöldə-bayırda olur. Səhər naxıra, axşam axıra gələn malqaranı yerbəyer etmək, tayadan ot çəkmək gərəkdir. Səhər və axşam sağını, quzulara baxmaq, toyuq-cücəyə yem vermək də lazımdır. Biz hələ çöldə yaztarla işlərini demirik.

Qəribədir ki, belə işlərdən xəstələnən azdır. Çünki təbiətlə təmasda olmaq bütün hallarda sağlamlıqdır. Qubanın Xınalıq, Cek, Gültəpə, Xuçbala və digər kəndlərinin ağsaqqalları deyirlər ki, xəstəlik tənbəllərin kəşfidir. İşlək ürək dayanmaz. Hər səhər təbiətin mehini, otların şehini qarşılayan niyə xəstələnsin ki!?

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İslam ölkələrinin mediası Azərbaycana informasiya dəstəyi göstərməkdə davam edəcək

"İslam ölkələrinin mediası Vətən müharibəsində Azərbaycanın Zəfərinə, Ermənistanın 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi barbarlığa, hazırda həmin ərazilərin bərpası istiqamətində başlanan genişmiqyaslı quruculuq işlərinin işıqlandırılmasına xüsusi həssaslıqla yanaşır".



Bu fikirlər AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə ərəb ölkələrinin Azərbaycanda səfərdə olan bir qrup media nümayəndəsinin görüşündə səsləndirilib.

AZƏRTAC-ın ərəb ölkələrinin bir çox media qurumları ilə sıx əməkdaşlıq etdiyini deyən Aslan Aslanov bildirib ki, müharibə günlərində onlar Azərbaycanın haqq işi barədə obyektiv məlumatlar yayaraq geniş informasiya dəstəyi göstəriblər. "Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində böyük Qələbə qazandı. O dövrdə informasiya sahəsində də ciddi işlər görülürdü. AZƏRTAC məhz tərəfdaş agentliklərin və media qurumlarının dəstəyi ilə müharibə və erməni işğalçılarının barbarlığı barədə obyektiv məlumatları dünyaya çatdırırdı. Agentliyimiz İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının üzvü olaraq bu təşkilatda birləşən bir çox KİV ilə yaxından əməkdaşlıq edir", - deyə o bildirib. Qeyd olunub ki, AZƏRTAC ilə UNA həm ikitərəfli münasibətlərin genişləndirilməsi, həm də təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində fəal məsləhətləşmələr aparır.

"Azərbaycanın Vətən müharibəsində qələbəsi bizi də çox sevindirir", - deyən iraqlı professor Mutəzz Muhy Əbdülhəmid diqqətə çatdırıb ki, Qarabağ məsələsinin işıqlandırılması üçün İraq mətbuatında çoxsaylı məqalələrlə çıxış edib və həmin mövzuda bir neçə kitabı dərc olunub. O, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etdiyini, orada Ermənistan tərəfindən törədilən dağıntıların miqyasından dəhşətə gəldiyini, hazırda bu yerlərə həyatın yenidən qayıtmağa başlamasının onu çox sevindirdiyini və bütün bunları qələmə alacağını bildirib.

Misirin "əl-Diplomasi" elektron qəzetinin baş redaktoru Əşrəf Əbu Arafə artıq bir neçə ildir AZƏRTAC ilə əməkdaşlıq etdiklərini vurğulayaraq deyib: "Həm müharibədən əvvəl, həm də müharibə dövründə məlumatları AZƏRTAC-dan alırdıq. Agentliyiniz bu xəbərləri operativ şəkildə dünyaya çatdırırdı".

UNA-nın xarici əlaqələr və strateji inkişaf üzrə direktoru Yunus İnayət AZƏRTAC-ı etibarlı tərəfdaş adlandıraraq bundan sonra da Azərbaycana informasiya dəstəyi göstərəcəklərini qeyd edib. Təşkilatın təkmilləşdirilməsi üçün qarşıda duran hədəflərdən danışan Yunus İnayət bununla əlaqədar AZƏRTAC ilə ətraflı fikir mübadiləsi aparmaq niyyətində olduqlarını deyib.

Mərakeşin MAP İnformasiya Agentliyinin əməkdaşı Xalid əl-Hərrak işğaldan azad edilən ərazilərə səfər zamanı gördüklərindən danışıb, Azərbaycanın bu qələbəsinin doğurduğu sevinc hisslərini dilə gətirib. O, dost agentliklər arasında əlaqələrin genişləndirilməsi istiqamətində birgə fəaliyyətin önəmli olduğunu vurğulayaraq qeyd edib ki, Dünya Xəbər Agentlikləri Şurasının üzvü olan AZƏRTAC VII Dünya Xəbər Agentlikləri Konqresinin Mərakeşdə keçirilməsinə dəstək verən agentliklərdən biridir.

Görüşdə Ermənistanın Qarabağdakı İslam abidələrinə qarşı barbarlığından danışılıb, həmçinin informasiya sahəsində birgə layihələr, tərəfdaşlıq müqavilələri əsasında əlaqələrin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın turizm imkanları Hindistanda tanıdılır

Hindistanın Mumbay şəhərində təşkil olunan "OTM Mumbai-2022" Beynəlxalq Sərgisində Azərbaycan milli stendlə təmsil olunur.





AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Azərbaycan Turizm Bürosu ilə yanaşı, sərgidə 10 yerli turizm şirkəti də iştirak edir.

Sərgi ziyarətçilərinə Azərbaycanın, o cümlədən işğaldan azad olunan ərazilərin turizm imkanları, postpandemiya dövründə ölkədə mövcud səyahət qaydaları, Azərbaycana səfər imkanları, yeni turizm məhsulları və istiqamətləri haqqında geniş məlumat verilir.

Martın 16-na kimi davam edəcək beynəlxalq sərgidə Azərbaycan Turizm Bürosu tərəfindən ölkə turizminin təbliği və təşviqi ilə bağlı B2B görüşlərin və seminarların keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, Azərbaycana tanışlıq səfərlərinin və birbaşa aviauçuşların təşkili ilə bağlı müzakirələrin də aparılması planlaşdırılır.

Sərgi çərçivəsində panel müzakirələrində iştirak edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktorunun müavini Bəhruz Əsgərov Hindistan bazarının Azərbaycan üçün prioritet bazarlardan biri olduğunu, hindistanlı turistlərin istirahətlə yanaşı, işgüzar turizm, toy və digər turizm növlərinə üstünlük verdiklərini diqqətə çatdırıb. O, cari ilin fevralın 15-dən Hindistanın hava yolu ilə Azərbaycana giriş-çıxışına icazə verilən ölkələr sırasında olduğunu, bunun iki ölkə arasında səfər saylarının artmasına müsbət təsir edə biləcəyini qeyd edib.

Məlumat üçün bildirək ki, sərgiyə 55 ölkədən 1100-ə yaxın iştirakçı, 30000-dən çox turizm və səyahət üzrə ixtisaslaşmış mütəxəssisin qatılması gözlənilir.

# Havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır

Azərbaycanda martın 15-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı gözlənilir. Gecəyə doğru Abşeron yarımadasının əsasən şimal hissəsində qısa müddətə sulu qara keçməsi ehtimal edilir. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə və gündüz 2-7° isti olacağı ehtimalı var.

Atmosfer təzyiqi normadan yüksək - 771 millimetr civə sütunundan 767 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-7° isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 16°-dək şaxta, gündüz 3-8° şaxta olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında arabir qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında arabir qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, dağlarda 16°-dək şaxta, gündüz 0-5° şaxta olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında əsasən gecə və axşam havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 1-6° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 17°-dək şaxta, gündüz 3-8° şaxta olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, sulu qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-7° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-5°, gündüz 5-8° isti, dağlarda gecə 2-4°, gündüz 0-2° şaxta olacaq.

# Almaniyada Azərbaycan klassik musiqisindən ibarət konsert verilib

**Almaniyanın Karlsruye şəhərində İqtisadi forumun mərkəzi zalında Azərbaycan klassik musiqisindən ibarət konsert verilib.**

AZƏRTAC xəbər verir ki, səhnənin qəhrəmanı istedadlı Azərbaycan ifaçısı Fəridə Rüstəmova olub. F.Rüstəmova tanınmış bəstəkar Səid Rüstəmovun nəvəsidir.

Konsert Azərbaycan diasporunun dəstəyi və ölkəmizin Almaniyadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutub.

Konsertdə F.Rüstəmova və Azərbaycanın Almaniyadakı fəxri konsulu Otto Hauzerin birgə yaratdığı "Land of Fire" orkestri çıxış edib. Konsertin keçirildiyi zal şəhərin prestijli məkanlarından biridir.

"Yenidən bir araya gələ bildiyimiz üçün çox şadam. Orkestr üzvləri Almaniyanın müxtəlif şəhərlərində, bir-birindən kifayət qədər uzaqda, şimalda və cənubda yaşayırlar. Xoşbəxt bir təsadüf nəticəsində hamımız işi, təhsili və layihələri bir kənara qoyub görüşə bildik. Konsert çox gözəl keçdi, qonaqlar bizi ayaq üstə alqışlayırdılar. Sonda bir çox tamaşaçılar, o cümlədən iri firmaların və görkəmli konsernin nümayəndələri gözəl musiqiyə görə minnətdarlıq sözləri ilə çıxış etdilər. Biz ifaçılara göstərilən dəstəyə və diasporun etimadına görə çox minnətdarıq. Gələcək konsertlər və digər tədbirlərin keçirilməsi ümidilə", - deyə F.Rüstəmova AZƏRTAC-a müsahibəsində bildirib.

# Azərbaycan ilə Pakistan və Bolqarıstan arasında mülki aviasiya sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, AZAL prezidenti Cahangir Əsgərov Pakistanın Azərbaycandakı səfiri Bilal Hayi və Bolqarıstanın Azərbaycandakı səfiri Nikolay Yankov ilə işgüzar görüş keçirib.

Pakistanın səfiri ilə görüşdə Azərbaycan ilə Pakistan arasında mülki aviasiya sahəsində qarşılıqlı əməkdaşlığın gündəliyinə dair fikir mübadiləsi aparılıb, sərnişin axınının artırılması üzrə perspektiv planlar müzakirə edilib. Tərəflər qeyd ediblər ki, həyata keçirilən əksepidemik tədbirlər COVID-19 ilə bağlı hazırkı vəziyyətin yaxşılaşdırılmasına nail olmağa imkan yaradıb.

Görüş zamanı ölkələr arasında hava əlaqəsinin bərpasının vacibliyi vurğulanıb. "Pakistan International Airlines" aviaşirkəti bu həftə Pakistanın iki şəhərindən - Kəraçi və Lahordan Bakıya uçuşlar yerinə yetirməyə başlayacaq. Azərbaycanın milli aviadaşıyıcısı, həmçinin Bakıdan Lahora uçuşlara başlamağı planlaşdırır.

Cahangir Əsgərov qeyd edib ki, birbaşa hava əlaqəsinin açılması iki ölkə arasında turizmin və işgüzar münasibətlərin inkişafına əlavə stimul verəcək. Səfir Bilal Hayinin sözlərinə görə, müntəzəm reyslərin yerinə yetirilməsi Azərbaycan ilə Pakistan arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafına yeni təkan verəcək.

AZAL prezidenti Cahangir Əsgərovun Bolqarıstanın Azərbaycandakı səfiri Nikolay Yankov ilə görüşündə tərəflər arasında ideyalar, proqnozlar, mülki aviasiya sahəsində mövcud vəziyyət barədə fikir mübadiləsi aparılıb və iki ölkənin aviaşirkətləri tərəfindən əksepidemik məhdudiyyətlərdən çıxış üçün görülən tədbirlər barədə məlumat verilib. Görüş zamanı Cahangir Əsgərov və Nikolay Yankov Sofiya ilə Bakı arasında aviareyslərin bərpası perspektivlərini müzakirə ediblər.

AZAL prezidentinin sözlərinə görə, Azərbaycanın bütün hava limanlarında beşinci və yeddinci dərəcəli hava məkanı azadlığı tətbiq edilir. Cahangir Əsgərov qeyd edib ki, bu azadlıqlar bütün xarici aviadaşıyıcılara Azərbaycandan Avropa, Şimali Amerika, Avstraliya və Cənub-Şərqi Asiyanın 40 ölkəsinə uçuşları heç bir məhdudiyyət qoyulmadan yerinə yetirməyə imkan verir.

Səfir Nikolay Yankovun sözlərinə görə, qarşılıqlı faydalı və sıx əməkdaşlıq iki ölkə arasında işgüzar və mədəni əlaqələrin inkişafına xidmət edəcək.

# "Delta" kimi öldürücü, "Omikron" kimi yoluxucu



## Dünya indi də COVID-19-un "Deltamikron" sınağı ilə üz-üzədir

**Bəşəriyyət koronavirus pandemiyası ilə keçirdiyi iki ili geridə qoydu. Bu iki ildə COVID-19 gündəmimizin ilk sırasında yer aldı və demək olar ki, hər bir planımızı onun tələbləri ilə uyğunlaşdırmağa çalışdıq. Hazırda isə COVID-19-un sürətli yoluxucu xüsusiyyətə malik "Omikron" variantı sayəsində pandemiyanın bitəcəyi barədə proqnozlar da səsləndirilir.**

Bununla əlaqədar Danimarka Dövlət Serum İnstitutunun baş epidemioloqu Tira Grove Krause son araşdırmaları ilə bağlı vurğulayıb ki, "Omikron"a yaxalananların xəstəxanaya yerləşdirmə riski "Delta"ya tutulanların yarısı qədərdir. "Omikron"un pandemiyaya son verə biləcəyini ifadə edən Krause "Araşdırmamıza görə, "Omikron" səbəbi ilə önümüzdəki yayda yoluxmalarda kiçik artım olacaq. Ancaq yüksəliş dayandığı zaman daha yaxşı bir yerdə olacağıq", - deyə bildirib.

London Universitet Kollecinin Genetika İnstitutunun direktoru Fransua Ballu, bu qış Avropada bəzi dalğalanmalar gördüklərini, lakin peyvənd nisbəti yüksək olan ölkələrdə virusun pandemiya mərhələsinin yayda bitəcəyinə tamamilə əmin olduqlarını söyləyib.

Liverpul Universitetindən professor Julian Hiscox isə əminliklə söyləyib: "Demək olar ki, sona yaxınlaşırıq, 2022-ci ilin ortalarına qədər həyat pandemiyadan əvvəlki kimi olacaq".

Alimlər pandemiyada gəlinən bu son vəziyyətin iki əsas səbəbi olduğunu bildirirlər. Birincisi, dünya üzrə peyvəndlənənlərin say çoxluğu, ikincisi isə, "Omikron" variantının çox yoluxucu olmasıdır. Onlar peyvənd olunan insanların belə "Omikron"a yoluxduğunu, lakin ağır xəstəliklər və ölüm hallarının aşağı səviyyədə qaldığını qeyd edirlər. "Omikron"a qarşı kütləvi immunitet qazanılması sayəsində yoluxmaların çoxalmasına baxmayaraq, ölüm halları artmayıb.

### Nikbin olmaq hələ tezdir

Mütəxəssislər COVID-19-la bağlı nikbin sonluğa hazırlaşmağın hələ tez olduğunu bildirirlər. Dünyada vaksinasiya və xəstəliyə məruz qalma nisbətinin müəyyən rəqəmləri aşmadan pandemiyanı gündəmdən çıxarmağın mümkünsüzlüyünü bildirirlər. Məlumatlara əsasən, Afrika ölkələrində hələ əhalinin 1 faizdən az hissəsi peyvənd olunub. Hətta peyvənd çatışmazlığı səbəbindən tibb işçiləri də tam peyvənd oluna bilməyiblər. Bu problemin aradan qaldırılması üçün peyvəndlərə bərabər əlçatanlığın təmin edilməsi və yoxsul ölkələrə bu məsələdə kömək edilməsi vacibdir.

Digər bir tərəfdən də artıq "Deltamikron" adlandırılan yeni və daha təhlükəli variantın yayıldığı barədə xəbərlər var.

İzmir Katip Çələbi Universiteti Atatürk Təhsil və Araşdırma Xəstəxanası Yoluxucu Xəstəliklər Bölümünün müəllimi Alper Şener Asiya - Sakit Okean ölkələrində yenidən yoluxmalarda yüksəliş olduğuna diqqət çəkib. Professor buna "Omikron" və "Delta"nın birləşməsinin səbəb olduğunu bildirərək Avropa İttifaqının bəzi ölkələrindən, xüsusən də Fransadan bu məsələ ilə bağlı bildirişlər gəldiyini söyləyib.

"Delta" və "Omikron"un birləşməsindən yeni bir variantın yaranıb yaranmaması ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatının hazırda tədqiqat apardığını bildirən A.Şener bunları da sözlərinə əlavə edib: "ÜST bu məsələni izləyir. Çünki bizim son bir il içərisində ən çox qorxduğumuz "Delta" qədər öldürücü, "Omikron" qədər yoluxucu bir variantın yaranması idi. "Omikron" yüngül simptomlarla keçsə də, xəstə sayı çox olduğundan sağlıq qurumlarında yüklənməyə səbəb olur. "Delta", "Delta+" ştamlarında isə öldürücülük çoxdur. Qorxulu bu idi və bununla bağlı Fransadan bəzi təsdiq hesabatları var. "Delta" ilə "Omikron"'un qarışımı olan bir variantın olduğunu bildirdilər". Professor vurğulayır ki, ÜST bu variantları və ya müxtəlif kombinasiyaları izləyir. Viruslar öz aralarında birləşmə əmələ gətirirlər.

### Bu variant immuniteti zəif olan insanlarda görünə bilər

ABŞ dərman şirkəti "Moderna"nın baş tibb mütəxəssisi Paul Burton da vurğulayıb ki, həm "Delta", həm də "Omikron" variantlarını eyni anda tutmaq yeni və daha təhlükəli variantın ortaya çıxması ilə nəticələnə bilər. Belə bir vəziyyətin xüsusilə immuniteti zəif olan insanlarda görülə biləcəyini ifadə edən Burton, sözügedən birləşmənin COVID-19-un daha pis simptomlarının olma ehtimalını yaradacağını qeyd edib.

Rusiya Vektor Virusologiya Araşdırma Mərkəzinin rəhbəri Aleksandr Semyonov da insanların eyni vaxtda iki variant əldə edə biləcəyini açıqlayıb. Bununla belə, A. Semyonov bunun "olduqca nadir" ola biləcəyini söyləyib.

ABŞ-da Cekson Laboratoriya İnstitutunda baş tədqiqatçı vəzifəsində çalışan İmmunologiya mütəxəssisi professor Dərya Unutmaz isə söyləyib ki, daha əvvəl də bu mövzuda məlumatlar paylaşılmışdı, lakin çox etibarlı deyildi. Fransanın Paster İnstitutunun nəticələrinə nəzər saldıqda isə bunun daha etibarlı olduğunu söyləmək olar: "Fransada bir neçə belə hal üzə çıxanda onlar bunun üzərində intensiv işlədilər. Birləşmiş Ştatlarda da yeni virusa qeydə alınan hallar var. Amma mən bunun daha yoluxucu olduğunu düşünmürəm. Çünki belə bir vəziyyət olsaydı, biz bunu çox yüksək templə görərdik. Əgər yeni ştam yayılarsa, peyvənd olunmamış insanlarda ölümcül ola bilər, amma bu ikisinin çox böyüyəcəyini düşünmürəm".

Pandemiyanın başlanğıcından bu günə qədər bütün elm adamlarının gəldiyi yeganə qənaət odur ki, indiyə qədər yaranmış yeni variantlardan və qarşıda yaranması mümkün görünən yeni ştamlardan qorunmağın yeganə yolu peyvəndlənmək və bu sayədə 100 faiz kütləvi immunitetə sahib olmaqdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







XXVIII Dünya Çempionatı

# Bakı daha bir mötəbər yarışa evsahibliyi etdi

## Akrobat gimnastlarımız tarixi nailiyyət qazandılar







Bakıda gimnastikanın daha bir növü üzrə mötəbər beynəlxalq yarışa yekun vurulub. Belə ki, martın 10-13-də Milli Gimnastika Arenasında gimnastikanın ən maraqlı növlərindən biri olan akrobatika gimnastikası üzrə ilk dəfə dünya çempionatı keçirilib.

Yarışlarda 17 ölkədən 170 idmançı iştirak edib. 4 gün davam edən çempionatda idmançılar qadın, kişi və qarışıq cütlükləri, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə medallar uğrunda mübarizə aparıblar.

Yarışda ölkəmizi gənclər arasında Avropa çempionları Daniel Abbasov və Murad Rəfiyev kişi cütlüyü tərkibində təmsil ediblər. Qarışıq cütlüklər tərkibində isə beynəlxalq turnirlərin qalibləri Sabir Ağayev və Mehriban Salamova, Avropa çempionatının gümüş və bürünc mükafatçıları Ağasif Rəhimov və Raziyə Seyidli mübarizə aparıblar.

Hesabında 1 gümüş və 2 bürünc medal olan Azərbaycan komandası yekunda Macarıstan, Almaniya və Avstriyanı qabaqlayaraq yeddinci pillədə qərarlaşıb. İlk üçlükdə isə Belçika, Portuqaliya və ABŞ komandaları yer alıb.

Xatırladaq ki, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz qarışıq və temp hərəkətlərində bürünc, Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz isə temp hərəkətində gümüş medal qazanıb və bununla idmançılarımız tarixi nailiyyətə imza atıblar.

Bu medal Azərbaycanın akrobatika gimnastikası tarixində dünya çempionatında qazanılan ilk gümüş medaldır.

Martın 13-də Bakıda akrobatika gimnastikası üzrə XXVIII Dünya Çempionatının təntənəli bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe qlobal pandemiyaya və sülh böhranına baxmayaraq, yarışda iştirak edən idmançılara və rəsmilərə təşəkkürünü bildirib. O deyib: "Azərbaycan Gimnastika Federasiyasına, könüllülərə və bütün tərəfdaşlara möhtəşəm dünya çempionatının təşkilində göstərdikləri səylərə görə minnətdarlıq edirəm. Akrobatika gimnastikası idman növləri arasında ən yüksək artistizm və mükəmməlliyə sahib növlərdən biridir. Bu dəfə musiqi və çıxışlar arasındakı harmoniya, o cümlədən hərəkətlərin icrasında daha çox artistizm diqqətimi cəlb etdi. Düşünürəm ki, gimnastikanın bu növü insanları daha çox cəlb edəcək bir nöqtəyə gəlib. İdmançıların çıxışı dostluğu, inamı və həmrəyliyi gözəl şəkildə ifadə etdi. İnanıram ki, gimnastlar bu xaotik dövrdə insanlıq üçün bir nümunə sərgilədilər".

M.Vatanabe akrobatika gimnastikası üzrə növbəti mundialın İsraildə keçiriləcəyi barədə məlumat verib: "Bakıda dünya çempionatı yekunlaşdı. 2024-cü ildə XXIX Dünya Çempionatına İsrailin Holon şəhəri evsahibliyi edəcək. İsraildə görüşənədək".

Beynəlxalq federasiyanın prezidenti akrobatika gimnastikası üzrə XXVIII Dünya Çempionatını bağlı elan etdikdən sonra Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə FIG bayrağını M.Vatanabeyə təqdim edib. M.Vatanabe isə bayrağı İsrail Gimnastika Federasiyasının rəsmisi Zina Harrisə verib.

Xatırladaq ki, akrobatika gimnastikası üzrə XII Dünya Yaş Qrupları Yarışlarında 13-19 yaş kateqoriyasında mübarizə aparan Leyla Bəşirova, Nəzrin Fərmanova, Mənsumə Məmmədzadədən ibarət qadın qrupumuz qızıl medal qazanıb. Təsnifat mərhələsində gimnastlarımızın çıxışı hakimlər tərəfindən 28,250 xalla qiymətləndirilib. Temp hərəkətində çıxış edən təmsilçilərimiz hakimlərdən 26,870 xal alıblar. İki hərəkətin cəmində 55,120 xal toplayan qrupumuz finala yüksəlib. Finalda qarışıq hərəkətlər üzrə hakimlərdən 28.930 xal alan idmançılarımız bütün rəqiblərini üstələyərək qızıl medala sahib çıxıblar.



Bu, Azərbaycanın akrobatika tarixində dünya yaş qrupları yarışlarında qazanılan ilk qızıl medaldır.

İlk dəfə Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda 24 ölkədən 438 gimnast iştirak edib.







Azərbaycanda idman siyasəti dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurla həyata keçirilir. Müstəqil Azərbaycan tarixində ölkəmiz, xüsusi ilə paytaxtımız bir sıra idman növləri üzrə mötəbər yarışları təşkil etməsi ilə yadda qalıb. Gimnastika növləri üzrə yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilib.

2002-ci ildə Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və bu vəzifədə özünü peşəkar təşkilatçı kimi nümayiş etdirib. Həmin vaxtdan bəri mövcud gimnastika növləri dirçəlib və digərləri də inkişaf etməyə başlayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın beynəlxalq aləmdə artmaqda olan nüfuzu bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin, dünya kubokunun, 27-ci dünya çempionatının, 23-cü, 25-ci və 30-cu Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

Bundan əlavə, batut üzrə Avropa, dünya çempionatlarına evsahibliyi etmişik. Ötən həftə Bakıda akrobatika gimnastikası üzrə XII Dünya Yaş Qrupları Yarışları, martın 10-13-də isə böyüklər arasında akrobatika gimnastikası üzrə 28-ci mundial uğurla keçirildi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini kağız daşıyıcıda təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: mümkün qısa müddət ərzində

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Elşən Əliyev, tel: 590-20-64

Ünvan: Bakı şəhəri, Azadlıq pr. 161L

**LOT 3 -** Sıravi furajkası, yay və qış səhra papaqları, qalstuk, poliver, isti qış gödəkçələri, qış səhra gödəkçələri, kostyum (PPX -YPX - ÇPA), yay şalvarı (YPX-PPX-ÇPX), yay örtüyü, plaş örtük, qısaqol mayka, səhra kostyumu, səhra maykası, qısaqol və uzunqol köynəklər

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün müraciət etdikdən və aşağıda qeyd olunan hesaba iştirak haqqı ödədikdən sonra ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**İştirak haqqı 1000.0 manat**
**Bank rekvizitləri -**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005:**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944,**
**S.W.I.F.T: Bik CTREAZ 22**
**DİN-in Maddi Texniki Təminat Baş İdarəsi**
**Hesab: AZ14CTRE00000000000002077706,**
**VÖEN: 1500281641**
**Büdcə təsnifatının kodu: 142595 BSK 3**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada təqdim etməlidirlər.

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı;*
- *bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyəti müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notariusdan təsdiq edilmiş surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat.*

Malgöndərənlər (podratçılar) qeyd olunan sənədləri **25.04.2022-ci il saat 11:00-a** kimi Tender komissiyasına təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **03.05.2022-ci il saat 11:00-a** qədər təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 04.05.2022-ci il saat 11:00-da açılacaqdır.

***Tender komissiyası***

# “Uşaq Qaynar Xətt” xidməti Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığa başladı

## “Azercell”in dəstəklədiyi xidmət uşaqları bədbəxt hadisələrdən qorumaq üçün yeni imkanlar açır

“Azercell Telekom” MMC-nin dəstəyi ilə yaradılan və fəaliyyət göstərən “Azərbaycan Uşaq Qaynar Xətt” (AUQX) xidmətinin əməkdaşlıq etdiyi dövlət qurumları sırasına Fövqəladə Hallar Nazirliyi (FHN) də əlavə olundu. Mart ayından başlayan yeni əməkdaşlıq çərçivəsində Fövqəladə Hallar Nazirliyinin “112” xidmətinə uşaq və yeniyetmələr tərəfindən daxil olan müraciətlər birbaşa olaraq “Uşaq Qaynar Xətti”nə yönləndiriləcək.




Fövqəladə Hallar Nazirliyinin “112” qaynar xəttinə köməksiz halda olan insanlar, o cümlədən uşaq və yaşlılar da müraciət edirlər. Odur ki, yeni əməkdaşlıq ağır vəziyyətlə üzləşən azyaşlılara kömək etmək, baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq, psixoloji basqı və zorakılıqla üzləşən yeniyetmələrə dərhal peşəkar yardımın göstərilməsi baxımından çox əhəmiyyətlidir.

Fövqəladə Hallar Nazirliyinin “112” qaynar xəttinə günün istənilən vaxtı sabit şəbəkə telefonlarından (ATS), bütün növ taksofonlardan və mobil operatorlardan ödənişsiz olaraq zənglər qəbul olunur.

“Azərbaycan Uşaq Qaynar Xətt” xidməti hər il müxtəlif çətinliklərlə üzləşən minlərlə uşaq və yeniyetməyə təmənnasız yardım edir. Hüquqları pozulan uşaqları psixoloji və fiziki zədələrdən qorumaq məqsədi daşıyan bu mərkəz 11 ildən artıqdır ki, “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyi, “Azercell Telekom”, UNİCEF Azərbaycan, həmçinin uşaq problemləri sahəsində çalışan dövlət qurumları ilə birgə əməkdaşlıq sayəsində gərgin işini davam etdirir. Bu müddətdə AUQX 53.000-dən çox müxtəlif xarakterli müraciət cavablayıb. Mərkəzə daxil olan bütün müraciətlər məsləhətçi-hüquqşünas, psixoloq və sosial işçilər tərəfindən dinlənilir. Zəng edənlərə lazımi məsləhətlər verilir, bəzi hallarda isə onlar müvafiq qurumlara yönləndirilir. Zorakılığa məruz qalmış uşaqlar və onların ailə üzvlərinə mərkəzin peşəkar əməkdaşları tərəfindən təcili psixoloji yardım da göstərilir.

“Azərbaycan Uşaq Qaynar Xətti” xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçt ünvanına, “Feysbuk” və “İnstaqram” sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və “uşaqqaynarxetti” mobil əlavəsi vasitəsilə müraciət etmək olar.


**Azercell**

## abunəçilərinin nəzərinə

Fakturasız (SimSim) xətt və Fakturalı xətt sistemlərinə aid nömrələr ilə əlaqədar abunəçilər ilə “Azercell Telekom” MMC arasında münasibətləri tənzimləyən Abunə Müqavilələrinin 6-cı maddəsi aşağıdakı redaktədə verilmək ilə 14 aprel 2022-ci il tarixdən etibarən rəsmi olaraq hüquqi qüvvəyə minərək, həm Fakturasız (SimSim) xətt və Fakturalı xətt sistemlərinə aid nömrələrlə əlaqədar münasibətlərdə tətbiq ediləcək:

“6. ROMİNQ

6.1. “AZERCELL” tərəfindən müəyyən edilən şərtlər çərçivəsində rominq xidmətini aktiv və ya ləğv etmək üçün Abunəçi Müştəri Xidmətlərinə müraciət edə bilər”.

Eyni zamanda abunəçilərimizin diqqətinə çatdırırıq ki, 12.11.2015-ci il tarixdən etibarən, “Azercell Telekom” MMC tərəfindən abunəçilərə depozit məbləği ödəmədən açar sözünü müvafiq qısa nömrəyə göndərmək ilə rominq xidmətini aktivləşdirmək və ya ləğv etmək imkanı təqdim etmişdir. Göstərilənləri nəzərə alaraq, Abunə Müqaviləsində mövcud olmuş rominq xidmətini aktiv etmək üçün tələb olunan depozit şərti çıxarılır. Abunəçilər nömrələrinin hesabına ödədikləri vəsaiti telekommunikasiya xidmətlərinin göstərilməsinə sərf edə və ya Abunə Müqaviləsinin 2.8-ci maddəsində nəzərdə tutulan xidmətlər çərçivəsində istifadə edə bilərlər. “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi - SimSim abunəçiləri (012) 4904949\2002, fakturalı xətt abunəçiləri (012) 4905252\6565, E- poçt: customercare@azercell.com; musterixidmetleri@azercell.com, o cümlədən online müştəri xidmətləri) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



**Azercell**

## abunəçilərinin nəzərinə

Mobil rabitənin dəyişən trendlərini və abunəçilərin mobil internet xidmətlərinin istifadəsinə üstünlük verməsini nəzərə alaraq daha geniş seçim imkanı yaratmaq məqsədilə “Azercell” təklif etdiyi internet paketlərinin çeşidini optimallaşdırmağı planlaşdırır. Beləliklə, 15.04.2022-ci il tarixdən başlayaraq internet paketlərindən istifadə edən abunəçilər üçün aşağıdakı şərtlər tətbiq ediləcək:

- Gündəlik 500 MB, aylıq 60 MB, eləcə də, limitsiz gecə paketləri təklif olunan məhsul siyahısından çıxarılacaq və növbəti yeni qoşulmalar mümkün olmayacaq. Həmin paketlərə 15.04.2022-ci ilə kimi qoşulan abunəçilər, paketi deaktiv etmədikləri təqdirdə istifadəyə davam edə biləcəklər.
- 1 saat limitsiz internet paketinə - 0,59 AZN; 3 saat limitsiz internet paketinə - 1,49 AZN; 6 saat limitsiz internet paketinə - 2,39 AZN; Həftə sonu limitsiz internet paketinə - 2,99 AZN xidmət haqqı tətbiq ediləcək.

Bundan əlavə, “Azercell” təqdim etdiyi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və fakturasız (SimSim) xətt sisteminin abunəçilərinə təklif olunan tariflərin optimallaşdırılması məqsədilə bəzi tarif paketlərində dəyişiklik edir. Müvafiq olaraq, 15.04.2022-ci il tarixdən etibarən “Bölgə” tarifi üçün hesablama intervalı 60 saniyə kimi tətbiq ediləcək.

**Qeyd:**

Bütün qiymətlər ƏDV daxil göstərilib. Abunəçilər göstərilən dəyişikliklər, müvafiq tarif paketləri və mövcud tarif paketlərinin dəyişdirilməsi şərtləri barədə, o cümlədən “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com),** həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsil alanların 2022-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması *məqsədilə tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1700 (bir min yeddi yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd kimi qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin dövlət reyestrindən çıxarışı;*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, Sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə (təhsil müəssisələrinə) qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən 31 dekabr 2022-ci il tarixədək mallar (iş və xidmətlər) dövlət təminatında olan təhsilalanların müvafiq yaş qrupları üzrə hazırlanmış 14 sayda gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə bu müddət ərzində tenderin Əsas şərtlər toplusunda göstərilmiş 55 təhsil müəssisəsində gündəlik təhvil verilməlidir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 22.04.2022-ci il saat 16:00-dək tender təklifi və tender təklifinin bank təminatını 04.05.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 05.05.2022-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, Filologiya üzrə elmlər doktoru, professor

**ƏJDƏR TAĞI OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiyanın üzvləri Milli Məclisin deputatı, İntizam komissiyasının üzvü Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi “Paşa Bank” ASC-nin İdarə Heyətinin sədri Taleh Kazımova atası

**TAHİR KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi Ağdaş rayon Elektrik Şəbəkəsinin Enerji satış şöbəsinin rəisi

**İSLAM EHSAN OĞLU HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi Nəsimi Rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Ülvi Həsənova anası

**ATLAS XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri qocaman memar, Azərbaycanın Əməkdar inşaatçısı

**KAMAL ABBAS OĞLU İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə qocaman memar, Azərbaycanın Əməkdar inşaatçısı

**KAMAL ABBAS OĞLU İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü

**YUSİF MAHMUD OĞLU İBRAHİMLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü

**YUSİF MAHMUD OĞLU İBRAHİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5835**
**Sifariş 742**
**Qiyməti 40 qəpik**